**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Azərbaycan Respublikasında bank kreditlərinin qeyri-neft sektorunun inkişafına təsirinin qiymətləndirilməsi” mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Məmmədzadə Bilal Qabil**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d.,dos. Fariz Saleh Əhmədov**

**__________________ imza**

**"___" __________ ___ 2019-cu il**

# "Azərbaycanda Respublikasında bank kreditlərinin qeyri-neft sektorunun inkişafına təsirinin qiymətləndirilməsi"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifrəsi və adı: 060405 Sənayenin təşkili və idarə edilməsi**

**İxtisaslaşma: Müəssisə iqtisadiyyatı**

**Qrup: 500**

**Magistrant**

**Məmmədzadə Bilal Qabil**

**___________________imza**

**Elmi rəhbər**

**i.ü.f.d.,dos. Ağayev Səyyad İsaq**

**_____________________imza**

**Proqram rəhbəri**

**i.ü.f.d., b.m Hümbətova Suqra İnqilab**

**_____________________imza**

**Kafedra müdiri**

**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi**

**_____________________imza**

**BAKI – 2019**

**“The evaluation of the bank loans’ impact in the development of non-oil sector in the Republic of Azerbaijan”**

## Summary

**The relevance of research: Azerbaijan exports its multifaceted industrial products to many countries around the globe, and revenue from exports is rising every year. As a result of the purposeful policy pursued by the President of the country, Azerbaijan successfully embarks on the post-oil era and goes on diversification in the economy.**

**Purpose and tasks of the research: Financial resources are generated in order to provide the necessary funds and ensure sustainable development of the sector in general. The Azerbaijani state is close to all its citizens operating in the industrial sector, whether small or medium-sized, and promotes their business by allocating preferential loans, subsidies. Small businesses are able to change the overall economic picture of the country and, therefore, the role of bank loans in developing the field is undeniable.**

**Used research metods: Dissertation was analyzed by various methods, including analysis, synthesis, and also by induction and deduction methods.**

**Research information base: The State has provided a large number of loans to the development of business (non-oil industry) through a large number of subjects, including the National Fund for Entrepreneurship Support, and this trend is expected to continue unambiguously in the near future. As a result of this push, the picture of the non-oil sector of Azerbaijan has changed completely in recent years.**

**Research restrictious: The object of the dissertation includes the preferential loans allocated by the banks for the development of the non-oil sector, as well as the problems caused by the lending itself.**

**Research results: The scientific novelty of the research work is a scientific and analytical study of the impact of bank loans on the development of non-oil sector in Azerbaijan**

**Key words: Banking credits, national economic, non-oil sector**

## İXTİSARLAR VƏ İŞARƏLƏR

**ABŞ:** Amerika Birləşmiş Ştatları

**AR:** Azərbaycan Respublikası

**İKT:** İnformasiya-Kommunikasiya Texnologiyaları

**TANAP:** Trans Anadolu Boru Kəməri

**TAP:** Transadriatik Boru Kəməri

MÜNDƏRİCAT

**GİRİŞ....................................................................................................6**

**I Fəsil AZƏRBAYCAN RESPUBLİKASINDA BANKLARIN FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ..............................................................12**

1.1 Azərbaycan Respublikasının milli iqtisadiyyatında bank sektorunun önəmi....12

1.2 Bank kreditləri və onların milli iqtisadiyyatda rolu..........................................20

**II Fəsil MİLLİ İQTİSADİYYATIN QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAF ETDİRİLMƏSİ PRİORİTETLƏRİ..................................................................29**

2.1 Qeyri-neft sektorunun inkişaf etdirilməsi günümüzün ən mühüm iqtisadi tələbi kimi..........................................................................................................................29

2.2 İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün dövlət tərəfindən həyata keçirilən siyasətin analizi......................................45

**III Fəsil AZƏRBAYCANDA BANK KREDİTLƏRİNİN QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFINA TƏSİRİ..........................................................55**

3.1 Qeyri-neft sektorunun inkişaf etdirilməsində banklarla əməkdaşlıq və bank kreditlərinin rolu......................................................................................................55

3.2 Qeyri-neft sektorunun inkişaf etdirilməsində bank kreditlərinin təsirinin gələcək perspektivləri...............................................................................................69

**NƏTİCƏ VƏ TƏKLİFLƏR.........................................................................76**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT.................................................................79**

Cədvəllərin siyahısı...............................................................................................83

Şəkillərin siyahısı...................................................................................................83

# GİRİŞ

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra ölkədə çoxlu sayda yeni banklar meydana gəlməyə başladı. Sovet imperiyasının dağılması özü ilə birlikdə yeni çağırışlar da gətirmişdi və bunlardan ən başlıcaları modern dünya nizamına inteqrasiya olmaq, bazar iqtisadiyyatına keçmək və kapitalizmin əsaslarını mənimsəmək idi. Milli iqtisadiyyatlar ilkin mərhələdə (qurulma mərhələsində) sovet dönəmindən qalma mirasın müasir dövr üçün yararlı olan hissəsini mənimsəməklə birlikdə, onları tranformasiyaya uğradaraq bazar şərtlərinə uyğunlaşdırmaq funksiyasını da öz üzərinə götürmüşdü, odur ki, ilkin dönəmdə iqtisadiyyatların təməl daşları atılarkən sistemli və ardıcıl islahatların aparılması gözlənilə bilməzdi və həmin dönəm üçün ən aktual və vacib məsələ iqtisadiyyatın necə olur olsun möhkəmlənməsinə nail olmaq idi. Buna görə də Azərbaycanın neft-qaz imkanlarının potensialı ön plana çıxarıldı və milli iqtisadiyyat bunlar üzərində təməlləndi. Lakin sonradan aşkar oldu ki, neft amilindən asılı olan iqtisadiyyatlar dayanıqlı olmur və ən xırda böhranlar belə onların əsaslarını sarsıda bilir, odur ki, qeyri-neft sektorunun da inkişaf etdirilməsi ən mühüm prioritet kimi qarşıya qoyuldu. Dövlət tərəfindən aparılan ardıcıl siyasət nəticəsində qeyri-neft sektorunun inkişafına stimul verildi və son illərdə milli iqtisadiyyatda qeyri-neft sektorunun faiz payı ildən-ilə artmaqdadır. Bəs bu artımda banklarla əməkdaşlıq və bank kreditlərinin rolu nədən ibarətdir? Dissertasiya işi məhz bu aktual mövzuya həsr olunmuşdur və sözügedən məsələnin hazırki vəziyyətini araşdırmağı qarşıya məqsəd qoymuşdur.

**Mövzunun aktuallığı:** Özəl sektorun inkişafı dedikdə ağla ilk gələn biznes sektorunun məhz bank sektoru olması təsadüfi hal deyildir, belə ki, ölkədəki azad sahibkarlıq mühitinin, bazar iqtisadiyyatına birmənalı şəkildə keçidin və ölkənin sərmayə balansının qorunmasının əsas təminatçılarından biri də banklardır. Ölkəmizdə müstəqilliyin bərpasından sonra yaranmış çoxlu sayda bankın rəqabətə davam gətirə bilməyərək bağlanması və bir çox bankların birləşərək fəaliyyət göstərməyə başlamaları sözügedən sektorda gedən ciddi tranformasiya və dəyişikliklərdən xəbər verir. Son illərdə sayları yetərincə azalan banklar arasından

ən peşəkar, keyfiyyətli xidmət göstərən və dayaqları möhkəm olanları hazırda da fəaliyyətlərini davam etdirə bilirlər və ölkəmizin əhalisinin əksər qismi banklarla istər kredit, istər digər sahələrdə bu və ya digər şəkildə əməkdaşlıq edir. Bank sektoru dövlətin ən böyük dəstəkçilərindən biri olmaqla Azərbaycanda neft və qeyri-neft sektorunun inkişafına da müəyyən dərəcədə təsir göstərə bilirlər,ələlxüsus, qeyri-neft sektorunun və fərdi biznesin inkişafında bank kreditlərinin müstəsna rolu danılmazdır. Bu səbəbdən də sözügedən mövzu olduqca aktualdır və günümüzün reallıqları ilə səsləşir.

**Tədqiqat işinin predmeti:** Dissertasiya işinin predmeti Azərbaycan Respublikasında bank kreditlərinin qeyri-neft sektorunun və fərdi bizneslərin inkişafında oynadıqları rol və funksiyalardır. Belə ki, mövzunun predmetinə daxil olan sahələr kimi bank sektorunun qeyri-neft sektoru ilə qarşılıqlı əlaqəsi, bankların fərdi sahibkarlığın inkişafındakı rolları və ümumilikdə, kreditləşmənin qeyri-neft sektoruna təsirini göstərmək mümkündür.

**Tədqiqat işinin obyekti:** Dissertasiya işinin obyektinə qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün banklar tərəfindən ayrılan güzəştli kreditlər və həmçinin, kreditləşmənin özü ilə gətirdiyi problemlər daxildir. Bunlardan əlavə, məlum olduğu kimi, hədsiz kreditləşmə və banklara borclanma nəticədə problemli kredit məsələsini də gündəmə gətirə bilir və fərdi sahibkarlığın inkişafı üçün ayrılan kreditlərin vaxtında ödənilməməsi sonradan vətəndaş-bank və fərdi biznes-bank qarşıdurmasına səbəb ola bilir ki, bunların da həlli üçün optimal variantların tapılması və məsələnin güzəştli yollarla, heç bir tərəfin mənafeyinə xələl gətirmədən səmərəli şəkildə həll edilməsi vacib prioritetlərdən biridir və dissertasiya işinin obyektinə daxildir.

**Dissertasiya işinin məqsəd və vəzifələri:** Dissertasiya işinin başlıca məqsədi kimi Azərbaycanda bank kreditlərinin qeyri-neft sektoruna təsirini qiymətləndirmək və düzgün analiz aparmaq, ümumilikdə isə, bank kreditlərinin biznes mühitinin səmərəli və dayanıqlı inkişafına verdiyi töhfəni dəyərləndimək qeyd oluna bilər. Dissertasiya işinin digər bir məqsədi bank kreditlərinin qeyri-neft sektorunun inkişafında, ümumilikdə, ölkə iqtisadiyyatında oynadığı rolu düzgün

dəyərləndirmək və düzgün nəticələr çıxarmaqla bu töhfənin müsbət anlamda artırılması yollarını araşdırmaqdır.

Tədqiqatın əsas vəzifəsi müəyyən edilmiş məqsədlərə çatmaq üçün aşağıda sıralanan vəzifələrin məcmuudur:

1) Azərbaycanda banklaşma və kreditləşmə prosesin öyrənilməsi, bankların milli iqtisadiyyatda oynadıqları rolun müəyyən edilməsi;

2) Qeyri-neft sektorunun inkişaf səviyyəsinin öyrənilməsi və bu inkişafa bankların verdiyi töhfənin düzgün qiymətləndirilməsi;

3) Bank kreditlərinin qeyri-neft sektorunun inkişafında oynadıqları rolun ümumilikdə bank və fərdi biznes münasibətləri konteksində araşdırılması;

4) Bank sektorunun və spesifik olaraq, bank kreditlərinin ölkə iqtisadiyyatının güclənməsinə və prioritet sahə olan qeyri-neft sektorunun inkişafına təsirinin ölçülməsi.

**Tədqiqat işinin informasiya bazası:** Dissertasiya işinin informasiya bazası kimi banklar və onların fəaliyyətini tənzimləyən Azərbaycan Respublikasının qanunvericilik aktları, həmçinin digər normativ-hüquqi aktlar, mövzu üzrə yazılmış Azərbaycan, rus və ingilis dillərindəki kitablar, internet resursları və monoqrafiya tipli materiallar, yerli və xarici nəşrlərin qeyri-neft sektoru, bank kreditlərinin milli iqtisadiyyata təsiri və s. məsələləri işıqlandıran materialları, həmçinin, tədqiqat prosesində müəllifin müstəqil olaraq əldə etdiyi, araşdırdığı mövzu üzrə özündən əvvəlki etibarlı mənbə və ədəbiyyatlara istinad edən və ya onlara söykənən əqli nəticəsi və s. göstərilə bilər.

**Tədqiqat işinin praktiki əhəmiyyəti:** Tədqiqat işinin praktiki əhəmiyyəti olduqca böyükdür, belə ki, ölkəmizin iqtisadiyyatının ayrılmaz bir parçası olaraq bankların fəaliyyətlərinin, bank kreditlərinin ölkə iqtisadiyyatına töhfəsinin qiymətləndirilməsi gələcəkdə əldə olunmuş nailiyyət və müsbət irəliləyişlərin davam etdirilməsinə, həmçinin, ümumilikdə, ölkə iqtisadiyyatının şaxələndirilməsinə və qeyri-neft sektorunun inkişaf etdirilməsinə töhfə verə bilər. Tədqiqat işində qeyd olunan təkliflər nəticəsində bankların ölkəmizin qeyri-neft sektorunun inkişafında oynadıqları rolun daha dərindən öyrənilməsi üçün stimul

yaradılır. Bütün bu qeyd olunanlar dissertasiya işinin praktiki əhəmiyyətinin nə qədər böyük olduğunu göstərir.

**Tədqiqat işinin elmi və nəzəri əhəmiyyəti və elmi yeniliyi:** Dissertasiya işinin elmi və nəzəri əhəmiyyəti olduqca böyükdür, belə ki, sözügedən sahədə Azərbaycandilli ədəbiyyatda yetərincə mənbənin olmaması və bu sahədəki elmi boşluğu azaltmaq gərəyi özlüyündə dissertasiya işinin elmi əhəmiyyətini artırır. Tədqiqat işinin elmi yeniliyi Azərbaycanda bank kreditlərinin qeyri-neft sektorunun inkişafına təsirinin qiymətləndirilməsinin elmi-analitik tədqiqidir. Ümumilikdə götürdükdə, tədqiqat işinin elmi yeniliyini aşağıdakı bəndlər əsasında sıralamaq mümkündür:

1) Dissertasiya işində dünya və Azərbaycan təcrübələri əsasında bank kreditlərinin milli iqtisadiyyatda rolu, onların tənzimlənməsi üçün aparılan siyasətin məqsəd və vəzifələri araşdırılmışdır;

2) Qeyri-neft sektorunun inkişafını stimullaşdıran amillər bir-bir sıralanmış və bank kreditlərinin rolu bu sıralamada müqayisəli şəkildə daha aydın başa düşülmüşdür, bu isə onun təsirinin analitik olaraq qiymətləndirilməsinə şərait yaratmışdır;

3) Qeyri-neft sektorunun inkişaf etdirilməsinin milli iqtisadiyyatın prioritet məsələsi kimi təsdiq olunması və sözügedən sahədə bankların rolunun müqayisəli şəkildə qiymətləndirilməsi daha düzgün əqli nəticəyə gəlmək üçün əsas yaratmışdır.

**Tədqiqat işinin strukturu:** Dissertasiya işi ümumilikdə giriş, 3 fəsil, 6 bölmə, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin I fəslində ümumilikdə bank sektorunun fəaliyyəti, bank kreditləri və onların milli iqtisadiyyatın inkişaf etdirilməsində oynadıqları rol araşdırılır. II fəsildə milli iqtisadiyyatın bugünkü başlıca prioritet sahəsi hesab olunan qeyri-neft sektorunun və fərdi sahibkarlığın inkişaf etdirilməsi, əlverişli biznes mühitinin yaradılması və dövlətimiz tərəfindən ölkənin qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün aparılan ardıcıl və məqsədyönlü siyasətin təhlili verilmişdir. Nəhayət, dissertasiya işinin III fəslində qeyri-neft sektorunun inkişaf etdirilməsində banklarla

əməkdaşlıq və bank kreditlərinin rolu, onların təsirinin gələcək perspektivləri araşdırılır. Nəticə bölməsində isə Azərbaycanda bank kreditlərinin, ümumilikdə, bank sektorunun ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişaf etdirilməsində oynadığı rolun dəyərləndirilməsi istiqamətində əldə olunmuş nəticələr və təkliflər göstərilmişdir.

# I Fəsil AZƏRBAYCAN RESPUBLİKASINDA BANKLARIN FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

## 1.1 Azərbaycan Respublikasının milli iqtisadiyyatında bank sektorunun önəmi

Hər bir ölkədə banklar, investisiya şirkətləri, fondlar, kredit təşkilatları və sığorta şirkətləri kimi maliyyə qurumları iqtisadi artımın təməllərinin möhkəmləndirilməsində və ölkənin iqtisasi simasının dəyişdirilməsində mühüm rol oynayır və onların davamlılığı makroiqtisadi sabitliyin tərkib hissəsidir. Maliyyə bazarında maliyyə böhranı və həmçinin, maliyyə artımının son dövrlərdə yaşadığı enişə baxmayaraq, maliyyə sisteminə daxil olan bank sektorunun iqtisadiyyatdakı rolu güclənmiş və maliyyə sistemindəki payı artmışdır. Dünya maliyyə böhranlarının tarixi maliyyə inkişafının və bankların iqtisadi sabitliyə və böyüməyə müdaxiləsinin təsirinin kəskin olduğunu təsdiq edir; islahatların hazırlanması və həyata keçirilməsi prosesi gözləniləndən daha mürəkkəbdir.

Bəşəriyyətin tarixində tədavül vasitəsi kimi puldan ilk istifadə ilk bankların quruluşundan sonraya gedib çıxır. Burada bir sual yara bilər: pul mövcud olmadan necə banklar qurula bilər və ya kredit əməliyyatları aparıla bilərdi? Cavab ondan ibarətdir ki, insanlar o vaxtdan bəri sahib olduqları sərvətləri güvəndikləri yerlərdə saxlamaq və mühafizə etmək ehtiyacı hiss etmişlər. Quldarlıq dövründə pulun saxlanması zamanı din qorxusu son dərəcə önəmli bir faktor idi, belə ki, tanrıları aldatmaq və ya fırıldaqla məşğul olmaq kimsənin ağlından keçə bilməzdi. Ən böyük sərvətlərə, sonsuz gücə sahib olan insanlar belə tanrının qəzəbindən ehtiyat edir və dini qurumların (məbədlər, sonrakı əsrlərdə kilsə və vəqflər) mülkiyyətinə toxunmurdular. Buna görə də mallarını oğru, düşmən və hökmdarlardan qorumaq istəyənlər sərvətlərini rahiblərə və din xadimlərinə əmanət qismində rahatlıqla buraxardılar. Rahiblərin əmanətinə buraxılan əşyalar dövrün həyat tərzinə müvafiq olaraq tarla, heyvan, aqrar təsərrüfat alətləri, qiymətli daş-qaş və mədənlər idi. Rahiblər sözügedən dəyərli əşyaların hesabını tutar və istəyə uyğun sahiblərinə qaytarardılar. Buradan belə bir təsəvvür yaranır ki, ilk banklar əslində “tanrı evləri”dir və ilk bankçılar da rahiblər olmuşlar. Rahiblərə qoyulan əmanət öz

növbəsində tanrı evlərinin tək gəlir mənbəyi deyildilər. Tanrıların sevgi və məhəbbətini qazanmaq məqsədi ilə kilsələrə və ya digər dini qurumlara dindarlar tərəfindən təklif olunan hədiyyələr çox böyük miqdarlara çata bilirdi. Savaşlardan qayıdarkən kralların müharibədən əldə etdiyi qənimət və azuqələrdən «tanrı evlərinə» pay olaraq göndərilirdi. Bundan əlavə, işləri yaxşı gedənlər təşəkkür və minnətdarlıq borclarını, günaha girənlər isə kəffarə niyyəti və qəbahətlərinin bağışlanması istəyilə məbədlərə bağışlayar və hədiyyələr gətirərdilər. Kredit əməliyyatlarında ən tez-tez rast gəlinən dəyərlər cift heyvanlar və ya damazlıqlar idi. Bu səbəblə də bəzi qədim dillərdə “doğum” sözü eyni zamanda “faiz” anlamına gələ bilirdi. Tanrılara borcu olanlar tanrılarını aldatmağa cəsarət etməzdilər. Borclular sözlərini yerinə gətirmək üçün hər cür fədakarlığa istəklə yanaşırdılar. Ancaq bankçılıq sistemi sekulyarlaşdıqca insanın insana borclanması güclənmiş və bununla, vəziyyət dəyişmiş və nəticədə banklar borclarını sağlam müstəviyə oturmaq arzusunda olmuşdular. Ümumilikdə, bankçılığın yaranması, tarixdəki ən böyük iqtisadi inqilablardandır. Kredit işləri də müvafiq olaraq dövlətin iqtisadiyyata ilk müdaxiləsi mövzularından biri olmuşdu. İlk orta çağlarda ticarət fəaliyyətinin olduqca inkişaf etməsinə baxmayaraq, mübadilə əməliyyatlarında yüzdən çox puldan istifadə edilmişdir. Mübadilə prosesində pulun iştirakı olmayan sistemlərdə əməliyyatlar yalnız barter yolu ilə həyata keçirilirdi.

Pulla bağlı mövzuları tənzim edən hər növ qanun, qərarlar pul sisteminə daxildir. Dövlətlər pulun tədavülü prosesinə çox qədim zamanlardan bəri müdaxilə etmiş və pul tədavülü ilə bağlı bir çox qanunlar çıxarmaqla sistemi nəzarət altına almağa çalışmışlar. Pul standartı pul sisteminin dayandığı qiymətli kağıza əsaslanır. Vahid standart olaraq qəbul edilən pulun sərhədsiz ödəmə qabiliyyəti vardır. Buna “qanuni tədavül” də deyirlər. Pul ilə əlaqədar qanunların müəyyən edilməsi zamanı lazım olan digər vacib bir mövzu isə pul vahidi ilə bağlıdır. Qanunlarda pul vahidinin (məsələn, manat, dollar, lari, yen, avro və bu kimi) neçə qram qızıl və gümüş metaldan təşkil olunduğu göstərilir. Bu gün dünyanın heç bir ölkəsində qızıl pul qarşılığı olaraq təsbit edilməmişdir. Yəni pulların qızıla çevrilə

bilmə imkanı yoxdur. Standart pullar metaldan təşkil edilməmişdirsə, o vaxt pul vahidinin çəkisini göstərməyə ehtiyac qalmır. Hər bir pul sistemi bir qayda olaraq sistemin əsaslandığı pulun standartına görə adlandırılır. Məsələn, qızıl pul sistemi, gümüş pul sistemi, kağız pul sistemi və s.

Bank sisteminin özünəməxsusluğu və müstəsnalığı onun tərkibinə daxil olan elementlər və onların qarşılıqlı münasibətləri ilə müəyyənləşdirilir. Qeyd olunmalıdır ki, bank sisteminin mahiyyəti onun elementlərinin məcmusunun mahiyyətini ifadə edir. Bank sisteminin mahiyyəti təkcə onun tərkib və daxili elementlərinin deyil, habelə, onların qarşılıqlı əlaqə və vəhdətinin mahiyyətilə də xarakterizə olunur. Buradan belə nəticəyə gəlmək olur ki, bank sisteminin mahiyyəti həm ayrılıqda elementlərin mahiyyətinə, həm də onların məcmu və tərkib mahiyyətinə təsir edir. Təcrübədən bizə sahib olduqları xüsusiyyətlərinə görə bank sistemlərinin aşağıdakı tipləri məlumdur: a) inzibati mərkəzləşdirilmiş bank; b) bazar iqtisadiyyatında bank sistemi; c) keçid mərhələsi dönəmi bank sistemi;

Bazar iqtisadiyyatlı bank sistemində dövlət inhisarçılığına rast gəlinmir. Bazar şəraitində hər bir təsərrüfat subyektləri, yəni hüquqi şəxslər və hətta ayrı-ayrı fiziki şəxslər belə dövlət mülkiyyətli banklar istisna olmaqla müxtəlif mülkiyyət formalı banklar təsis edə bilərlər. Bunun nəticəsi olaraq, bazar şəraitində çoxsaylı banklar fəaliyyət göstərə bilirlər. Bu fəaliyyət ikipilləli sistemə əsaslanır və banklar üzərində fərqli mülkiyyət formaları (dövlət, səhmdar, kooperativ, şəxsi, qarışıq və s.) mövcud olur. Bankların yaradılmasında dövlət inhisarı yoxdur, istənilənən hüquqi və fiziki şəxs qanun çərçivəsində bank yarada bilər. Bankların təşkilati və inzibati idarəetmə strukturları bank şuraları tərəfindən müəyyən edilir, eyni zamanda bank şuranın qərarı ilə ləğv də edilə bilər. Bu sistem şəraitində çoxsaylı bank siyasəti həyata keçirilir və qeyri- mərkəzləşdirilmiş yerli idarəetmə sistemi mövcud olur. Bankların apardığı əməliyyatın tərkibi, siyahısı bank şuraları və təsisçilər tərəfindən müəyyənləşdirilir. Sözügedən sistem şəraitində emissiya əməliyyatlarını yalnız Mərkəzi Bank icra edir, müəssisələr və fiziki şəxslərin kıeditləşməsini isə müxtəlif kommersiya bankları icra edirlər.

Bankçılıq sektoru mənfəət axtaran iqtisadi qaynaqlar tərəfindən xarakterizə olunur, həmçinin, eyni zamanda iqtisadi sağlamlığa malik olsa da, nəticədə mənfəət yönəlmişdir. Beləliklə, mənfəət iqtisadi yavaşlamanın təsirlərinə qarşı duran bir istehkam kimi çıxış edir və iqtisadiyyat sektorunun güclənməsində əməli rol oynayır. Bank sektorunun davamlılığının vacib şərtlərindən biri də Dünya Bankı (WB) və Beynəlxalq Valyuta Fondu (IMF) tərəfindən tətbiq olunan beynəlxalq siyasətlərə riayət etməkdir ki, bu sayədə onların hüquqi və makroiqtisadi mühitləri davamlı şəkildə yenidən qurulur və bu proses keçid iqtisadiyyatları üçün daha vacibdir. Bu möhkəmlik sonradan güclü maliyyə sisteminə çevrilməyi də şərtləndirir.

Əslində, davamlı və qənaətbəxş fəaliyyət göstərən bir bank sistemi üçün xüsusilə arzuolunmaz böhranlara və maliyyə çətinliyinə qarşı durmaq çox vacibdir. Sovet İttifaqının dağılmasından sonra Azərbaycan 1995-ci ilə qədər hərbi qarışıqlıq və siyasi travmalarla daha da ağır dönəmə daxil olmuşdur, ölkədə iqtisadi tənəzzüllə xarakterizə edilən dərin bir keçid prosesi baş tutmuşdur. 1996-2002-ci illərdə makroiqtisadi bərpa dövründə ölkə sabit iqtisadi böyümə prosesinə qədəm qoyur və inflyasiya səviyyəsi getidkcə azalmağa başlayır. 2003-2008-ci illərdə Azərbaycan kommersiya banklarının artan səmərəliliyi eyni dövrdə əhəmiyyətli iqtisadi artımla müşayiət olundu. Dünya ölkələrinin bir çoxunda baş verən maliyyə böhranına baxmayaraq, Azərbaycan kommersiya bankları vəziyyətdən minimum itki ilə çıxa bilmişdi və ümumi vəziyyətləri olduqca qənaətbəxş idi. 2011-2014-cü illərdə müsbət makroiqtisadi dinamika müşahidə olunmuşdur: Azərbaycanda gəlirli bankların sayı 30-dan 35-ə yüksəlmiş və onların xalis mənfəəti 2014-cü ilin sonuna 370,5 milyon manat təşkil etmişdir.

Son onillikdə ÜDM-nin əhəmiyyətli artımından sonra 2015-ci ildə neftin qiymətinin aşağı düşməsi Azərbaycanın inkişaf perspektivlərinə böyük təsir göstərmişdir. 2015-ci ildə milli valyutanın ABŞ dolları ilə müqayisədə 100% dəyərində devalvasiyası sonrasında manat 2016-cı ildə (ilk iki il ərzində ilk mənfi artım) 3,8% azalmışdısa, bu səfər 13,4% azaldı. Ölkə neft qiymətlərinin aşağı düşməsindən və devlavasiya dövründən əziyyət çəkirdi. Azərbaycan Mərkəzi

Bankı 2015-ci ildə kommersiya bankları üçün 10 milyon manatdan 50 milyon manata qədər nizamnamə kapitalının tələbini (CBAR SB, 2015) artırdı. Bankların mənfəəti, ilk növbədə, 2015-ci ildə 345 milyon manat itkisi ilə nəticələnən manatın kredit itkisi ehtiyatlarının artırılması və valyuta məzənnəsinin artımından təsirlənmişdir. Ödənişsiz kreditlərin yüksək səviyyəsi, milli valyutanın kövrəkliyi və ona olan inamsızlıq, həmçinin, qeyri-məqbul kapital nisbəti maliyyə sektorunun yaşadığı böhranı dərinləşdirmişdi. 2016-cı ildə ümumi kreditlərin sayı 12% -dən 21% -ə çatmışdı. Kreditlərin Azərbaycan bank sektorunun depozit portfelinə nisbəti orta hesabla 138.2 bal artaraq 80-90 bal (CBAR SB, 2018) olmuşdu ki, bu, ümumqəbul olunmuş qlobal bençmark diapazonundan xeyli yüksəkdir. Buna görə 2016 və 2017-ci illərdə Azərbaycanda bir sıra strateji islahatlar keçirilmişdir.

Bu islahatlardan ən mühümləri maliyyə sektorunu sabitləşdirmək və özəl sektora yönəlmiş iqtisadi artım üçün şərait yaratmaqdır. Bank sektorunda qeyri-müəyyənliyi aradan qaldırmaq və sektoru sanitarlaşdırmaq üçün perspektivli bir addım 2016-cı ilin əvvəlində Maliyyə Bazarlarına Nəzarət Palatasının (FIMSA) yaradılmasıdır. FIMSA qeyri-sağlam bankın lisenziyasını ləğv etməklə maliyyə sektorunu möhkəmləndirmək üçün qətiyyətli addımlar atmışdır. Qalan bankları yenidən sərmayələndirmək və beynəlxalq özəlləşdirmə təməllərini hazırlamaq üçün islahatlar aparılmışdır. 2018-ci ilin sonuna kimi Azərbaycanda bankların sayı 45 (2015-ci ildə) 30-a qədər azalmışdır. Bir neçə bankın bağlanması 2018-ci ildə aşağı aktivlərin keyfiyyəti və xarici valyuta riskləri ilə idarə olunmamışdır. Bundan əlavə, maliyyə xidmətlərinin inkişafı üçün Strateji Yol Xəritəsində də qeyd olunduğu kimi likvidliyin və kapitallaşmanın həlli üçün əlavə infrastruktur yaradılmışdır (www.anfes.gov.az, 2018).

Bu çərçivədə, Azərbaycan Beynəlxalq Bankı, Bank Respublika, Xalq Bank, Kapital Bank, PAŞA Bank, Rabitəbank, Unibank və Ziraat Bank Azərbaycan kredit ittifaqı yaratdılar ki, bu da borcalanlar üçün əlverişli idi. Bankların məlumat bazaları, sığorta və lizinq mərkəzləşdirilmiş kredit reyestri yenidən nəzərdən keçirildi. 2016-cı ildə 1,7 milyard manat (1,3 milyard manatı Azərbaycan Beynəlxalq Bankı təmin etmişdi) itirildikdən sonra, Azərbaycan bank sektoru

2017-ci ildə öz əvvəlki gəlirliliyi bərpa edib. Bankların ümumi kapitallaşması 1,9 milyard manatdan 3,1 milyard manatadək artıb. Bununla belə, maliyyə çətinliklərinin əsas səbəblərindən biri olan "dollarizasiya" (dollarizasiya – dollara həddən artıq meyilli olmaq və bank əməliyyatları xarici valyutada (əsasən, dollarda) aparmağa üstünlük verməl) yüksək səviyyədə qalıb: 1 sentyabr 2017-ci ilədək depozitlərin 74,6% -i xarici valyutada olmuşdur (www.stat.gov.az, 2017). Ölkədə baş verən son maliyyə böhranı və makroiqtisadi problemləri nəzərə alaraq, neft qiymətlərində artıma nail olmaq və milli valyutanın devalvasiyasını önləmək, maliyyə sektorunu diversifikasiya etmək üçün hökumətin yürütdüyü ardıcıl siyasət nəticəsində bank sisteminin əhəmiyyəti artmış və öz inkişaflarına davam edərək ölkə iqtisadiyyatındakı yerlərini yenidən möhkəmləndirmişlər.

Neft gəlirləri bütün iqtisadiyyatın, o cümlədən bank sektorunun inkişafında böyük rol oynayır. 2008-ci ilin əvvəlində baş verən böhran zamanı yüksək neft qiymətləri səbəbindən iqtisadiyyat neft bumu yaşadıqda bank sektoru əhəmiyyətli dərəcədə böyümüşdü. 2014-cü ilin ikinci yarısından etibarən neft qiymətlərinin aşağı düşməsi nəticəsində bank sektoru "qəzalı vəziyyətə" uğrayıb. Bu göstərir ki, neft sektoru və xüsusilə də neft qiymətlərinin bank sektoruna xüsusi təsiri mövcuddur. İqtisadiyyatda neftlə bağlı fəaliyyətlər neftin qiyməti kimi beynəlxalq amillərlə müəyyənləşdirilir. Başqa sözlə, neft sektorunda inkişaf və neftin ardıcıl yüksəlişi nəticədə ekspozisiya ilə müəyyən edilir. Azərbaycanın iqtisadi xüsusiyyətləri və ya iqtisadi dövrlərin bütövlükdə qeyri-neft sektoru tərəfindən təmsil olunmasının daha da inkişaf etdirilməsi üçün neft sektorunun ekzogen şəkildə araşdırılması xüsusi bir xüsusiyyətə malikdir. Məsələn, tədqiqatçılar Həsənov və Hüseynov (2013) bankla bağlı tədqiqatların ümumi həcminin əvəzinə qeyri-neft ÜDM-ni istifadə etməyi düşünürdü. İqtisadi dövrlərin və ya fəaliyyətlərin bankın mənfəətliliyinə təsirini ölçmək üçün bu yanaşma daha məqsədəuyğundur.

Beləliklə, yuxarıda göstərilən iki xüsusiyyət neftdən asılı olma nəticəsində yaranır və empirik analizdə ayrıca nəzərə alınmalıdır. Bankın rentabelliyi üçün makroiqtisadi mühitin digər əhəmiyyətli bir nəzəriyyəsi isə məzənnə siyasətidir.

Azərbaycan da Rusiya və Qazaxıstan kimi neftə söykənən digər keçmiş SSRİ iqtisadiyyatları kimi, milli valyutanın uzunmüddətli perspektivdə (neft qiymətlərinin 2015-ci ilədək kəskin şəkildə aşağı düşməsinə qədər) sabitliyini qorumaq və devalvasiyanın qarşısını almaq üçün sabit məzənnə rejimini izlədi. 2015-ci ildən əvvəlki müddətdə bir ABŞ dolları orta hesabla 0,78 manata bərabər idi. Güclü və sabit dəyərə malik olan milli valyuta iqtisadiyyata, o cümlədən bank sektoruna həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə əmin-amanlıq və firavanlıq gətirən əsas faktordur.

Lakin hökumət neft qiymətləri kəskin şəkildə azaldıqda sabit məzənnəni saxlamaq üçün çoxlu vəsait sərf etdiyindən və ümumilikdə iqtisadi səmərəni itirdiyindən, qərar dəyişikliyinə gedərək üzən məzənnə siyasətinə keçməyə məcbur qaldı. Manat 2015-ci ildə onsuz da ABŞ dollarına qarşı iki dəfə dəyər itirmişdi, üzən məzənnəyə keçid də öz növbəsində əhəmiyyətli dəyər itkisinə səbəb oldu. Manatın ilk 34%-lik devalvasiyası baş verdikdən sonra dekabr ayında 17%-lik növbəti devalvasiya baş verdi və iqtisadiyyatda müvəqqəti durğunluq yaşandı. Ölkədə istehlak məhsullarının kəskin şəkildə bahalaşması fonunda sosial ziddiyyət və narazılıqlar artdı. Manat 2016-cı ildə ABŞ dollarına qarşı daha çox dəyər itirmişdi, 2017-ci ilin birinci rübündə isə valyuta məzənnəsi 1,8 olmuşdur, yəni ümumilikdə götürdükdə və yekun etibarilə, manat iki dəfədən artıq dəyər itkisinə məruz qalmışdır. Digər bütün mənfi faktorlarla yanaşı, bu böyük devalvasiya da bank sektorunu sarsıdan başlıca amillərdən birinə çevrildi. Araşdırmaçı Sahminan (2004) və digərləri milli valyutanın devalvasiyasının necə və hansı yollarla bankların "süqutu"na gətirib çıxardığını, onların ölçüsündən və mənfəət marjasından asılı olmayaraq, niyə bu həddə itkiyə səbəb olduğuna dair araşdırmalar aparmışdılar və bu araşdırma Azərbaycanın məruz qaldığı analoji iqtisadi durum üçün də aktualdır.

Azərbaycanda fəaliyyət göstərən bankların sayı 2015-ci ildə 45-dən 2017-ci ilədək 30-a qədər azalıb. Devalvasiya Azərbaycanda bank sektoruna aşağıdakı yollarla mənfi təsir göstərmişdir:

• Azərbaycan bankları ABŞ dolları ilə borc alan kreditlər üzrə faiz ödənişini birbaşa artırdı, bu, beynəlxalq maliyyə qurumlarından və xarici banklardan dollar və avro alınması ilə bağlı idi, lakin nəticə etibarilə probelmli kreditlər fenomeni "dollar kreditləri" fenomeni ilə əvəzləndi;

• ABŞ dolları ilə verilən kreditlərin sayı azalmağa başladı, çünki dollarla kredit götürmək çox riskli hesab olunurdu;

• Manatın amortizasiyası bank müştərilərinin bank sisteminə olan etibarını itirdikləri üçün durğunluğa gətirib çıxardı.

Manatın 2015-ci ilin fevralında ilk kəskin dəyər itirməsi depozit və kreditlərin tərkibinə və nəticədə bankların rentabelliyinə mənfi təsir göstərmişdir. Aağıdakı fiqur Azərbaycan banklarının valyuta məzənnəsi ilə bağlı malik olduqları həssaslığını nümayiş etdirir:

**Qrafik 1. Azərbaycan banklarının valyuta məzənnəsi ilə əlaqədar "kövrəklikləri"**




**Mənbə:** Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link**: https://www.cbar.az/

Bankların iqtisadi sektora aid xüsusiyyətlərinə gəldikdə, aşağıdakı məsələlər müzakirə olunmalıdır: devalvasiyadan sonra bankların vəsaitlərinin əsas qaynaqlarını (onların investisiya və kreditləri daxil olmaqla) müştərilərdən cəlb edilmiş depozitlər deyil, xarici banklardan və beynəlxalq maliyyə qurumlarından, məsələn, Avropa Yenidənqurma və İnkişaf Bankından, Beynəlxalq Valyuta Fondu

və Alman maliyyə institutlarından alınan kreditlər təşkil etmişdir. Mərkəzi Bankın hesabatına görə, 2012-ci ildən etibarən bankların xarici borcu və bu borcun aktivlərə nisbəti əhəmiyyətli dərəcədə artmışdır. Bundan əlavə, bankların əmanətlərin ümumi öhdəliyindəki payı azalmış, xarici öhdəliklər isə 2012-ci ildən bəri artmışdır. Azərbaycan Mərkəzi Bankının statistik məlumatlarına görə, əmanətlər 2015-ci ildə bankların ümumi öhdəliklərinin yalnız 49,9% -ni təşkil etmişdir. Banklar depozitləri cəlb edir, çünki bank depozitləri adətən ən səmərəli və işlək xidmətlərdən biri hesab olunur. Müəyyən zaman kəsiyində kredit və depozit dərəcələrinə baxıldıqda bu, asanlıqla müşahidə edilə bilər. Kreditlərlə onlardan daha aşağı faiz dərəcəsi olan depozitlər arasında böyük bir boşluq var. Məsələn, kommersiya bankları tərəfindən təklif olunan kreditlər üzrə faiz dərəcəsi 16% -dən 34% -ə qədər qalxmış, depozitin həcmi isə 2013-cü ildə 8% -ə enmişdir. Kredit faziləri dərəcəsinin bu qədər yüksək həddə olmasının səbəbi ev təsərrüfatlarından və özəl sektordan kreditlərə olan tələbatın yüksək olması idi. Depozitlərin faiz dərəcələrinin aşağı olması isə onların daha az müraciət edilən xidmət olmaları ilə bağlıdır. Bununla yanaşı, 2012-ci ildən bəri Azərbaycan bankları üçün kreditlərin nisbətinə baxaraq asanlıqla müşahidə etmək olar ki, kreditlərin faiz dərəcəsi 140%-dən yüksəkdir (www.stat.gov.az,2012). Beləliklə, kreditlərin bankların rentabelliyi ilə müsbət əlaqəsi var, lakin analoji əlaqəni depozitlər üçün demək çətindir. Depozitlər, kreditlərdən fərqli olaraq, bankların öhdəlikləri hesab olunur və burada əmanətçilərə qarşı faiz ödənilməlidir.

### 1.2 Bank kreditləri və onların milli iqtisadiyyatda rolu

Dünyanın demokratik və bazar iqtisadiyyatına malik əksər sivil ölkələrində bank institutu ölkənin ümumi iqtisadiyyatının inkişaf etidirilməsində əvəzedilməz rola malikdir və bu rolun böyük bir qismi məhz bank kreditləri ilə icra edilir. Bank kreditləri bir qayda olaraq günümüzdə bankların ümumi iqtisadi inkişafda əsas aktoru kimi çıxış edirlər. Ölkədə yürüdülən pul-kredit siyasəti iqtisadi münasibətlərin inkişaf etdirilməsinin əsas meyarlarından biri kimi çıxış edir və Azərbaycan kimi bazar iqtisadiyyatı tarixi o qədər də uzun olmayan post-sovet

ölkələrində bankların iqtisadiyyatda əsas rolu sovet dönəmində də olduğu kimi, əsasən, kredit və borcvermə ilə müəyyən olunur. Pul-kredit siyasəti iqtisadi proseslərin çevik menecmenti və stabilləşdirilməsi üçün Mərkəzi Bankın (MB) tədbirlər sistemi və ya proqramından ibarətdir. MB-nin pul siyasətinin başlıca məqsədi inflyasiyanı nəzarət altında saxlamaq yolu ilə yeni iş yerlərinin açılmasına, əhalinin tam məşğulluğuna və iqtisadi artıma nail olmaq üçün ölkədə münbit maliyyə-iqtisadi mühit yaratmaqdır.

İqtisadiyatın ardıcıl və sabit inkişafı üçün pul təklifinin iqtisadi şəraitə uyğunlaşdırlması mütləq şəkildə vacibdir. Böhran zamanı iqtisadiyatda investisiya aktivliyini artırmaq, həmçinin, canlanma yaratmaq üçün Mərkəzi Bank kommersiya banklarının kredit əməliyatlarını stimullaşdırmaq yolu ilə pul təklifini də artırır. Bu isə öz növbəsində ödəmə qabiliyyətli tələbin artımına səbəb olur. Nəticə etibarilə, qiymətlər yüksəlir və istehsalın həcminin artmasına maddi maraq əmələ gətirir. İlk dəfə 2008–ci ildə ümumdünya böhranından sonra tikinti sektorunda yaranan durğunluq və inkişafsızlığı aradan qaldırmaq üçün AMB ipoteka kreditlərinin verilməsində də bu məqsədi güdürdü: ipoteka kreditləri vasitəsilə mənzil tələbatının artması ehtimalı. Bu isə qiymət artımı yaradaraq mənzil tikintisi və onunla əlaqədar olan digər sahələri mənfəətli sahəyə çevirərək buraya investisiya yatırmağa və tikilən mənzillərin ümumi miqdarının artmasına şərait yaradacaqdı. Nəticədə qiymətlər sabitləşəcək, həmçinin mənzilə tələbatın ödənilməsi də yaxşılaşacaqdı. Bununla birlikdə, AMB qiymət artımını o vaxtadək qaldırmağı səmərəli hesab edir ki, qiymətin artım tempinə nisbətdə istehsalın artımı üstünlük yaratsın. Belə olan təqdirdə, inflyasiya istehsalı stimullaşdırma aləti rolunu da oynaya bilər.

Bazar iqtisadiyyatının inkişafı üçün birxətli və ya düzxətli yüksəliş xarakterik deyildir. Bu zaman, əsasən, enib-qalxmalar və ya müəyyən "dalğalanmalar" baş verir ki, bunlar da tamamilə normal hallardır. Ancaq burada ən vacib məsələ bu prosesdəki kəskin və ani dalğalanmaların (volatilliyin) qaşısının alınması, ritmikliyin qorunmasıdır. Əksi təqdirdə, iqtisadi proseslər nəzarətdən çıxa və "durğun dənizdə fırtına" effekti yarada bilər. Sözügedən

məsələnin həlli Mərkəzi Bankın pul siyasətinin başlıca vəzifələrindən hesa olunur. İqtisadiyyatda "fırtına" və "dalğalanmalar"ın baş verməməsi üçün AMB qiymətlər həddən artıq aşağı düşən zaman, həmçinin, işsizlik şəraitində maliyyə bankların kredit əməliyyatlarının artırılmasına, əksi olan halda, yəni yüksək inflyasiya zamanı isə azaldılmasına yönəlmiş tədbirlər həyata keçirir.

Kreditlərin rolu, bir qayda olaraq, onların təsərrüfat, əhali və dövlət üçün tətbiqinin nəticələri ilə səciyyələnir. Kreditlərin rolu isə onların müxtəlif forma və növlərinin icra edilməsi zamanı təşəkküll tapan münasibətlərin nəticəsində təzahür edir. Kreditlərin iqtisadiyyata təsirinin hər istiqaməti üzrə kredit münasibətlərinn konkret forması, yaxud növü üstün bi mövqeyə malikdir. Misal üçün demək olar ki, əmtəələr nisyə satıldığı zaman əsas rolu kammersiya kreditləri oynayır. Əksinə, alınan kredit pul vəsaitləri formasında verildikdə isə bank krediti birinci dərəcəli əhəmiyyətə malik olur. Kreditlərin rolu onların məhsul istehsalı və satış fasiləsizliyinə olan təsirilə də təzahür edir. Borc vəsaitlərinin yardımı ilə təsərrüfat subyektlərinin vacib resurslara olan tələbatları ödənilir, təkrar istehsal proseslərinin ləngiməsinə isə yol verilmir. Əlavə vəsaitlərə yaranan tələbat, həmçinin, mövsüm amili ilə də bağlı ola bilir. Bu zaman da kredit vasitəsilə kapital dövranı və dövriyəsinin fasiləsizliyinin ahəngdarlığı ümumilikdə təmin edilmiş olur.

Kreditin istehsalın genişləndirilməsində də əhəmiyyəti böyükdür. Kreditin iştirakı ilə geniş təkrar istehsal üçün kapital mənbələrinin formalaşması sürətlənir. Kreditlərdən əsas fonddarın artırılması mənbəyi kimi istifadə edilməsi də mümkündür. Belə olan hallarda kreditlər istehsalın inkişafı, o cümlədən, genişlənməsi üçün zəruri olan bir sıra əsas fondların yaradılması üçün müəssisələrin imkanlarını da artırır. Burada xüsusilə vacib olan detal odur ki, kredit modern dövrün iqtisadi səmərə və tərəqqisinin aparıcı qüvvələrindən hesab olunan elmi-texniki tərəqqiyə, dolayısı ilə də cəmiyyətin məhsuldar qüvvələrinin inkişaf etmələrinə xidmət edə bilir. Kreditin, həmçinin, pul dövriyyəsində rolu mühümdürr. Məlum olduğu kimi, nağd vəsaitlərin və pulların tədavülə buraxılması və həmçinin, tədavüldən çıxarılması kredit əsasında maliyyə bankları vasitəsilə baş

verir. Yəni, bir tərəfdən nağd pulların tədavülə buraxılması müəssə və təşkilatlara, o cümlədən, əhaliyə bankların öz kassalarından nağd vəsaitlərin verilməsi sayəsində yalnız onların öz bank hesablarında qalıqlar olduqda mümkündür. Belə qalıqların qalması isə müştəri ilə banklar arasında müəsisə, təşkilat vəəhalinin kreditorlar olduqları kredit münasibətlərinin mövcud olmasını da göstərir. Bankın hesablarından nəğd pulların verilməsi onun müştəri qarşısındakı borcunun ödənilməsi deməkdir. Başqa bir tərəfdən, banka nəğd pulların daxil edilməsi isə onların tədavüldən çıxarılmasnı göstərir və nəticədə, bankların müştərilərinə olan borclarının çoxalması ilə müşayiət oluna bilir.

Nağdsız pul dövriyəsinə gəldikdə, ödənişləri daim yerinə yetirmək üçün müəssisələrin vəsaitlərə mütəmadi əlavə tələbatı yaranır. Buna səbəb gündəlik pul müxaricləri və pul mədaxilləri arasında uyğunsuzluqla əlaqədardır. Belə hallarda isə  əlavə pyl vəsaitlərinə olan müvəqqəti tələbat kreditin cəlb olunması ilə ödənilə bilər. Burada verilən borclar, onların həcmi və ödənilmə müddətinin əmtəə istehsalı və satış prosesləri ilə də əlaqələndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Dövriyədəki pul kütləsinin ona olan tələbata uyğun şəkildə olması ictimai kapitalın geniş təkrar istehsalnın ahəngdarlığı və fasiləsizliyi üçün də olduqca mühüm əhəmiyyət kəsb edir. Məhz dovriyyədəki pul kütləsinin dövriyənin tələbatlarına uyğun olması məqsədilə kreditləşmə prinsiplərinə riayət edilməsi oldquca vacibdir.

Həmçinin, dövriyyədəki pul vəsaitlərinin həcminin tənzimlənməsi və bunun malik olduğu böyük iqtisadi əhəmiyyəti nəzərə alaraq kredit əməliyatlarının pul siyasəti vasitəsilə dövlət tənzimlənməsi də tətbiq olunur. Burada kreditin iqtisadi və maliyyə rolunun yeni tərəfi askarlanır. Kreditdən iqtisadiyyatın dövlət tənzimlənməsinin vacib və mühüm aləti kimi istifadə olunur. İqtisadiyyatın kredit tənzimlənməsi kreditin həcmi ilə dinamikasnı dəyişməklə iqtisadiyyatın inkişafı imkanlarına, perspektivlərinə təsir göstərməsi ilə əlaqədardır. Kreditin dinamikası isə iqtisadiyyatın silsiləvi inkişafı ilə müəyyənləşir, lakin dövlət tənzimlənməsi nəticəsində kreditin iqtisadiyyatın sahə/bölmələri üzrə yerləşdirilməsinə həlledici təsir göstərə bilir.

Kredit tənzim edilməsi vasitəsi ilə dövlətlər sosial-iqtisadi problemlərin həllinə, həmçinin, ziddiyyətlərin zəiflədilməsinə, iqtisadi böhranların gedişinin yüngülləşdirilməsnə, inflasiyanın dayandırılmasına, iqtisadiyyatın, ümummilli məhsulun, ixrac və idxalın quruluşunun sadələşdirilməsi və səmərələşdirilməsinə və s. çalışır. Məsələn, dünya təcrübəsindən də yaxşı məlumdur ki, böhran halında və ya şəraitində, yaxud böhran yaxınlaşdıqca bazarın tələbini canlandırmaq məqsədi ilə dövlət çox vaxt kredit vasitəsi ilə istehsal investisiyalarını və mülki tikintini, uzunmüddətli istehlak mallarının kredit vasitəsilə satışını və nəhayət, milli ixracı stimullaşdırmağa can atır. Borc kapitalının hərəkətinin təbii bazar mexanizmilə kreditkərin tənzimlənməsi arasındakı nisbət bir qayda olaraq ölkə iqtisadiyyatındakı konkret vəziyyət, dünya dövlətlərinin, ilk növbədə isə əsas iqtisadi ortaqların istehsalda etdikləri silsilə dəyişikliklər, bunlardan əlavə, beynəlxalq ticarətdə, beynəlxalq valyuta sistemində, beynəlxalq kapital bazarındakı ümumi vəziyyətdən asılıdır. Kredit tənzimlənməsi bütünlükdə iqtisadiyyatın səmərəliləşdirilməsinə, onun ümumi keyfiyyətinin yüksəldilməsinə xidmət edir, lakin həmçinin müəyyən məhdudiyyətlərə malikdir. Bu məhdudiyyətləri qavramaq, onlara yetərincə bələd olmaq kredit tənzimlənməsindən maksimum dərəcədə istifadə edilməsi üçün vacibdir. Əks təqdirdə, kreditə hədsiz meyil, ondan makro və mikro-səviyyələrdə sui-istifadə sonda pul və kredit böhranları ilə də nəticələnə bilər.

Kredit multiplikatoru – əsasən, bankların kredit mexanizmilə yaratdıqları pulları ifadə edən bir məfhumdur. Əgər ödənişlər heç banknot və ya əskinaz istifadə edilmədən, tamamilə çek və vekselllərlər aparılarsa, onda kredit multiplikatorunun düsturu aşağıdakı kimi olur: “K=(1-r)/r” Buradakı “r” bankların əmanət müqabilində tutduqları qarşılıq nisbətini ifadə edir. Göründüyü kimi, bu nisbət nə qədər aşağı olsa, kredit multiplikatorunun dəyəri də bir o qədər yüksək olur. Əslində, banklardan alınan kreditlərin çeklə istifadəsi tam anlamda mümkün deyildir. Yalnız müəyyən qisim ödəmələr banknotla aparılır. Başqa sözlə, alınan kreditlərin bir qismi bank sistemindən kənara çıxarılmış olur. Bu təqdirdə kredit multiplikatoru aşağıdakı düsturla göstərilir: “K=(1-r)/(r+M)”, burada “M” –

banknotla aparılan ödəmə nisbətidir. Beləliklə, M-in dəyəri nə qədər aşağı olarsa, kredit multiplikatoru da bir o qədər böyük olur (Şəkərəliyev,2009, s.55).

Bank kreditləri kreditin ən geniş yayılmış forması hesab olunur və onların ölkə iqtisadiyyatındakı rolları danılmazdır. Məhz banklar kreditləri ən çox müvəqqəti maliyyə ehtiyacı olan insanlara verirlər. Bu, təsadüfi deyil, çünki əsas fəaliyyəti kredit vermək olan banklar xüsusi bir subyektdirlər. Bank kreditlərinin başlıca xüsusiyyəti bundadır ki, geriqaytarma əsasında pul vəsaitlərinin təkrar şəkildə dövranı və dövriyyəsini həyata keçirən banklar nəticədə daha çox şəxsi kapitalından deyil, məhz cəlb edilmiş resurslardan istifadə edirlər. Bəzi subyektlərdən borc aldığı pul vəsaitlərini banklar digər hüquqi və fiziki şəxslər arasında yenidən bölüşdürürlər. Bununla birlikdə, banklar sadəcə pul vəsaitlərini deyil, pulun özünü kapital şəklində borc verir. Bu isə o deməkdir ki, borc alan banklardan götürdüyü vəsaitləri elə səmərəli istifadə etməlidir ki, sadəcə onların kreditorlara qaytarılmasını deyil, həmçinin, ən azı borc faizini də ödəməkdən ötrü kifayət qədər mənfəət əldə etsin.

Beləliklə, ödənclik kreditin bank formasının ayrılmaz bir atributuna çevrilir. Bütün bu sözügedən faktlarla əlaqədar bank krediti faizi daim komersiya krediti faizindən daha yüksək olur. Bank əsasən kənar mənbə və vəsaitlərdən kredit resursları kimi istifadə etdiyindən, verdiyi kreditlər üzrə faizi maksimum səviyyədə saxlamağa çalışır. Ancaq bank kreditini kommersiya kreditindən fərqləndirən xüsus təkcə bu deyil. Bank kreditlərinin obyekti ticarət və sənaye kapitalından ayrılmış pul (nağd) kapitalıdır. Borcalan qismində dövlət, fiziki/hüquqi şəxslər, o cümlədən bankların özü çıxış edir. Kommersiya kreditinin miqyasları istənilən halda ticarət və sənaye kapitalı ehtiyatları sayəsində müəyyən olunur və məhdudlaşır. Ticarət və sənaye kapitalının kommersiya krediti xəttilə hərəkəti ünvanlı olur; əmtəə ya istehsalçıdan birbaşa istehlakçıya, yaxud da istehsalçıdan əmtəənin sonrakı satışilə məşğul olan ticarət qurumuna ötürülür. Bank kreditləri kommersiya kreditlərinə xas olan məhdudiyyətləri və limitləri aradan qaldırır, çünki o kreditləşmənin istiqaməti məbləğ və müddətlə məhdudlaşmır.

Bank kreditləri kommersiya kreditlərində olduğu kimi sırf əmtəə tədavülünə deyil, həmçinin, kapital yığımına xidmət edir. Bank kreditinin aləti olan bank vekseli vasitəsilə kommersiya vekselinin diskount əməliyyatları vasitəsilə əvəz olunması kredit təminatını gücləndirir, beləliklə də, onun miqyaslarını, müddətlərini genişləndirmiş olur.

Yuxarıda qeyd olunan fərqlərə baxmayaraq, kommersiya və bank kreditinin ümumi cəhətləri də yox deyildir. Belə ki, kommersiya krediti tarixən bank kreditindən daha əvvəl yaranmış və məntiqi şəkildə kredit sisteminin əsası kimi çıxış etmişdir. Bu, özlüyündə onunla izah olunur ki, məhz kommersiya krediti bilavasitə ticarət ve sənaye kapitalları dövranına, əmtəə istehsalından son istehlaka qədərki hərəkətlərinə xidmət edir. Ancaq bank kreditlərinin üstünlükləri, çeviklikləri onların XX əsrdə kommersiya kreditləri ilə müqayisədə daha sürətlə inkişaf etmələrini müəyyən etdi. Qlobal və milli qtisadiyyatda inhisarlaşma prosesi gücləndikcə bank kreditlərinin üstünlükləri özlərini daha qabarıq göstərirdi, lakin onlardan daha real kapitalın genişləndirilməsindən ötrü istifadə edilməsi bank kreditlərinin özündə də mühüm dəyişiklikləri şərtləndirirdi. Kreditlərin inhisarlaşması güclənir, bank kapitalının təmərküzləşməsi, həmçinin, mərkəzləşdirilməsi sürətlənir və bank inhisarlarının yaranmasına gətirib çıxarır. Bank kapitalının sənaye və ticarət kapitalları ilə uzlaşması prosesi şaxələnir və dərinləşir. Bank kreditlərinin üstünlüyünə baxmayaraq kommersiya krediti rədd edilməyir. Əksi baş verir, yəni kommersiya kreditləri bank kreditlərinin tarixi və məntiqi sələfi olmaları etibarilə bank kreditlərinin sonrakı çox sürətli inkişafından bəhrələnir. Bank qəbul edilməsi kommersiya veksellərinin təminatnı möhkəmləndirməklə kommersiya kreditlərinin iri şirkətlər, xüsusən də korporasiyalar üçün əhəmiyyətini artırır. Ümumi resursların əmtəələr və pul formasında korporasiyalar daxilində borc əsasında baş verən axının həcmləri isə labüd şəkildə böyüyür və əhəmiyyətli dərəcədə bankların sayəsində mümkün olur. Bu isə kommersiya və bank kreditlərinin çulğalaşmasının labüdlüyünü göstərir.

İstifadə formasına görə kreditlərin növləri: istehsal, istehlak və investisiya kreditləri. 1) İnvestisiya krediti – bir qayda olaraq, istehsal fəaliyyətinin

genişlənməsi, yəni istehsal vahidlərinin şaxələnməsi məqsədilə istifadə edilir və adətən, uzun müddətli olur. İstehsal krediti alan hər hansı bir müəssisə onu istehsal prosesi fəaliyyətində istifadə edir və kredit kontraktında təsbit edilən müddətdə kreditin əsas kapital və faizini qaytarır. 2) istehlak krediti isə istehlakçıların ehtiyatları olan malların təmin olunması üçün istifadə edilir, yəni istehlakçılara satınalma gücü verir. İstehlak krediti, adətən, kommersiya məqsədilə deyil, fərdlərə təməl istehlak ehtiyaclarının qarşılanması üçün ayrılmış kreditlərdir (Şəkərəliyev, 2009, s.67).

İstehlak kreditləri daha çox maşın, televizor, soyuducu, paltaryuyan, kondisioner və s. bu kimi daşınar istehlak mallarının alınmasını maliyyələşdirmək üçün istifadə edilir. Kreditin məhz bu növü əhali tərəfindən yeni dəyərin yaradılmasında deyil, borc alanın istehlak tələbatlarının ödənilməsində istifadə olunur. Bu kredit hesabına vətəndaşların bahalı, keyfiyyətli və uzunmüddətli istehlak mallarına yaranan tələbatları onların dəyərinin tam ödənməsinə qədər təmin olunur.

Əhalinin alıcılıq qabiliyyətini ümumilikdə onun pul gəlirləri müəyyən edir, ancaq alıcılıq qabiliyyəti bir çox hallarda alıcı tələblərindən aşağı olur. Bu və ya digər malları almaq arzusu bəzən maddi imkanları üstələyir. Digər bir sözlə, əhalinin cari maddi gəlirləri ilə uzunmüddətli istehlak mallarının (mebel, avtomobil, televizor, soyuducu və s.) yüksək qiymətləri arasında mütləq bir uyğunsuzluq mövcud olur. Həmçinin, əhalinin bəzi tələblərində pul vəsaitlərinin müvəqqəti şəkildə sərbəstləşməsi də baş verir. Bu vəziyyətdə istehlak kreditinin alınması tam təbii görünür, çünki məhz onun köməyi ilə istehlakçı nöqteyi-nəzərndən iki vacib ziddiyyət aradan qaldırılır:

- İlk olaraq, uzunmüddətli istehlak mallarına olan yüksək qiymətlər ilə əhalinin müvafiq gəlirləri arasındakı ziddiyyətləri qeyd olunmalıdır.
- İkinci olaraq isə, əhalinin müəyyən bir qrupunda sərbəst pul yığımlarının yaranması, lakin digər qrupunda onların istifadəsi zərurətinin yaranması arasındakı dərin ziddiyyət (Həsənov, 2009, s.77).

Deməli, istehlak kreditləri adətən əhalinin istehlak səviyyəsinin yüksəldilməsinə xidmət edir. Digər tərəfdən, istehlak krediti istehsalçının da mənafeyinə uyğundur, çünki əmtəə satışının fasiləsizliyinə xidmət edir. İstehlak kreditinin bank və firma formalarında ola bilər. Birinci halda, istehlak kreditini pul formasında banklar təmin edir. Qeyd eləmək lazımdır ki, bank kreditləri arasında istehlak krediti ən bahalı kreditlər hesab olunur. İkinci halda, ticarət firmasının özü (satıcı) müəyyən bahalı uzunmüddətli malı müştəriyə kreditlə satır. Hər iki halda isə müştəri bank, yaxud firmaya kredit məbləğinin müəyyən faizi həcmində ilkin ödəniş edir. Kredit məbləğinin yerdə qalan hissəsini kredit müddəti ərzində vaxtaşırı ödəmələr yolu ilə kreditora qaytarır. Hər hansı səbəbə görə borcalan ödəmələri dayandırdıqda və ya imtina etdikdə, kreditor krediti (pul məbləğini, yaxud malı) geri ala bilər. İstehlak krediti üzrə borc ödənişinin əsas mənbəyi borcalanın qarşıdan gələn mütəmadi gəlirləridir. Buna görə də, belə kreditlərin verilməsindən əvvəl kreditorlar tərəfindən kreditin qaytarılma mənbələrinin mövcudluğu və ya reallığı ciddi şəkildə yoxlanmalıdır.

İstehlak kreditinin digər müstəqil bir növünü mənzil krediti təşkil edir. Burada kredit hazır mənzil və ya evin alınmasına və tikilməsinə verilir. Mənzil krediti də ya bankın özü, ya da mənzili (evi) tikən şirkət tərəfindən müvafiq olaraq pul şəklində verilir. Bu zaman isə girov iltizamı (“girovnamə”) tərtib olunur. Sözügedən sənəd borcalan mənzil kreditini hissə-hissə və razılaşdırılmış müəyyən müddət ərzində qaytara bilmədikdə kreditora mənzili müsadirə etmək hüququ verir. Kreditin bu növünə “ipoteka krediti” də deyilir. Bu, sırf daşınmaz əmlak girovu üzrə verilən kreditdir. Bu zaman borc vəsaitləri müxtəlif məqsədlərə, habelə, istehsal və istehlak tələbatlarının ödənilməsinə sərf oluna bilər. Əksər hallarda, ipoteka borcunun qaytarılmasının əsas mənbəyi də borcalanın qarşıdan gələn gəlirləri hesab olunur.

# II Fəsil MİLLİ İQTİSADİYYATIN QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAF ETDİRİLMƏSİ PRİORİTETLƏRİ

## 2.1 Qeyri-neft sektorunun inkişaf etdirilməsi günümüzün ən mühüm iqtisadi tələbi kimi

Qeyri-neft sektorunun inkişaf etdirilməsi və ölkənin rəqabətqabiliyyətli iqtisadiyyatında xüsusi bir çəkiyə malik olması Azərbaycan Respublikasının yaxın perspektiv üçün qarşıya qoyduğu ən mühüm və vacib vəzifələrdəndir. Azərbaycan müstəqilliyini qazandıqdan sonra ölkənin infrastrukturu və iqtisadiyyatı bərbad və arzuolunmaz vəziyyətdə idi, bundan əlavə, siyasi çaxnaşma və yeni müstəqilliyini bərpa edən dövlətin dayaqlarının kövrəkliyi kimi faktorlar ölkəmizin iqtisadiyyatını daha planlı və sistematik şəkildə qurmasına imkan vermirdi. Odur ki, 1994-cü ildə imzalanmış Əsrin müqaviləsi Azərbaycanın bir dövlət kimi mövcud olmasını şərtləndirən əsas maliyyə qaynağını ölkə üçün təmin etməklə onu çətin vəziyyətdən xilas etdi və iqtisadi müstəqillik qazandırdı. Bununla belə, sözügedən faktorlar 90-cı illərin əvvəlləri üçün nə qədər aktualdırsa, bu gün üçün bir o qədər qeyri-aktualdır; neft sektorunun inkişaf etdirilməsinə davam etməklə birlikdə, iqtisadiyyatı sadəcə neftdən asılı hala gətirmək və sadəcə neft faktoruna arxalanmaq makroiqtisadi maraqlar və gələcək inkişaf üçün davamlı tərəqqi vəd etmir.

Azərbaycan iqtisadiyyatının dayanıqlı, möhkəm dinamik inkişafını təmin edən başlıca sahələrdən biri də qeyri-neft sektorudur. Ölkənin maliyyə qaynaqlarının və sosial-iqtisadi inkişafının təkcə bir amil üzərində qurulması və iqtisadiyyatın sadəcə bir amildən asılı olması məqsədəuyğun bir hal hesab edilə bilməz və yaxın gələcək üçün qaçınılmaz böhran təhlükəsini şərtləndirər. Bu baxımdan, qeyri-neft sənayesinin dinamik şəkildə inkişafının təmin edilməsi nəticəsində milli iqtisadiyyatda neft faktorundan asılılıq əhəmiyyətli dərəcədə azalacaq. Neft sektorunun ardıcıl şəkildə inkişafı qeyri-neft sektorunun da inkişafı üçün təməl rolunu oynayır və ölkə iqtisadiyyatında sözügedən sektordan əldə edilən gəlirlərin digər (qeyri-neft) sektorlara yönəldilməsi onun davamlı inkişafı

üçün zəmin yaradır.

Dövlət tərəfindən aparılan məqsədyönlü, düşünülmüş və ardıcıl iqtisadi siyasətin nəticəsi olaraq, son illərdə ölkənin inkişafı davamlı (və ya ardıcıl) xarakter almışdır. Belə ki, hələ 2010-cu ildə qeyri-neft sektorunda təqribən 7,9%-lik bir artım qeydə alınmış, habelə, 2009-cu illə müqayisədə informasiya-kommunikasiya və rabitə sahəsi 29.8%, nəqliyyat sektoru və anbar təsərrüfatı 4,2%, tikinti 20,3% artmışdır. 2005-2010-cu illərin ümumi nəticələrinin təhlili onu deməyə əsas verir ki, bu dövrdə, bir çox sahələrdə iqtisadi inkişafla yanaşı, qeyri-neft sektorunda da, həmçinin, ardıcıl inkişaf tempi qeydə alınmış və qeyri-neft sektorunun ÜDM-i nisbətən sabit bir artım tempinə sahib olmuşdur. 2010-cu ildə ümumilikdə ölkə iqtisadiyyatın və sosial sferanın inkişafına bütün maliyə mənbələri hesabına əvvəlki illə müqayisədə 21,3% daha çox (9725,2 milyon manat) kapital investisiyası yönəldilmişdir. Sözügedən vəsaitin 76,2%-ni ölkədaxili investisiyalar, 23,8%-ni isə xaricdən gələn investisiyalar təşkil etmişdir. Əsas və ya baza kapitala yönəlmiş ümumi investisyaların 68,7%-i qeyri-neft bölməsinin, habelə, 13,2%-i qeyri-neft sektorunun, 30,3%-i isə neft sənayesinin inkişaf etdirilməsində istifadə olunmuşdur. 2010-cu ildə isə təsərrüfat subyektləri tərəfindən milli sənayedə istehsal olunmuş mallar və xidmətlərin həcmi bir il əvvəlki rəqəmlərlə müqayisədə 2,6% artmış və 27,4 mlrd. Manat təşkil etmişdir. Daha dəqiqi ilə desək, sənaye məhsulları istehsalı neft sənayesində 1,8%, qeyri-neft sektorunda 6,7% artmışdır. 2010-cu ildə qeyri-neft sektoru üzrə 6,3%-lik real artım qeydə alınmaqla bərabər, 1688,5 mln. manatlıq da əlavə dəyər yaradılmışdır (www.stat.gov.az, 2010).

Sənaye məhsullarının 74,8% mədən sənayesində, 20,1% emal sənayesində, 4,5% elektrik enerjisi istehsalı, habelə, qaz, buxar və kondisiyalaşdırlmış hava ilə təchizat bölməsində, yerdə qalan 0,6% su təchizat, çirkli sular və tullantıların təmizlənməsi bölməsində istehsal olunmuşdur. Emal sektorunun məhsullarına gəldikdə; qida məhsullarının istehsalı 3,4%, içkilərin istehsalı 11,8%, qeyri-mebel ağac emalı, ağacdan məmulat istehsalı 7,5%, kağız-karton istehsalı 24,5%, nəşriyyat-poliqrafiya fəaliyyəti və yazılı məlumatların digər

daşıyıcılara köçürülməsi 11%, neft məhsullarının istehsalı 7,8%, kimya sənayesində məhsul istehsalı 17,2%, metallurgiya sənayesində məhsul istehsalı 43,6%, elektrik avadanlıqlarının istehsalı 84,8%, maşınlar və avadanlıqların istehsalı 2 dəfə, nəhayət, avtomobil və qoşqu-yarımqoşqular istehsalı 49,4 dəfə artmışdır. Belə ki, 2011-ci ildə ölkənin qeyri-neft sektorunda gəlir 5.7 milyard manat təşkil etmiş, yəni 2010-ci ilə nisbətən 11.1 faiz artım qeydə alınmışdır. Qeyri-neft sənayesində mədənçıxarma bölməsi 166.2 mln. manat, emal bölməsi 3873.8 mln. manat, elektrik enerjisi, qaz-buxar istehsalı və bölüşdürülməsi, habelə, təchizatı bölməsi 1653.4 mln. manat, su təchizat, tullantıların təmizlənməsi-emalı bölməsi 178.4 mln. manatlıq məhsul istehsal etmişdir (www.stat.gov.az, 2011).

Mədənçıxarma sənayesində dəmir filiz hasilatı 3.8 dəfə, duz hasilatı 1.9 dəfə, tikintidə istifadə olunan qumun hasilatı 16.2 faiz, inşaat əhəngdaşısı hasilatı 0.3 faiz artmışdır. Emal sənayesinin demək olar ki, əksər sahələrindəki məhsul istehsalında birmənalı şəkildə artım baş vermişdir. Bu sənayedə ən yuxarı xüsusi çəkiyə malik olan qida məhsulları istehsalı sənayesində 2011-ci ildə 2.3 mlrd. manatlıq məhsul istehsal olunmaqla əvvəlki illə müqayisədə məhsul istehsalı 6.0 faiz artmışdır. Bununla bilrikdə, emal sənayesinin əsas sahələrindən biri olan içki istehsalında məhsul istehsalı 8.4%, tikinti materialları istehsalında 4.6%, kimya məhsulları sənayesində 28.1%, əlvan metallurgiya sənayesində 2 dəfə, maşın və digər avadanlıqların istehsal olunmasında 26.4%, maşın və digər avadanlıqların quraşdırlması və təmirində isə 1.9 dəfəlik artım müşahidə olunmuşdur.

2011-ci fiskal ilində ölkə üzrə baza kapitala yönəlmiş 12.9 mlrd. manat vəsaitin 76.9 faizi (9.8 milyard manatı) qeyri-neft sənayesinin inkişafına yönəldilmişdir. Sözügedən müddət ərzində Tovuzda süd emal zavodu, Ağcabədidə süd emal zavodu və "Atena" adlanan süd məhsulları kombinatı, İmişlidə yem fabriki, bitki yağlar fabriki, Ağsuda un və çörək zavodu, şirə ilə şərab emalı zavodu, Qəbələdə limonad istehsal zavodu, Şəkidə şərab zavodu, Oğuzda qarğıdalı emal zavodu, habelə, qlükoza istehsalı üçün xüsusi müəssisəs və başqa müəssisələrin istifadəyə verilməsi nəticəsində qeyri-neft sektorunun ən prioritet sahəsi hesab olunan qida məhsulları istehsalının növbəti illər üçün də davamlı

inkişafına münbit şərait yaratmışdır. Bunlardan əlavə, Abşeron rayonunda istifadəyə verilmiş AZMDF zavodu ilə mebel fabriki, Astarada qaz və kompressor stansiyası, Qobustanda eksperimental poliqonn və təlim-tədris mərkəzi, Xaçmazda yenidən təmir olunmuş kondensatar zavodu, habelə, tikintisi davam edən bir çox müəssisə və obyektlər bütünlüklə qeyri-neft sektorunun yüksək səviyyədə inkişafına münbit şərait yaradacaq.

2012-ci il üçün qeyri-neft sektorunda 27484.9 mln. manatlıq əlavə dəyər yaradılmaqla birlikdə, ümumən götürdükdə, onun 57.5 faizindən çoxu sosial-ictimai və digər xidmətlər, habelə, ticarət və nəqliyyat vasitələrinin təmiri, tikinti sahələrinin artırılmasının payına düşmüşdür. Həmin ildə ölkə iqtisadiyatının qeyri-neft sektorunda yaradılmış əlavə dəyər əvvəlki illərin müvafiq dövrilə müqayisədə 9.8 faiz daha çox olmuşdur. Qeyri-neft sektorunda qazanılmış uğur və yaradılmış əlavə dəyərin ölkənin ÜDM-də məxsusi çəkisi əvvəlki ilin uyğun dövrünə nisbətdə 3.9 faiz artaraq 53.7 faiz təşkil etmişdir. Ümumilikdə götürdükdə, 2012-ci ildə qeyri-neft sektorunda təqribən 6610.4 mln. manatlıq məhsul istehsal olunmuş, bu isə ölkə üzrə sənaye məhsullarının 19.3 faizini təşkil etməklə ondan əvvvəlki ilin müvafiq dövrilə müqayisədə ümumi payı 2.5faiz artmışdır. Qeyri-neft sektorunda məhsul istehsalı zamanı emal sənayesinin məxsusi çəkisi 69.2 faiz, elektrk enerjisi, qaz-buxar istehsalı, habelə, bölüşdürülməsi və təchizatı payı 27.4 faiz, su ilə təchizat və tullantıların təmizlənməsi 3 faiz, mədənçıxarma sənayesinin ümumi payı 2.5 faiz təşkil etmişdir (www.stat.gov.az, 2012).

2011-ci illlə müqayisə olunduqda, cari hesablamalara görə 2012-ci ildə qeyri-neft sektorunda emal sənayesnin xüsusi çəkisi 1% artmışdır. Əvvəlki il müddətində məhsul istehsalı qeyri-neft sektorunun emal sənayesinin 16 müxtəlif bölməsində, habelə, qida məhsullarının istehsalında (2.8 faiz), toxuculuğ sənayesində (62 faiz), rezin-plastmast məhsulları istehsalında (2.4 dəfə), tikinti materialları istehsalında (17 faiz), əlvan metallurgiya sənayesində (17.5 faiz), hazır metal məmulatları istehsalında (48.7 faiz), kompüter, hesablama maşınları və digər elektron avadanlıqlar istehsalında (7 dəfə), elektrik avadanlıqları istehsalında (77 faiz), mebel istehsalında (2.4 dəfə), maşın və digər avadanlığların quraşdırılması,

təmiri sahəsində (42 faiz) artmışdır. 2013-cü ildə isə ölkənin ümumilikdə qeyri-neft sektorunda 33638.9 mln manatlıq əlavə dəyər yaradılmaqla, onun 60 faizdən çoxu sosial xidmətlər, ticarət, həmçinin, nəqliyyat vasitələrinin təmiri, inşaat və tikinti sektorunun payına düşmüşdür. Sözügedən ildə ölkə iqtisadiyatının qeyri-neft sektorunda yaradılmış əlavə dəyər ondan əvvəlki müvafiq dövrilə müqayisədə 10 faiz artmışdır. Qeyri-neft sektorunun inkişafında yaranmış əlavə dəyərin ölkə ÜDM-də xüsusi çəkisi isə əvvəlki illə müqayisədə 3.1 faiz artaraq 55.6 faiz təşkil etmişdir. Həmçinin, 2013-cü ildə milli iqtisadiyyatda yaradılmış əlavə dəyərin 5.8 faizlik artımına qeyri-neft sektoru (sənayesi) 5.4 faiz müsbət töhvə vermişdir.

Qeyri-neft sektorunun alt sektorları üzrə ÜDM-nin artımı üçün ən çox müsbət töhfə verən sahə isə tikinti sektoru (2.4%) olmuşdur. 2013-cü il üçün qeyri-neft sənayesində yaradılmış əlavə dəyər həcmi əvvəlki ilin həmin dövrilə müqayisədə 4.3 faiz artaraq 2676.4 mln. manata çatmışdır. Həmin ildə ÜDM-da qeyri-neft sənayesinin sahib olduğu xüsusi çəki 4.6 faiz təşkil etmişdir. Sənayedə yaradılmış əlavə dəyərdə qeyri-neft sektorunun ümumi payı 0.5 faiz bəndi artaraq 11 faizə yüksəlmişdir. Qeyri-neft sektorunda yaradılan əlavə dəyərin qeyri-neft sənayesinin xüsusi çəkisi isə 8.3 faiz təşkil etmişdir. Qeyri-neft sektoru ÜDM-un artımına 0.3%, qeyri-neft ÜDM-un artımına 0.4%, sənayenin artımına 0.5% müsbət töhfə vermişdir. Qeyri-neft sektorunda yaradılmış əlavə dəyər strukturunda mədənçıxarma sənayesinin malik olduğu xüsusi çəki 2.5% və ya 64.9 mln. manat, emal sənayesinin malik olduğu xüsusi çəki 54.2% və ya 1429.3 mln. manat, elektrik enerjisi, qaz-buxar istehsalı, bölüşdürülməsi və təchizatının malik olduğu xüsusi çəki 42.7% və ya 1112.3 mln. manat, su ilə təchizat, tullantıların təmizlənməsinin malik olduğu xüsusi çəki isə 2.8% və ya 72 mln. manat olmuşdur. Müqayisə edilən dövr üçün qeyri-neft sənayesində yaradılmış əlavə dəyərin strukturu daxilində emal sənayesinin malik olduğu xüsusi çəki 0.8 faiz artmışdır. 2013-cü ildə qeyri-neft sənayesi ümumi buraxılışında qeyri-neft sektorunda yaradılan əlavə dəyərin malik olduğu xüsusi çəki ondan əvvəlki ilin müvafiq dövrilə müqayisə olunduqda 0.9 faiz artaraq 39.3 faizə yüksəlmişdir. Bu il müddətində məhsul istehsalı qeyri-neft sektorunun emal sənayesinin bir çox

bölmələrində, həmçinin, qida məhsullarının istehsalında (4.2 faiz), tikinti materialları istehsalında (21.0 faiz), maşın və digər avadanlıqların istehsalında (25.1 faiz), kimya sənayesndə (19.5 faiz), içkilərin istehsalında (13.6 faiz), maşın və digər avadanlıqların quraşdırılması, habelə, təmiri sahəsində (31.3 faiz), elektrik avadanlıqlarının istehsalında (14.6 faiz), poliqrafiya məhsulları istehsalında (43.4 faiz), dəri-dəri məmulatlarının, ayaqqabıların istehsalında (30.9 faiz), digər nəqliyat vasitələri istehsalında (2.4 dəfə) və s. artmışdır.

Qeyd edilən ildə qeyri-neft sənayesində ümumilikdə 6876.6 mln. manatlıq məhsul istehsal edilmiş və ondan əvvəlki ilin müvafiq dövrilə müqayisədə 4.9% artmışdır. 2014-cü ildə milli iqtisadiyyatda əsas kapital qoyulmuş ümumi investisiyaların 74.0%-i və ya 13.1 mlrd. manatı qeyri-neft sənayesinə yönəldilmişdir.Qeyri-neft sektoruna yönəldilmiş investisyaların ümumi həcmində ondan əvvəlki ilin müvafiq dövrilə müqayisədə 12.2 faizlik artım qeydə alınmışdır. Əsas kapitala qoyulmuş investisyaların 12.7 faizi, qeyri-neft sənayesinə yönəldilən investisiyaların 17.4 faizi və ya 2357.5 mln. manatı qeyri-neft sektorunun ayrı-ayrı bölmələrinin inkişafında istifadə edilmişdir.

2014-cü ildə qeyri-neft sektoru üzrə 36 mlrd. manatlıq əlavə dəyər əldə edilmiş və ümumən, onun 61.5%-i sosial və s. xidmətlər, habelə, ticarət, nəqliyyat vasitələri təmiri və inşaat sektorunun payına düşmüşdür. Həmin ildə ölkə iqtisadiyatının qeyri-neft sektorunda yaradılmış əlavə dəyər bundan əvvəlki ilin müvafiq dövrilə müqayisədə 7.0% artım göstərmişdir. Belə ki, qeyri-neft sənayesindən əldə edilən əlavə dəyərin ölkənin ÜDM-da xüsusi çəkisi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3.9 faiz artmaqla 62.0% təşkil etmişdir. 2014-cü ildə ölkə iqtisadiyyatında yaradılmış əlavə dəyərin artımı, belə demək mümkündürsə, tamamilə qeyri-neft sektoru hesabına olmuşdur. Qeyri-neft sektorunun subsahələri üzrə ÜDM-un artımına digərləri ilə müqayisədə daha çox müsbət töhfə verən sahə yenə tikinti sahəsi (1.1 faiz) olmuşdur. 2014-cü ildə qeyri-neft sənayesi üzrə 7199.8 mln. manatlıq məhsul istehsal olunmuş və əvvəlki ilin müvafiq dövrlə müqayisə etsək, 6.9 faiz artım qeydə alınmışdır. Sözügedən dövrdə qeyri-neft sənayesi üzrə istehsal edilən məhsulun ölkənin bütün sənaye

məhsullarına müvafiq olaraq xüsusi çəkisi əvvəlki ilin həmin dövrilə müqayisədə 2.5 faiz artmış və ya 22.7% təşkil etmiş, qeyri-neft sənayesi isə ümumi sənayenin artımına 1.5 faiz bəndində müsbət töhvə vermişdir.Qeyri-neft sektorunda (sənayedə) məhsul istehsalında mədənçıxarıma sənayesinin ümumi payı 1.7%, emal sənayesinin məxsusi çəkisi 69.9%, elektrik enerjisi, qaz-buxar istehsalı, bölüşdürülməsi və təchiz edilməsinin payı 25.5%, su ilə təchizat, tullantıların təmizlənməsi payı isə 3.3% təşkil etmisdir. Həmin ildəki hesablamalara görə, 2013-cü illə müqayisə olunduqda, 2014-cü il müddətində qeyri-neft sənayesində məhsul buraxılışnda emal sənayesinin xüsusi çəkisi 0.9 faiz bəndində artmışdır. 2014-cü ildə qeyri-neft sənayesində ümumi buraxılışın artım tempi isə 2013-cü ilin sözügedən dövrilə müqayisədə 2.2 faiz bəndində artım göstərmişdir. Artım tempinin yüksəldilməsinə emal sənəyesinin bir çox aparıcı sahələrinin də (qida məhsulları istehsalı, tikinti materialları istehsalı, metalurgiya sənayesi, kimya sanayesi, maşın və digər avadanlıqların quraşdırlması və təmiri, elektrik avadanlıqları istehsalı, hazır metal məmulatlar istehsalı və d.) artım templərinın yüksəlməsi də xeyli təsir etmişdir. Belə ki, 2014-cü il ərzində ümumməhsul istehsalı qeyri-neft sənayesinin əksəriyyət bölmələrində, habelə, qida məhsullarının istehsalında (1.5%), tikinti materialları istehsalında (23.2%), metalurgiya sənayesində (10.0%), kimya sənəyesində (31.0%), maşın və digər avadanlıqların quraşdırılması və təmiri sahəsində (42.0%), içki istehsalnda (8.1%), elektrik avadanlıqlarının istehsalında (13.1%), hazır metal məmulatlar istehsalında (6.5%), geyim və paltar istehsalında (60%), digər-sair nəqliyyat vasitələri istehsalında (3.5 dəfə), şalban-mebel istehsalında (8.4%), avtomobil və qoşqu vasitələrinin istehsalında (57.2%) və d. altbölmələrdə artmışdır (Quliyev və Seçkin, 2014).

2015-ci iıdə qeyri-neft sənayesi üzrə 7670.3 mln. manatlıq məhsul istehsal olunmuş və əvvəlki ilin müvafıq dövrilə müqayisədə 8.5% artım göstərmişdir. Qeyd edilən dövrdə qeyri-neft sənayesi üzrə istehsal olunan məhsulun bütün ölkə üzrə vahid sənaye məhsullarında məxsusi çəkisi bundan əvvəlki ilin müvafiq dövrilə müqayisə olunduqda 6.4 faiz bəndində artmış və ya 29.3% təşkil etmiş, sənayenin 2.5%-lik artımına qeyri-neft sektoru öz növbəsində 2 faiz bəndində

müsbət töhvə vermişdir. Qeyri-neft üzrə emal sənayesinin subsahələri üzrə sənaye artımına daha çox stimullaşdırıcı təsiri maşın və digər avadanlıqların quraşdırılması, habelə, təmiri (1.5 faiz bəndi), kimya sənayesı (0.4 faiz bəndi), qida məhsulları istehsalı (0.3 faiz bəndi), hazir metal məmulatlar istehsalı (0.3 faiz bəndi) və kompüter ilə digər elektron avadanlıqlar istehsalı (0.3 faiz bəndi) sahələri göstərmiştir. Qeyri-neft sənayesindəki məhsul istehsalında mədənçixarma sənayesinin ümumi payı 1.8% və ya 131.4 mln. manat, emal sənayesinin xüsusi çəkisi 71.5% və ya 5498.0 mln. manat, elektrk enerjisi, qaz-buxar istehsalı, bölüşdürülmə vətəchizatı payı 25.8% və ya 1997.0 mln. manat, su təchizat, tullantıların təmizlənməsi payı isə 4.0% və ya 244.9 mln. manat təşkil etmisdir.

Aşağıda göstərilən cədvəldə qeyri-neft sənayesində ümumi buraxılışın 2011-2015-ci illər üzrə göstəricilərinə aid təhlil verilmişdir.

**Cədvəl: 1 Qeyri-neft sənaye sahələrinin ümumi buraxılışı, faizlə (2011-2015-ci illər üzrə)**

| **İllər** | **2011** | **2012** | **2013** | **2014** | **2015** |
|---|---|---|---|---|---|
| Mədənçıxarma sənayesi | 3 | 2.5 | 1.6 | 1.6 | 1.7 |
| Emal sənayesi | 67 | 68.2 | 69.1 | 69.8 | 70.5 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 27 | 26.4 | 26.1 | 25.4 | 24.8 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 3 | 2.9 | 3.2 | 3.2 | 3 |

**Mənbə:** Azərbaycan Respublikası Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

2015-ci il üzrə ölkənin qeyri-neft sektorunda 37.8 mlrd. manatlıq əlavə dəyər yaradılmaqla, ümumilikdə onun 60%-dən çoxu sosial xidmətlər, ticarət, nəqliyyat vasitələri təmiri və tikinti sahələrnin payına düşmüşdür. Sözügedən ildə ölkə iqtisadiyatının qeyri-neft sektorunda yaradılmış əlavə dəyər əvvəlki ilin həmin dövrilə müqayisə olunduqda 1.2% artım göstərmişdir. Qeyri-neft sektorunda yaradılmış əlavə dəyərin ölkənin ÜDM-də məxsusi çəkisi əvvəlki ilin həmin dövrünə nisbətdə 7.5 faiz bəndində artaraq 70.3% təşkil etmişdir. 2015-ci ildə iqtisadiyyatda yaradılmış əlavə dəyərin 1.2 faizlik artımına qeyri-neft səktoru 0.8 faiz bəndində müsbət töhvə vermişdir. Qeyri-neft sənayesi və təsərrüfatının əksər sahələrində, habelə, kənd təsərüfatı, meşə təsərüfatı və balıqcılıq (6.7%), ticarət və nəqliyyat vasitələri təmiri (11%), turistlərin

yerləşdirilməsi, ictimai iaşə (15.0%), informasiya-kommunikasiya və rabitə (6.9%), sosial və d. xidmətlər (1.8%) sahələrində yaradılmış əlavə dəyərin artım tempı əvvəlki ilin müvafiq dövrilə müqayisədə daha yüksək olmuşdur.

Qeyri-neft sektoru üzrə ÜDM-nin artımına ən başlıca müsbət töhvəni ticarət və nəqliyyat vasitələri təmiri sahəsi (1.5 faiz bəndində) vermişdir. Sözügedən ildə qeyri-neft sənayesində yaradılmış əlavə dəyər həcmi əvvəlki ilın müvafiq dövrilə müqayisə olunduqda, 10.2% artmaqla, 3094.8 mln. manata çatmışdır. Ölkə üzrə əsas ÜDM-un həcmində qeyri-neft sənayesinin malik olduğu xüsusi çəki 1.1 faiz bəndində artaraq 5.7%-ə çatmışdır. Sənayedə yaradılmış əlavə dəyərin qeyri-neft sənayesinə aid hissəsi 5.4 faiz bəndində artaraq 16.9%-ə yüksəlmiş, qeyri-neft sektoru üzrə yaradılan əlavə dəyərdə qeyri-neft sənayesinin malik olduğu xüsusi çəki bundan əvvəlki ilin müvafiq dövrilə müqayisədə 0.7 faiz bəndində artmış və 8.3% təşkil etmişdir. Qeyri-neft sektoru ölkə üzrə ÜDM-un artımına 0.6 faiz bəndində, qeyri-neft sektoru üzrə ÜDM-un artımına 0.9 faiz bəndində, sənayenin artımna isə 1.2 faiz bəndində müsbət töhvə vermişdir. Qeyri-neft sənayesi üzrə yaradılmış əlavə dəyər strukturunda mədənçixarma sənayesinin malik olduğu xüsusi çəki 1.5% və ya 43.8 mln. manat, emal sənayesinin malik olduğu xüsusi çəki 59.5% və ya 1737.4 mln. manat, elektrik enerjisi, qaz-buxar istehsalı, bölüşdürülmə və təchizatının malik olduğu xüsusi çəki 36.3% və ya 1122.1 mln. manat, su ilə təchizat, tullantıların təmizlənməsinin malik olduğu xüsusi çəki isə 3.1% və ya 91.9 mln. manat təşkil etmişdir. Müqayisə edilən dövrdə qeyri-neft sənayesi üzrə yaradılmış əlavə dəyərin sturukturunda mədənnçıxarma sənayesinin malik olduğu xüsusi çəki 0.2 faiz bəndində, emal sanayesinin xüsusi çəkisi isə 3.1 faiz bəndində artmışdır. Qeyd edilən dövrdə qeyri-neft sənayesi üzrə yaradılan əlavə dəyərin malik olduğu xüsusi çəki bundan əvvəlki ilin analoji dövrilə muqayisədə 3.0 faiz bəndində artmışdır. Ümumi məhsul istehsalı qeyri-neft üzrə emal sənayesinin əksər bölmələrində, habelə, qida məhsulları istehsalı (3.0%), maşın və digər avadanlıqların quraşdırılma və təmiri sahəsi (2.8 dəfə), tikinti materiallarının istehsalında (6.3%), kimya sənayesi (43.3%), hazır metal məmulatlarının istehsalı

sahəsi (55.1%), elektrik avadanlıqları istehsalı sahəsi (1.9%), kompüter, elektronika və optika məhsullarının istehsalı sahəsi (2.2 dəfə), mebel istehsalı (10.2%), ağac emalı və ağac məmulatların istehsalı (67.4%), kağız-karton istehsalı (7.6%), avtomobil və sair qoşquların istehsalı (4.7%) və s. sahələrdə artmışdır.

2016-cı il müddətində qeyri-neft sənayesi üzrə ümumi buraxılışın artım tempi 2015-ci ilin analoji dövrilə müqayisədə 1.5 faiz bəndində artmışdır.Artım tempinın yüksəlməsinə emal sənayesinin çoxlu sayda aparıcı sahələrinin (qida məhsulları istehsalı, tikinti materialları istehsalı, kimya sənayesi, maşın və digər avadanlıqlar quraşdırılması və təmiri, hazır metall məmulatlar istehsalı, kompüter, elektronika və optika məhsulların istehsalı və s.) artım templəri yüksək olması təsir göstərmişdir. 2015-ci il üzrə milli iqtisadiyyatda əsas kapitala qoyulan cəmi investisyaların 55.2%-i və ya 8896.3 mln. manatı qeyri-neft sektoruna yönəldilmişdir. Əsas kapitala qoyulan investisiyiaların 7.8%-i, qeyri-neft sektoruna yönəldilən investisıyaların isə 14.2%-i və ya 1239.2 mln. manatı qeyri-neft sənayesi bölməsinın inkişafına töhfə vermək məqsədilə istifadə edilmişdir.

Milli iqtisadiyyatın dayanıqlı və tarazlaşdırılmış inkişafının təmin edilməsi, əhalinin maddi və sosial rifahının yüksəldilməsi,cəmiyyətin əksər istiqamətlərdə tərəqqisini surətləndirmək, inkişafın keyfiyətcə yeni modelinin formalaşdırılması naminə iqtisadiyyatı şaxələndirmək, neft gəlirlərinin ümumi səviyyəsindən asılı olmayaraq qeyri-neft sektorunun məqsədyönlü şəkildə inkişaf etdirilməsi və onun ixrac imkanlarınn genişləndirilməsi indiki mərhələdə qarşıya qoyulan əsas vəzifələrdəndir. Hazırda qeyri-neft sənayesinin inkişaf etdirilməsi hökumətin iqtisadi siyasəti üzrə ən vacib, prioritet məsələni təşkil edir. Ölkənin ÜDM üzrə qeyri-neft sektoruna düşən pay üstünlük təşkil etsə belə, ixracda hələ ki, neft-qaz faktoru öz mütləq dominantlığını qoruyub saxlayır. Dünya birjalarında neftin qiymətində baş verən oynama və qeyri-sabitlik, xüsusilə də, 2017-ci ildən etibarən neft qiymətlərinin kəskin aşağı düşməsi, ölkə iqtisadiyyatı üçün ciddi və taleyüklü problemlər yaratmışdır. İxracda neftdən asılı olmaq ölkəmizə valyuta daxil olmalarnda qeyri-neft sektorunun ümumi rolunu məhdudlaşdırmışdır.

Ümumilikdə götürdükdə, ölkə iqtisadiyatında qeyri-neft sektorunun inkişaf etdirilməsində bir çox problemlər mövcud olmuşdur və bu problemləri aşağıdakı şəkildə xarakterızə etmək mümkündür:

- milli iqtisadiyyatda uzun müddət yanacaq və energetika sektorunun əsas aparıcı qüvvə kimi öz mövqeyini qoruması;
- qeyri-neft sektorunun ümumi inkişafı sahəsində həyata keçirilmiş tədbirlərin icrasında baş verən arzuolunmaz ləngimələr;
- prespektivli və potensial inkişafa malik olan sahələrə, müəssəsələrə investisiya qoyuluşlarında güzşətli və səmərəlı yanaşma probleminin hələ də qalması;
- ölkədə modern elmi-intellektual potensialın dağınıq olması və desentralizasiyası;
- sözügedən sahədə yüksək ixtisaslı və peşəkar mütəxəsislərin, intellektual qabiliyyətdə insanların hazırlığının aşağı səviyyəsi;
- innovasiya fəaliyətinin inkişafını təmin edə bilən tənzimlənmə mexanizmi və infrastrukturunun yetərincə inkişaf etməməsi;
- modern və beynəlxalq səviyyədə qəbul olunmuş keyfiyyət standardlarının tətbiq olunma mexanizminin kifayət qədər formalaşmamış olması;
- ölkənin regional inkişafında hələlik fərqlərin mövcudluğu və qeyri-neft sənayesi müəssisələrinin inkişaf trayektoriyasının mərkəzə meyilliyi;
- istehsal fondları, texnoloji avadanlıq amortizasiyasının yüksəkliyi, habelə, yeni və müasir avadanlıqlar üzrə tətbiq əmsalının aşağı olması;
- məhsul istehsalı prosesində material və enerji tutumluluğu səviyyəsinin yüksək olması;
- müəssisədaxili idarəetmə sisteminin və ümumilikdə, menecmentin peşəkarlıq səviyyəsinin hazırki dünya tələblərinə cavab verə bilməməsi;
- qeyri-neft sektoru üzrə prioritet sahə olan qeyri-neft sənayesindəki texniki və texnaloji bazanın modern və mütərəqqi inkişafdan geri qalması;
- qeyri-neft sektoru üzrə sənaye müəssəsələrinin rəqabətəqabiliyyətli, innovativ yönümlü məhsul istehsalında yetərli səriştəyə malik olmaması və ümumiyyətlə, buna meyilli olmaması;

- qeyri-neft sektoru üzrə sənaye sahələrinin, müəssisələrin ixrac potensialının malik olduğu xüsusi çəkinin tədiyyə balansında, xarici və beynəlxalq ticarətdə aşağı göstərciyə malik olması və s. problemlər (Mehtiyev İ. və Aslanlı, 2014).

Azərbaycanın milli iqtisadiyyatının qeyri-neft sektorunda davamlı və ardıcıl inkişafa nail olmaq və sözügedən sahədə mövcud olan problemləri aradan qaldırmaq, habelə, ayrı-ayrı sahələrin differensial inkişafını təmin etmək üçün məqsədəuyğun və müvafiq tədbirlər planı hazırlanmalı və həyata keçirilməlidir. Qeyri-neft sektoruna əcnəbi və yerli investisyaların cəlb edilməsi, istehsalda müasir texnoloji avadanlıqlarda istifadə edilməsinə şəraitin yaradılması və intensiv, mütərəqqi metodların istehsala tətbiq olunmasının stimullaşdırılması, bazara çıxarılacaq məhsul və ya xidmətlərin xalis keyfiyyətinin beynəlxalq standartlar və normalara uyğunlasdırılması, dünya maliyyə bazarlarına çıxış imkanlarının yetərincə genişləndirilməsi, qanunvericilik və hüquqi bazanın təkmilləşdirilməsi, sahibkarlıq subyektlərinə maliyyə təminatı verilməsinin yaxşılaşdırılması məqsədilə güzəştli kreditlər ayrılması və s. kimi mühüm tədbir və islahatlar qeyri-neft sektoru üzrə mövcud problemlərin həll olunmasında mühüm rol oynamaqdadır. Hazırda qeyd edilən bütün bu tədbirlər planlı və məqsədəuyğun şəkildə dövlətin nəzarəti və köməyilə həyata keçirilir.

Kimya sənayesi Azərbaycan iqtisadiyyatında ən köklü və ənənəvi qeyri-neft sahələrindən biridir. Qeyri-neft sektorunun inkişafına nail olunmasında bu sahə xüsusi imkan və perspektivə malikdir. Sözügedən sahənin inkişaf etdirilməsi üçün müəssisələr ilk növbədə modernləşdirilməli, innovativ texnologiyaların tətbiqinə məxsusi diqqət ayrılmalı, rəqabətəqabiliyyətli məhsulların istehsal edilməsinə birmənalı şəkildə üstünlük verilməlidir. Kimya sənayesində mütərəqqi və davamlı inkişaf təmin etmək üçün bu sənayenin sahə-ərazi sturukturu, habelə, bu sahədə istehsal edilən məhsulların çeşidi artırılmalı və təkmilləşdirilməlidir. Mövcud olan və hazırda fəaliyyət göstərən sənaye müəssəsələri yeni texnoloji avadanlıqlar ilə yenidənqurulmalı və fəaliyyətləri genişləndirilməli, kənd təsərrüfatının aqro-kimyəvi maddələrlə təchiz edilməsində yerli istehsal genişləndirilməli, kimyəvi

məhsullar emalında son məhsulun optimallaşdırılma səviyyəsinə qədər dərinləşdirilməsinə, habelə, neftin təkrar və ilkin emalına nail olunmalıdır.

Qeyri-neft sektoru sənayesi üzrə əsas sahələrindən biri hesab olunan maşınqayırma sənayesi üçün də kompleks tədbirlər görülməlidir. Mövcud olan maşınqayırma müəssisələrinin modern texnologiyalarla təmin olunması, bu sahədə müasir sertifikatlaşdırılma və standardlaşdırma qaydaları və ekoloji standardların tətbiq olunması, elmi-texniki potensialdan müvafiq şəkildə istifadənin səmərəliliyinin təşkil edilməsi və s. işlər bu sahədə görülməsi planlaşdırılan ən əhəmiyyətli tədbirlərdən hesab olunur.

Metallurgiya qeyri-neft sektoru üzrə perspektivli və gələcək vəd edən bir sahə hesab olunur. Metalurgiya müəssisələrində dəmir filiz hasilatından polad istehsalına qədər olan mərhələləri əhatələyən müasir istehsal komplekslərinin yaradılması, ölkədə alüminumdan, digər əllvan metallardan və onların qırıntılarından yekun məhsul istehsalının genişləndirilməsi, rəqabətəqabiliyyətli və ixrac edilə bilən metallurgiya sənayesi məhsulları istehsalının stimullaşdırılması, yeni yataqların kəşfi və öyrənilməsi, tədqiq olunması, kəşfiyyatı və işlənməsi və s. tədbirlər bu sahədə də yüksək iqtisadi artıma töhfə verə bilər.

Qeyri-neft sektoru üçün olduqca əhəmiyyətli və perspektivli sahə hesab edilən, lakin hazırda ümumi inkişaf baxımdan geri qalan sahələrdən biri də yüngül sənayedir. Ölkədəki mövcud işsizlik səviyyəsinin əhəmiyyətli dərəcədə azalmasına rəvac verəcək bu sahənin inkişaf etdirilməsi üçün kifayət qədər potensial və imkanlar mövcuddur. Bunun üçün yerli məhsul və xammala (pambıq, yun, ipək, göndəri) əsaslanmış ixracayönümlü məhsul istehsal edən hazırki sənaye müəssisələrinin fəaliyyətinə dəstək verilməsi, geyim və sair geniş istehlak malları istehsalının genişləndirılməsi və onların ümumi keyfiyyətinin artırılması istiqamətində modern və innovativ texnologiyaya əsaslanan investisiya layihələrinin planlı şəkildə həyata keçirilməsinin stimullaşdırılması, əllə toxunmuş xalçaların istehsalın genişləndirilməsi, bu sahədə fəaliyyət göstərməkdə olan müəssisələrin fəaliyyətinə dəstək verilməsi əhəmiyyətli tədbirlərdən hesab olunur

və bütün bu qeyd olunanlar əsasında yüngül sənayenin yuxarı inkişaf tempinə nail olmaq mümkündür.

Bu gün aqrar sektor dünyanın bir çox ölkələrində aparıcı sektor təşkil etməklə dövlətin inkişafını şərtləndirir, bu sektorun davamlı inkişaf etdirilməsi Azərbaycan üçün də olduqca əhəmiyyətlidir. Ölkəmizin geniş və münbit kənd təsərrüfatına yararlı torpaqları bu sahəni inkişaf etdirmək üçün hər cür imkanın mövcudluğundan xəbər verir. Aqrar təsərrüfat önəmlidir, çünki ölkənin əhalisinin əsas ərzaq məhsullarilə özünütəminat səviyyəsinin yüksəldlməsində və dövlətin və əhalinin ərzaq təhlükəsizliyinin təmin olunmasında bu sahənin əhəmiyyətli rolu danılmazdır. Hazırki mərhələdə dövlət aqrar sahənin inkişafına nail olmaq üçün çox ciddi və mühüm tədbirlər görür. Belə ki, kənd təsərrüfat sektoruna subsidyaların, vergi güzəştləri və güzəştli kreditlərin verilməsi sisteminin təkmilləşdirilməsi, aqrolizinq və aqroservis xidmətləri üzrə şərtlərin asanlaşdırılması bu qəbildən görülən işlərdəndir. Təəssüf ki, fermerlər hər hansı texnika və ya texnologiyanın əldə olunmasında maliyyə imkansızlığı yaşayır və bu isə öz növbəsində məhsuldarlığa mənfi təsir göstərir. Buna görə də dövlət aqrar sektorun intensiv, davamlı və səmərəli inkişafının stimullaşdırılması üçün sahibkarlara, fermerlərə dövlət dəstəyi göstərməyə, ekoloji cəhətdən təmiz kənd təsərrüfatı və ərzaq məhsulları istehsalını stimullaşdırmağa, mövcud torpaq bazarını təkmilləşdirməyə, aqrar sahədə vergi siyasətinə daha yumşaldıcı və stimullaşdırıcı xarakter verməyə çalışır (İsmayıl, Aslanlı və Mehtiyev, 2013).

Turizm sahəsi qeyri-neft sektorunun inkişaf etdirilməsində olduqca perspektivli və gələcək vəd edən bir sahə sayılır. Bu sahədə hazırki problemlərin aradan qaldırılması olduqca mühüm hesab olunur. Dövlət bu sahənin inkişafında çatışmazlıqları aradan qaldırmaq üçün ölkədə turizmin infrastrukturunun yüksək beynəlxalq səviyyədə qurulmasına istiqamətləndirilmiş məqsədyönlü layihələrin həyata keçirilməsi və reallaşdırılmasına, bu sahədə cəlbedici investisya və biznes mühitini formalaşdırılmasına, beynəlxalq turizm xidmətləri bazarında ölkəmizin turizm potensialı və rəqabət qabiliyyətini artırmağa, bütün regionlarımızda turizm fəaliyyətini stimullaşdırmağa, turizm sektoruna yerli və xarici investisiyaların cəlb

edilməsinə, turizmin müxtəlif növlərinin müstəqil şəkildə inkişaf etdirilməsinə, yeni və cəlbedici turizm marşrutlarının yaradılmasına, ölkəmizin tarixi, mədəni və mənəvi irsinin, milli adət-ənənələrnin dünyada layiqincə təbliğ olunmasına, turizmin inkişaf etdirilməsi sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsinə və s. səylə çalışır. Xüsusilə də, 2016-cı ildə sonra Azərbaycanda yaşanan turizm bumu və 2017-ci ildən başlayaraq ölkənin turizm sektorunda əhəmiyyətli irəliləyişlərin olması aparılan islahatların məntiqi nəticəsidir.

Azərbaycan dövlətində informasiya cəmiyyətinə keçidin təmin olunması və ya onun qurulması, "elektron hökumət"in uğurla formalaşdırılması və intellektual potensialın inkişaf etdirilməsi nəticəsində sosial və iqtisadi inkişafın yüksəldilməsi də aktual məsələ hesab olunur. Belə ki, İKT sektorunun davamlı inkişafı ölkədə neft və qaz sənayesinin ardından ikinci prioritet və ya öncül sahə kimi müəyyənləşdirilmişdir. İKT-nin 2014-2017-ci illər üzrə inkişaf strategiyasının bazasını "Azərbaycan Respublikası inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"ya uyğun şəkildə, ölkədə demokratik və hüquqi inkişafı təmin etmək, qlobal informasiya məkanına inteqrasiyanı genişləndirilmək məqsədiıə İKT-dən geniş istifadə etmək lazımdır. Səmərəli, demokratik, şəffaf və nəzarət olunan dövlət idarəetməsi və yerli özünüidarənin həyata keçirilməsi üçün "Elektron hökumət"in yaradılması, mütərəqqi, inkişaf etmiş informasiya-kommunikasiya infrastrukturunun yaradılması, ölkəmizin informasiya təhlükəsizliyinin təmin olunması və "Elektron hökumət" infrasturukturunun təməl komponentlərinin yaradılması, Azərbaycanın ümumdünya elektron-informasiya məkanına inteqrasiya olunması, milli tele-kommunikasiya peykinin orbitə göndərilməsi, kosmik sənayenin yaradılması üçün cəhd olunması və inkişaf etdirilməsi əsasında innovativ proseslərinin və yüksək elmi-texnoloji sıçrayışın gerçəkləşməsi, beynəlxalq normalar əsasında milli proqram vasitələrinin yaradılması və s. sözügedən strategiyanın başlıca hədəf və məqsədləri kimi müəyyən edilmişdir.

İKT sektoru üzrə istehsal yönümlü fəaliyyəti stimullaşdırmaq və innovasiyaların geniş şəkildə tətbiq olunmasını təmin etmək, bu sahəyə yerli və

xarici investisiyaların cəlb edilməsinə nail olmaq üçün ölkə Prezidentinin 2012-ci il 15 mart tarixli 2095 saylı Sərəncamı ilə Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində olan İnformasiya Texnologiyalarının İnkişafı üzrə Dövlət Fondu yaradılmışdır. “Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması, tele-kommunikasiya peyklərinin orbitə göndərilməsi haqqında” Prezidentin 2008-ci il 4 noyabr tarixli 27 saylı Sərəncamına müvafiq şəkildə, “Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişaf etdirilməi üzrə Dövlət Proqramı” təsdiq edilmiş, 2013-cü ildə ilk dəfə olaraq milli tele-kommunikasiya peyki, 2018-ci ildə isə ikinci sözügedən peyk orbitə buraxılmışdır.

Yekunda onu demək mümkündür ki, Azərbaycan bugün öz iqtisadi müstəqilliyini qoruyub saxlaya bilmək, iqtisadiyyatın davamlı inkişafını təmin etmək, dünya bazarına səmərəli şəkildə inteqrasiya olunmaq üçün milli iqtisadiyyatın şaxələndirilməsinə, sənayedə sturuktur dəyişikliklərinə gedilməsinə, regionların və sahibkarlığın daha vüsətlə inkişaf etdirilməsinə, qeyri-neft sektoru ixracının artırılmasına və bu sektordakı mövcud problemləri səmərəli və effektiv şəkildə aradan qaldırmaqla, sözügedən sektorun yüksək inkişaf tempinə nail olmağa çalışır və bu istiqamətdə ciddi islahatlar aparır.

## 2.2. İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün dövlət tərəfindən həyata keçirilən siyasətin analizi

Azərbaycan iqtisadiyyatının dayanıqlı və davamlı olmasını təmin etmək üçün onun tərkibində əhəmiyyətli kəmiyyət-keyfiyyət dəyişikliklərinin aparılması zəruridir. Belə ki, dünyada iqtisadi maraqlar hər gün dəyişir və texnoloji inkişaf get-gedə öz pik həddinə yaxınlaşdıqca, bu prosesdən kənarda qalmaq üçüncü dünya ölkələri və inkişaf etməkdə olan ölkələrin, habelə, iqtisadiyyatları sadəcə neftdən asılı olan ölkələrin inkişafdan qalmalarına və iqtisadi "plato"ya uğramalarına gətirib çıxarır. Hazırki iqtisadi şəraitdə ölkə iqtisadiyyatında rəqabətə qabil, yüksək texnoloji və modern standartlara cavab verə bilən məhsul istehsalının mövcudluğu olduqca mühüm bir məsələ hesab olunur. Milli iqtisadiyyatda, həmçinin, milli sənayedə daxili və xarici rəqabətədözümlü istehsal sahələrinin yaradılması və inkişaf etdirilməsi istər birbaşa hökumətin, istərsə də aşağı idarəetmə halqalarının ən əsas vəzifələrindən biridir. Belə ki, gəldiyi müasir mərhələdə milli sənayenin inkişafının daha da sürətləndirilməsi onun rəqabətqabiliyyətinin yüksəldilməsindən asılıdır. Bu səbəbdən, milli sənayenin rəqabətqabiliyyətinin yüksəldilməsi və dünya standartlarına əsasən qurulması dövlətin iqtisadi strategiyasının, o cümlədən iqtisadi siyasətinin mərkəzi və ya ana xəttini təşkil etməlidir.

İqtisadiyyatının şaxələndiirilməsində maraqlı olan hər bir hökümət iqtisadi artımı sürətləndirmək və yüksək artım tempinə nail olmaq üçün məqsədyönümlü şəkildə stimullaşdırıcı tədbir və vasitələrdən istifadə edir. Hökumətin yürütdüyü sənaye siyasəti də məhz belə tədbirlərdən biri hesab olunur. Sənaye siyasəti deyildikdə, dövlətin iqtisadiyyatı tənzimləmə üsulu başa düşülür, bu siyasətin əsas məqsədi ölkədə iqtisadi artım və əhalinin yüksək rifah səviyyəsini təmin etməyə yönəlmiş kompleks tədbirlərdir. Daha geniş şəkildə izah olunsa, sənaye siyasəti ölkənin resurs və kadr potensialından səmərəli istifadə etmək məqsədi ilə onun iqtisadiyyatın şaxələri arasında və mövcüd sahələr daxilində bölgüsünə və ya təkrar bölgüsünə istiqamətləndirilmiş, ölkədə iqtisadi artım tempi və bazasının

yaradılması, inkişaf etdirilməsi və keyfiyyət baxımından yeniləşdirilməsi, milli iqtisadiyyatın dünya təsərrüfatına səmərəli və güclü şəkildə inteqrasiya olunan rəqabətqabiliyyətli sturukturunun formalasdırılması üçün görülən məqsədəmüvafiq və kompleks tədbirlər sistemidir. Sənaye siyasəti – bazar iqtisadiyyatına malik ölkələrdə, habelə, "müasir tipli modern dövlət" hesab olunan ölkələrin əsas atributudur və burada subyekt rolunda dövlət çıxış edir. Sənaye siyasəti istənilən bir dövlətdə müəyyən bir tarixi mərhələdə qaçınılmaz olub, iqtisadiyyatın modernizasiyası və sənayenin yenidən qurulması üçün dövlətin də kömək və qaçınılmaz müdaxiləsini tələb edir. İqtisadi neftmərkəzli olan bir ölkə olaraq, Azərbaycanda da bu siyasət həyata keçirilməkdədir və məqsəd sənaye potensialından düzgün istifadə edərək mövcud iqtisadiyyatın şaxələndirilməsi və sadəcə bir faktordan asılı iqtisadi siyasətdən qaçınmaqdır.

İndiki şərait və reallığı nəzərə alaraq, Azərbaycanda sözügedən siyasətin əsasən aşağıdakı istiqamətlərdə həyata keçirilməsi daha məqsədəuyğun hesab olunur:

- İqtisadi siyasət orta illik müddətə yönəlməlidir, yəni çox da uzun müddəti əhatə etməməlidir (konkret olsun deyə);
- Sənayenin ümumi inkişafında emal sənayesi inkişafı prioritet olmalı, xüsusilə özəl biznes və ya sahibkarlığın inkişafı yönümlü olmalıdır;
- Mövcud infrastrukturun inkişafına yönəldilməlidir;
- İnvestisiyaları stimullaşdıra bilən olmalıdır;
- Milli iqtisadiyyatımızın rəqabət qabiliyyətini artırmalıdır;
- İqtisadiyyatımızı vahid dünya iqtisadi məkanına qovuşdurmaqla, inteqrasiyaedici və təkanverici mahiyyətə malik olmalıdır (Mehtiyev və Aslanlı, 2013).

İqtisadi siyasətin daha spesifik bir qolu olan sənaye siyasəti işlənib hazırlanmazdan əvvəl ölkə iqtisadiyyatının sahib olduğu potensial, onun aparıcı sahələrinin mövcud vəziyyəti araşdırılır, inkişaf tendensiyası qiymətləndirilir, ayrı-ayrı sahələrin yerli, lokal və qlobal, habelə, beynəlxalq bazarlarda rəqabət üstünlükləri müəyyən edilir. Bundan əlavə, sənaye siyasətinin işlənməsində əsas faktorlar və nümunələr nəzərə alınır, yəni xarici ölkələrin sözügedən sahədəki

müvafiq uğurlu təcrübəsi dərindən öyrənilir, analiz edilir və qiymətləndirilir. Ancaq sənaye siyasəti işlənib hazırlanarkən digər ölkələrin təcrübələri nəzərə alınmaqla yanaşı, həmin siyasətin ölkənin milli xüsusiyyətləri və milli mənafeyi baxımından dəyərləndirilməsi də aparılılır.

İqtisadiyyatın müasir inkişafı mərhələsində hökumətin yürütdüyü sənaye siyasətinin başlıca istiqamətləri aşağıdakılardır:

- Hökumət iqtisadi fəaliyyətini özəlləşdirmə (privatizasiya), vahid iqtisadi islahatlar və struktural dəyişikliklər istiqamətində təşkil edir;

- Həm hasilat, həm də emal sənaye sahəsində daha kiçik, daha çevik manevr etmə qabiliyyətinə malik olan müəssisələrin sayı artırılır, sənayedə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün tədbirlər görülür;

- Sənaye sahəsinin daha kompleks şəkildə inkişafını təmin edə biləcək yeni, mütərrəqi və daha çox stimullaşdırıcı vergi, kredit və qanunvercilik siyasətini həyata keçirir;

- Sənaye komplekslərinin texnoloji və elmi-texniki cəhətdən yenilənməsini, habelə, yenidən qurulmasını təmin edə bilən gömrük tariflərini tənzimləyir və xarici ticarət siyasətini həyata keçirir;

- Daxili bazarın qorunmasını təmin edəcək gömrük rüsumları və xarici ticarət siyasətini həyata keçirir;

- Ən əsası isə, bütün yuxarıda qeyd olunanlara nail olunduqdan sonra xarici investisyaların ölkə sənayesinə cəlb edilməsi üçün stimul yaradır.

Dünya ölkələrinin müvafiq təcrübələrinə əsasən, deyə bilərik ki, müxtəlif zamanlarda ayrı-ayrı ölkələr fərqli və differensiasiya edilmiş sənaye siyasətlərini həyata keçirmişlər və nəticə etibarilə, sənaye siyasətinin 3 modeli formalaşmışdır. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. İdxalı əvəzləmə modeli;
2. İnnovasiya modeli;
3. İxracyönümlü sənaye siyasəti modeli.

Hər bir sənaye siyasəti modelin özünəməxsus fərqli xüsusiyyətlər, yəni üstünlüklər və çatışmazlıqlara malikdir. Qeyd olunan sənaye siyasətlərinin

realizasiyası onda uğurlu ola bilir ki, hər bir modelin spesifik üstünlüklərindən istifadə edilir və məqsədəuyğun və arzuolunan nəticələrə nail olunur.

İdxalı əvəzetmədən ibarət sənaye siyasəti modeli ölkə üzrə milli istehsalın inkişaf etdirilməsi əsasında daxili bazarın tələbatlarının təmin edilməsi strategiyasına söykənir. Bu siyasəti seçən ölkələr proteksionist (himayəçi) siyasəti həyata keçirir və milli valyuta kursunun sabit saxlanılmasına çalışır. Bu modelin başlıca məqsədi tədiyə balansının sturukturunu yaxşılaşdırmağa, daxili tələbatın ödənməsini və məşğulluğu təmin eləməyə yönəlmişdir. Bu təcrübdən keçmiş ölkələrə nümunə olaraq Çin və Cənubi Koreyanı göstərmək mümkündür ki, 20-ci əsrin 80-ci illərində bu onlar məhz modelə üstünlük vermişdilər. Sənaye siyasətinin başqa bir modeli innovativ modeldir ki,bu modelin tətbiq edilməsi zamanı əsas məqsəd ölkəni yüksəktexnalogiyalı və kapital tutumlu istehsal əsasında inkişaf etdirmək vasitəsilə, onu qlobal texnoloji və ictimai inkişafın ən mütərəqqi və son meyillərinə yaxınlaşdırmaqdır. Sözügedən model elmi texniki potensialın inkişaf etdirilməsinə imkan yaradır, təhsilin inkişafını da stimullaşdırır, bunlardan əlavı, daxili tələbatın ödənməsini təmin edir, milli iqtisadiyyatı yüksək ƏD-li məhsul istehsalına istiqamətləndirir, habelə, ölkənin beynəlxalq iqtisadi arenada rəqabət qabiliyyətinin artmasına imkan verir.

İxracyönümlü sənaye siyasət modelinin xarakterik və məxsusi xüsusiyyəti isə ixraca görə nəzərdə tutulan məhsul istehsalının hər-tərəfli həvəsləndirilməsi tədbirrərinin üstünlük təşkil etməsi, habelə, ixracyönümlü rəqabətəqabiliyyətli sahələrin inkişaf etdirilməsi və dəstəklənməsidir. Bu modelin başlıca üstünlüyü ondan ibarətdir ki, o, ölkənin güclü rəqabətəqabil sahələrinin inkişaf etdirilməsilə, bir tərəfdən milli iqtisadiyyatın dünya təsərrüfatına inteqrasiya olmasına, dünya bazarları və modern texnologiyalara çıxış əldə etməsinə, başqa bir tərəfdən isə, ölkədə multipilikativ effekt hesabına başqa sahələrin də inkişafı üçün əlverişli və münbit şəraitin yaradılmasına xidmət edir. Sözügedən modeli tətbiq edərək iqtisadi inkişafa nail olmuş və uğur qazanmış bir çox ölkələr vardır. Yaponiya, Cənubi Koreya, Malayziya, Tailand, Sinqapur və s. misal göstərilə bilər (Allahverdiyev və Qafarov, 2007).

Hazırda Azərbaycan Respublikasında da bu sənaye siyasət modeli tətbiq olunmaqdadır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiqlənmiş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında əsas model kimi ixrac yönümlü iqtisadiyyat götürülmüşdür. Hazırki dövrdə Azərbaycan üçün ixracyönümlü modelin tətbiq edilməsi uğurlu bir addım hesab olunmalıdır, çünki hazırda milli iqtisadiyyatın davamlı, innovativ və tarazlı inkişafına nail olmaq üçün ölkənin ixracyönümlü və rəqabətqabiliyyətli sahələri seçilərək inkişaf etdirilməli və dəstəklənməlidir. Məlumdur ki, ölkənin uzun illər boyunca neft və habelə neft məhsullarından birmənalı asılılığı ölkə iqtisadiyyatının birtərəfli və məhdud inkişafına səbəb olmuşdur. Həmin asılılığın aradan qaldırılması, qeyri-neft sektorunn inkişaf etdirilməsi, həmin sektor üzrə rəqabətədözümlü, ixrac qabiliyətli məhsul istehsal edilməsinin təşkili, ölkənin həmin məhsullarla dünya təsərrüfatına səmərəli və effektiv inteqrasiya olunması ancaq həyata keçirilən uğurlu və məqsədyönümlü sənaye siyasəti nəticəsində reallaşa bilər. Həmin səbəbdən, ölkədə həyata keçirilən sənaye siyasəti də hər şeydən əvvəl milli sənaye üzrə rəqabət strategiyasını özündə ehtıva etməlidir. Bu strategiyanın sayəsində Azərbaycanın qeyri-neft sənayesi qlobal bazar iqtisadiyatında güclü rəqabət mövqeyi qazana, həmçinin onu gələcəkdə də uğurla qoruyub saxlaya bilər. Bu strategiyanın hazırlanılması zamanı beynəlxalq bazarlarda milli sənaye məhsullarınn iştirakını şərtləndirə biləcək məşhur "üç İ" prinsipinə-investisiya,innovasiya və inteqrasiyaya əsaslanmaq məqsədəmüvafiqdir. Məhz bu səbəbdən, ölkəmizdə həyata keçirilən sənaye siyasəti sənayenin müasir vəziyyətini, ölkənin ümumi iqtisadi inkişafında həmin sahələrin payını, mövcud potensial və perspektiv inkişaf imkanlarını, habelə, regionlarda istehsal sahələrinin inkişaf etdirilməsi tendensiyalarını nəzərə almaqla birlikdə, modern dünyanın inkişaf meyilləri və qloballaşmanın tələbləri də nəzərə alınmaqla, ölkə iqtisadiyyatının birmənalı şəkildə vahid dünya təsərrüfatına inteqrasiyanın təminatına yönəldilmişdir. İxracyönümlü sənaye siyasətinin əsas predmeti rəqabətə qabiliyyətli və ixracyönümlü malların istehsalıdır.

Hökumətin hazırki sənaye siyasəti və qeyri-neft sektoru üzrə inkişaf prioritet və öncülləri bir çox müxtəlif dövlət proqramlarında, ilkin olaraq isə "2002-2005-ci illərdə kiçik və orta sahibkarlığın inkişafına dair" Proqramda, daha sonra müxtəlif illəri (2004-dən 2018-ci ilə qədər) əhatə edən regional inkişaf proqramlarında, "2008-2015-ci illər üzrə ərzaq təhlükəsizliyi" üzrə Proqramda, 2005-2025-ci illərdə neft-qaz gəlirlərinin idarəsi üzrə uzunmüddətli strategiyada, "2008-2015-ci illərdə yoxsulluğun azalması və davamlı inkşafa dair Dövlət Proqramı"nda, "Sənayenin inkişaf etdirilməsinə dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"ında, habelə, "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasında da öz əksini tapmışdır. Bu sənədlərin arasında ən mühümlərindən biri də "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqram"ıdır ki, burada da müəyyən edilmiş prioritetlər aşağıdakılardan ibarətdur (Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı, 2015):

- sənayenin modernizasiyası və sturukturunun təkmilləşdirilməsi;
- qeyri-neft sənayesi üzrə ixrac potensialının artırılması;
- enerjidən qənaətli və səmərəli istifadə edən, habelə yüksək əlavə dəyər yaradan rəqabətəqabiliyyətli sənaye istehsalının genişləndirilməsi;
- başlıca olaraq, elmtutumlu və innovativ istehsalın genişləndirilməsi;
- yeni istehsal sferaları üçün ixtisaslı kadrların hazırlığı və s.

Bu proqram sənayenin ümumi rəqabət qabiliyyətinin artırılması və gücləndirlməsi, sənaye müəssəsələrinin fəaliyyətinin fərqli yollarla dəstəklənməsi, sənaye zonaları və klastərlərinin qurulması, kadr potensialı və elm təminatının gücləndirilməsi və s. kimi vacib istiqamətlərdə həyata keçirilir. Burada maşınqayırma sənayesinin, xüsusilə də, neft maşınqayırma sənayesinin inkişafının diqqət mərkəzində saxlanması, həmin sahədə istehsal edilən məhsulların daxili tələbatın ödənməsində ümumi payının artırılması, ölkədə başlıca olaraq yeyinti sənayesi, yüngül sənayes, mebel sənayesi, tikinti materialları istehsalı sahələrində istehsal həcmlərinin genişləndirilməsilə yanaşı, başqa sahələrdə də, o cümlədən kimya, əlvan metallurgiya, maşın və digər avadanlıq istehsalı, alternativ enerji

qaynaqları üçün qurğu və avadanlıqların istehsalı, müdafiə sənayesi sahəsində yeni emal müəssisələrinin qurulması, yüksək texnologiyaların tətbiq edilməsilə yeni istehsal sahələrinin fəaliyyətə başlanması əsas prioritetlər arasındadır.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası adlı fundamental sənəddə qeyd edilir ki, "Hazırkı mərhələdə qarşıda duran əsas vəzifə iqtisadiyatın şaxələndirilməsni sürətləndirmək, neft gəlirlərinin səviyəsindən asılı olmayaraq qeyri-neft sektorunun yüksək inkişaf tempini gələcək illərdə də qoruyub saxlaya bilmək və onun ixracat imkanlarını genişləndirməkdir. Bu konsepsiyada o da nəzərdə tutulur ki, iqtisadiyyatın rəqabət qabiliyətinin yüksəldilməsi və sturukturunun təkmilləşdirilməsi qeyri-neft ixracatının artımına səbəb olacaqdır. Qeyri-neft sənayesinin sürətli inkişafı ilə birlikdə, innovativ fəaliyyətin təşviqi və genişləndirilməsi ölkədə biliyə söykənən iqtisadiyyatın formalaşması üçün əlverişli və münbit zəmin yaradacaqdır" ("Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası). "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında məqsədyönümlü şəkildə iqtisadiyyatın sturukturunun təkmilləşdirilməsi ən vacib vəzifələrdən biri kimi müəyyən edilib. Bu konsepsiyaya əsasən, neft-qaz sektorunun və neft-kimya sənayesinin modernizasiyası, qeyri-neft sənayesinin şaxələndirilməsi və inkişafı, alternativ və bərpaolunabilən enerji qaynaqlarından istifadə imkanlarının genişləndirilməsi, aqrar və ya kənd təsərrüfatı sektorunun inkişafı və ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsi, ticarət və xidmət fəaliyyət növlərinin genişləndirilməsi və inkişafı, habelə, xarici ticarətin və investisyaların strukturunda təkmilləşdirmələr aparılması ən mühüm prioritet istiqamətlər olaraq müəyyənləşdirilmişdir. Azərbaycanda 2020-ci ilə qədər qarşıda durmuş ən vacib vəzifə kimi iqtisadiyyatın şaxələndirilməsini sürətləndirmək, neft gəlirlərinin səviyəsindən asılı olmayaraq qeyri-neft sektorunda yüksək inkişaf tempini qoruyub saxlamaq və onun ixrac imkanlarını genişləndirmək üçün fundamental tədbir və islahatların həyata keçirilməsi də nəzərdə tutulmuşdur.

Hökumət qeyd edilən sənədlərdə sənaye sahəsində, habelə, qeyri-neft sektorunda aşağıdakı prioritet məsələləri müəyyənləşdirmişdir:

- Kimya sənayesinin dəstəklənməsi, ələlxüsus da, kimyəvi xammal, materyal və hazır məhsul idxalından asılılığının minimuma endirilməsi;
- Maşınqayırma sənayesində istehsalın diversifikasiya olunmasının genişləndirilməsi;
- Metallurgiya sənayesinin, həmçinin, aluminium və boru istehsalının modern texnologiya əsasında bərpa edilməsi və inkişafı, habelə, qara və əlvan metallurgiya, dəmir filizi, alunit istehsalının dəstəklənməsi, qara metalurgiyanın müasir standartlara və bazar tələbatlarına uyğun yekun məhsuların istehsalının təşkil olunması, alminum və sair əlvan metallardan və onların qırıntılarndan son məhsul istehsalın genişləndirililməsi;
- İnşaat materialları növlərinin (gips, kafel, inşat yapışğanları, sement və sement xammalı, bentonit və s.) istehsalının genişləndirilməsi, habelə, qonşu ölkələrə ixracın stimullaşdırılması;
- Yeyinti və ərzaq məhsullarının (şərab, ət məhsulları, süd məhsulları, qənnad məmulatı, konservləşdirilmiş meyvə-tərəvəz məhsullar istehsalının) daxili istehsalının inkişafina nail olmaq və ixracın stimullaşdırılması;
- Quşculuq sənayesinin inkişaf etdirilməsi;
- Yerli və ucuz xammal (panbıq, ip, göndəri, ipək) əsasında yüngül sənayenin, habelə, tikiş və toxuçuluq, xalçacılıq, ipəkçilik sanayesinin inkişafının dəstəklənməsi, geyim məhsulları istehsalının da genişləndirilməsi;
- Əllə toxunan xalça istehsalının da genişləndirilməsi və s. (“Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası).

Göstərilmiş prioritet hesab olunan qeyri-neft sektoru sahələrinn inkişafına nail olmasında fərqli istiqamətdə tədbirlər sisteminin həyata keçirilməsi nəzərdə tutulur.

Qeyri-neft sektoru üzrə sənaye müəssəsələrinin rəqabətə qabiliyyətliliyinin təmin olunmasında, daxili istehsalın inkişaf etdirlməsində kiçik və orta sənaye müəssəsələrininin modernizasiyası, yenidən qurulması mühüm şərtdir. Bu məqsədlə sözügedən sahəyə hökümət tərəfindən təkmilləşdirilmiş şəkildə investisya yardım mexanizmi hazırlanması və yerli-xarici investisiyaların həmin

sahələrə cəlb edilməsi, investorları stimullaşdırmaq naminə əl-verişli investisiya mühitininn yaradılması hökumətin sözügedən görməli olduğu ən vacib tədbirlərdəndir.

Ölkədə həyata keçirilən iqtisadi siyasət və islahatların davamlığını təmin etmək üçün iqtisadiyatın cari vəziyyətinin dərin təhlil olunması və innovativ iqtisadi inkişaf strategyasının hazırlanması məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2016-cı il 16 mart tarixində “Milli iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritə”sinin başlıca istiqamətlərinin təsdiqi və bundan irəli gələcək məsələlələr haqqında sərəncam imzalayıb. Yol xəritəsində nəzərdə tutulan əsas məqsədlər aşağıda qeyd olunanlardan ibarət olması planlaşdırılır:

• gəlir səviyyəsi və məşğulluğu artırmaq;

• iqtisadiyatı qeyri-neft sektoru istiqamətində diversifikasya etmək;

• bütün iqtisadiyyatda səmərəlilik və rəqabətliyi artırmaq;

• cari hesabat balansını davamlı və ardıcıl şəkildə yaxşılaşdırmaq.

Yol xəritəsinin əsas ikiqat missiyası aşağıdakı kimi müəyyənləşdirilib: ixrac sektorunda rəqabətlilik və birbaşa xarici investisiyalar.

Daxili bazarlarıda səmərəliyin artırılması və idxalatın yerli istehsalla əvəzlənməsi milli iqtisadiyyatın mühüm bir istiqamətini təşkil edən səkkiz prioritet sektora “Strateji Yol Xəritəsi”ndə xüsusi diqqət yetirilməsi planlaşdırılır:

- 4 istehsal sektoru: neft və qaz, kənd təsərrüfatı, istehlak mallar istehsalı, ağır sanaye və maşınqayırma

- 2 xidmət sektoru: ixtisaslaşdırılmış turizm, logistika və ticarət

- 2 sosial sektor: münasib qiymətə mənzillər və kompleks bir məsələ kimi peşə (peşəkar) təlimləri.

Ümumiləşdirildikdə, belə nəticəyə gəlmək mümkündür ki, sənaye müəssisələrinn modern texnologiyalar əsasında yenidən qurulması, onların modernləşdirlməsi, yerli qaynaq və xammal ilə işləyən, ixracaqabiliyyətli məhsullar istehsall edən sənaye komplekslərinin qurulması, rəqabətdavamlı sənaye istehsalının genişləndirilməsi və s. məsələlər qeyri-neft sektorunun əsas inkişaf

prioritetləri hesab edilir və bəhs olunan prioritetlər istər hökumətin vahid sənaye siyasətində, istərsə də başqa sənədlərdə öz əksini tapmışdır və tapmaqdadır.

# III Fəsil AZƏRBAYCANDA BANK KREDİTLƏRİNİN QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFINA TƏSİRİ

## 3.1. Qeyri-neft sektorunun inkişaf etdirilməsində banklarla əməkdaşlıq və bank kreditlərinin rolu

Ölkəmizdə sahibkarlığın, xüsusilə kiçik sahibkarlığın inkişafına və əhalinin məşğulluq vəziyyətinin yaxşılaşdırılmasına maliyyə yardımı göstərmək məqsədilə İqtisadi İnkişaf Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondu yaradılmışdır və bu fond vasitəsilə çoxsaylı bizneslər üçün müxtəlif kreditlər ayrılmaqla onların inkişafına yardım edilmişdir. "Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi qaydaları" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 13 oktyabr tarixli Sərəncamı ilə təkmilləşdirilmişdir. "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi qaydaları" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 13 oktyabr tarixli, Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi "Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri", kiçik kreditlərin həddi 50 min manata (müddəti 3 ilədək), orta ölçülü kredit limitinə isə 500 minə qədər manata (5 il), 10 milyon manata qədər (10 il) qədər müəyyən edilmişdir. Kreditlər üzrə güzəşt müddəti kreditin qüvvədə olma müddətinin ilk ½ dövrünü əhatə edir.

Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyətinin genişləndirilməsinə zəmanət vermək məqsədilə sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsinə yönəldilmiş və Azərbaycan iqtisadiyyatının prioritet problemlərini həll etmək üçün tələb olunan vəzifələr daha güzəştli kreditlərin daha məqsədəuyğun layihələrə yönəldilməsi üçün əlverişli şərait yaradılmışdır. 2002, 2004, 2005, 2006, 2009-cu illərdə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanları əsasında Fondun statusu və aktivlərinin istifadəsi qaydalarının təkmilləşdirilişdir.

Sahibkarlığa Kömək Milli Fondunun hesabına güzəştli maliyyələşdirilmiş mexanizmin tətbiqi ilə xarakterizə olunan sahibkarlığın dövlət maliyyələşdirilməsi mexanizmini kiçik və orta müəssisələrin maliyyə ehtiyacları üçün real mənbə kimi formalaşmışdır. Fondun aktivləri hesabına regionlarda istehsalın və emal

sahələrinin artırılması istiqamətində, o cümlədən turizmin inkişafına yönəldilmiş kreditlərin həcmində nisbətən artım müşahidə olunur. Qeyd olunan amilləri nəzərə alaraq, Sahibkarlığa Kömək Milli Fondunun əsas vəzifələri aşağıdakılardır:

- Sahibkarlıq subyektlərinin investisiya layihələrini qanunvericiliklə bağlı Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının prioritet istiqamətləri üzrə maliyyələşdirmək;
- Maliyyə bazarlarından resursları cəlb etmək və müvafiq kredit mənbələrinin formalaşdırılması üçün tədbirlər görmək;
- Sahibkarlıq subyektlərinin maliyyələşdirilməsinə verilmiş aktivlərin effektiv və məqsədyönlü istifadə edilməsi və bu məqsədlə monitorinqin aparılması qaydalarını müəyyən etmək;
- Ekspertizanın maliyyələşdirilmiş investisiya layihələrini həyata keçirmək, sahibkarlığın inkişafına yönəlmiş dövlət proqramlarından irəli gələn investisiya layihələrinin maliyyələşdirilməsini təşkil etmək;
- İnvestisiya layihələrinin qiymətləndirilməsini və güzəştli kreditlərin alınması üçün investisiya layihələrinin tərtib edilməsi üzrə minimum tələbləri müəyyənləşdirmək;
- Sahibkarlıq subyektləri üçün zəruri olan hüquqi, iqtisadi və digər məlumatların toplanmasına və yayılmasına, bazar konyunkturasının öyrənilməsinə, sahibkarlıq fəaliyyətinə aid proqramların və investisiya layihələrinin hazırlanmasına rəhbərlik etmək.

Azərbaycan sənayesinin əsası neft üzərində qurulmuşdur, lakin qeyri-neft sektorunun inkişafı üçün ayrılan kreditlər sayəsində qeyri-neft sənayesi üzrə ixrac həcmi ildən-ilə artmaqdadır. Lakin Azərbaycanın neft sektoru da öz inkişafında davam etməkdədir. Yüz ildən artıqdır ki, neft-qaz sektoru Azərbaycan iqtisadiyyatının mühüm hissəsidir. Amma dünya iqtisadiyyatı dəyişdikcə, Azərbaycanda da qeyri-neft sektoru getdikcə daha vacib rol oynayır. Hökumətin başlatdığı yeni sənaye siyasəti Azərbaycan iqtisadiyyatını şaxələndirmək, ölkəni neft və qaz gəlirlərinə daha az asılı etmək, özəl sektorun rolunu artırmaq və qeyri-

neft sektorunda davamlı inkişaf trendini yaratmaq məqsədi daşıyır. Son illərin yeni təşəbbüsləri bir sıra əhəmiyyətli nəticələr əldə etmişdir. Məsələn, son on il ərzində maşınqayırma sənayesi istehsalın 15 qat artmışdır və iqtisadiyyatın qeyri-neft sektorunda bu artım 21,5% təşkil etmişdir (www.stat.gov.az, 2018).

Enerji sektoru Azərbaycan iqtisadiyyatının ən böyük hissəsidir. Enerji sektoru ölkənin iqtisadi artımına böyük töhfə vermişdir. Bu sektor investisiyaların əsas alıcısıdır, xüsusilə də ÜTT və müasir texnologiyaların. Nəticədə, Azərbaycan ümumi enerji tələbatının 100% -ni yerli mənbələrdən təmin edə bilir. Ölkə energetika sektorunda xarici resurslardan asılı deyil. Azərbaycan neft, təbii qaz və elektrik enerjisi ixrac edir. Bununla yanaşı, Azərbaycan 2017-ci ildə Enerji İnkişaf İndeksi üzrə 36-cı yerdə qərarlaşmışdır. Bu, bir ölkənin enerji arxitekturasının iqtisadi artımını, enerji təchizatı və istehlakının ətraf mühitə təsirini və enerji tədarükünün təhlükəsiz, əlçatan və müxtəlif olmasını göstərən bir göstəricidir. Azərbaycanda enerji sektoru üç əsas elementdən ibarətdir: neft və qaz hasilatı, şərti elektrik enerjisi istehsalı və bərpa olunan enerjilərin istifadəsi.

Azərbaycan dünyanın ən böyük neft və qaz istehsalçılarından biridir. Dünyanın ən köklü neft istehsalçılarından biri olan Bakı şəhəri və Abşeron yarımadası uzun müddətdir ki, neft tarixinin beşiyi sayılır. Dünyada ilk neft quyusu 1847-ci ildə ABŞ-ın Pensilvaniya ştatındakı ilk quyudan 11 il əvvəl Bakının Bibiheybət qəsəbəsində qazılmışdır. 20-ci əsrin sonlarında Azərbaycan dünya neft istehsalında böyük rol oynamışdır. Ölkədəki ilk neft boru xətti, neft emalı zavodu, neft tankeri, dəmir yolu tankı  və dəniz platforması Azərbaycanın neft tarixinin bir hissəsidir. 1991-ci ildə Sovet İttifaqı dağıldıqdan və ölkəmiz müstəqilliyini əldə etdikdən sonra 1994-cü ildə "Əsrin müqaviləsi" nin imzalanması ilə Azərbaycan hökuməti tərəfindən uğurlu neft-qaz strategiyası həyata keçirilmişdir. Daha sonra "Şahdəniz" qaz yatağında 1996-cı ildə neft və qaz sektoruna çoxlu sərmayə axını müşahidə edilmişdir. 2013-cü ilin dekabrında 10 şirkətin konsorsiumu 1999-cu ildə aşkar edilmiş Şahdəniz yatağının işlənməsi üzrə müqavilə imzalamışdır. BU yataq dünyanın ən böyük qaz və kondensat yataqlarından biridir. Sözügedən layihənin operatoru British Petroleum (BP) -in

məlumatına görə, təbii qazın təxminən 40% hələ istifadə olunmamışdır. Layihə, Cənub enerji dəhlizinin inkişafı ilə, Azərbaycana və tərəfdaşlarına təxminən 50 milyard ABŞ dolları məbləğində gəlir qazandıracaqdır. Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi, Trans Anadolu Boru Kəməri (TANAP) və Transadriatik Boru Kəməri (TAP), Azərbaycana və dəhlizin digər iştirakçılarına 50 milyard ABŞ dolları həcmində sərmayə qoyacaqdır. Azərbaycan Avropanın əsas strateji enerji tərəfdaşıdır və yerli istehsalçılara öz məhsullarını və xidmətlərini çatdırmaq üçün imkanlar yaradacaqdır.

Azərbaycan enerji təhlükəsizliyini prioritet hesab edir. Hal-hazırda Azərbaycanda 13 istilik elektrik stansiyası, 11 hidroelektrik stansiya və 6 kiçik su elektrik stansiyası 7000 MV-dən yuxarı quraşdırılmış gücə malikdir. Yüksək gərginlikli elektrik ötürücü xətlərinin ümumi uzunluğu 7600 km-dən çoxdur. Elektrik enerjisi üçün geniş miqyaslı investisiya proqramı elektrik ötürücü xətlərinin, alt-stansiyaların və yeni elektrik stansiyalarının inşasına və yenidən qurulmasına gətirib çıxardı. Dövlətin "Azərenerji" ASC qurumu bütün yüksək gərginlikli elektrik ötürücü xəttlərə malikdir və həmçinin yüksək gərginlikli şəbəkənin dispetçerliyini nəzarət edir. Transmissiyanın gərginliyi 500 kV, 330 kV, 220 kV və 110 kV-dir. Azərbaycan Gürcüstan, Rusiya, İran və Türkiyə ilə elektrik enerjisinin idxal və ixracı sahəsində əməkdaşlıq edir. "Azərenerji" ASC bütün ölkə ərazisində elektrik enerjisi istehsal edir və nəql edir, "Azərişiq" ASC isə elektrik enerjisinin paylanması və satışı üçün məsuliyyət daşıyır.

Bütün bunlar Azərbaycanın ənənəvi iqtisadiyyatını xarakterizə edir. Son dövrlərdə ölkə rəhbərliyinin müəyyən etdiyi prioritetlər arasında isə qeyri-neft sənayesinin inkişaf etdirilməsi ön plana çıxır. Bu baxımdan bir neçə sahədəki inkişafdan bəhs etmək lazımdır.

Qlobal kontekstdə kənd təsərrüfatı sektorunun əhəmiyyəti inkar edilə bilməz. ÜST-nın məlumatına görə, əkinçilik istehsalının artmasına baxmayaraq, artan istehsal əhalinin tələbatını təmin edə bilmir. Buna görə, kənd təsərrüfatı sektoru Azərbaycan iqtisadiyyatının mühüm bir hissəsidir. 1995-2015-ci illərdə Azərbaycanda faktiki qiymətlərlə ümumi əkinçilik istehsalı 7,7 dəfə artmışdır.

Ümumdünya İstehsalat indeksi sayına görə, Azərbaycan qlobal göstəricilərə görə orta hesabla yuxarıdır. Kənd təsərrüfatı sektoru da Azərbaycanın ÜDM-də öz payını artırır. 2010-2015-ci illərdə kənd təsərrüfatı sektorunun payı 5,5% -dən 6,2% -ə qədər artıb.

Azərbaycan kənd təsərrüfatında təbii üstünlüklərə malikdir. Ölkə, nəmli subtropik iqlimdən yarım arktikədək dəyişən on bir iqlim zonasından 9-na malikdir. Kür çayı ölkəni bölür və Böyük Qafqaz, Kiçik Qafqaz və Talış dağlarının dağlıq bölgələrindən olan su və alüvit yataqları ilə bəslənir. Azərbaycan pambıq, çay, tütün və fındıq da daxil olmaqla, bir çox sahələrdə ixtisaslaşmışdır, nadir hallarda bitki yetişdirilməsi də aqrar təsərrüfatın əsasını təşkil edir. Azərbaycan çəhrayı üzüm və xurma kimi potensial qiymətli məhsullar istehsal edir. Bu məhsulların istehsalının yüz faiz hissəsi əkinçilik ərazilərinin üçdə birini (1,433 min ha) təşkil edən suvarma torpaqlarından asılıdır. Azərbaycan Rusiyanın ən böyük istehlakçı bazarları (dünyanın ən böyük alma alıcıları) və Yaxın Şərq ilə yanaşı, strateji mövqeyi Azərbaycana ixrac yönümlü istehsal üçün uyğunluq təşkil edən digər ölkələrlə də alış-veriş edir. Bu potensialı yerinə yetirmək üçün hökumət "Made in Azerbaijan" kampaniyası vasitəsilə Azərbaycan kənd təsərrüfatı məhsullarının qlobal profilini artırır. Azərbaycan kənd təsərrüfatı məhsullarının fermerləri, prosessorları və treyderləri üçün çoxsaylı təşviq proqramları təqdim edir. Vergi və gömrük istisnaları, subsidiyalar və endirimlər bura daxildir. Xüsusilə, onlar yanacaq və motor yağları, mineral gübrələr, buğda toxumu, mal-qara və bitki məhsullarının sığortalanmasını əhatə edir.

Hökumətin iqtisadiyyatı diversifikasiya etmək siyasətinə ərzaq emalı sənayesinin inkişafı da daxildir. 2005-2015-ci illərdə ərzaq məhsullarının istehsalı 2,3 dəfə, içki istehsalı isə 2,7 dəfə artmışdır (www.stat.gov.az, 2015). Azərbaycanda ərzaq emalı sənayesi dörd əsas seqmentdən ibarətdir: ət emalı, süd məhsulları istehsalı, içki istehsalı, meyvə və tərəvəz emalı və konservləşdirilməsi. 2016-cı ildə içkilərin ümumi istehsalı 3.4 milyon tondan çox olmuşdur. Bu sektor bir çox orta və böyük şirkətlərin qablaşdırma və pərakəndə satışının əsas proseslərini həyata keçirərkən, istehsalda məşğul olan çoxsaylı kiçik müəssisələrlə də xarakterizə

olunur. Azərbaycan MDB-nin 270 milyon istehlakçısı ilə sərbəst ticarət imkanına malikdir və İran və Yaxın Şərq kimi geniş ərazilərin "istifadə edilməmiş" bazarlarına çıxış üçün infrastrukturunu yaxşılaşdırmışdır. Yeyinti sənayesi bu bazarları təmin etmək üçün yaxşı yerləşmişdir. Hökumət beynəlxalq ixrac standartlarını yaxşılaşdırmaq üçün çalışır. Azərbaycan Beynəlxalq Standartlaşdırma Təşkilatının (İSO) üzvüdür. Azərbaycan ÜTT-yə üzv olmaq üçün hazırlıq prosesini davam etdirir və Avropa İttifaqı qaydalarına yaxınlaşdırmağı nəzərdə tutan Kodeks Alimentarius-a qoşulmuşdur. Bundan əlavə, keyfiyyət infrastrukturunun davamlı inkişafı ərzaq təhlükəsizliyi sisteminin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına gətirib çıxarmışdır. Yeni yaradılan Qida Təhlükəsizliyi üzrə Dövlət Agentliyi, Codex Alimentarius, o cümlədən beynəlxalq ərzaq təhlükəsizliyi standartlarının tətbiq olunması bu islahatlara daxildir.

Azərbaycan tekstil sənayesi, ipəyrimə və toxuculuq mədəniyyəti uzun bir tarixi kökə və ənənəyə malikdir. Bu, yüksək məhsuldarlığı olan etibarlı pambıq istehsalı üçün zəruri iqlim və torpaq şəraitinə malik olmaqla əlaqədardır və bu gün sənayenin pambıq, ipək və tut məhsullarına yönəldilməsi nəticəsində sözügedən sahə daha da inkişaf edir. Pambıqçılıq sahələri, ümumiyyətlə Kür çayının, Mil-Muğan və Şirvan ovaları, Salyan-Muğan ovaları, Mil-Qarabağ və Gəncə-Qazax bölgələrini əhatə edir. Azərbaycan toxuculuq sənayesinin inkişafı üçün zəruri olan pambıq və ipək istehsalının artırılması üçün böyük potensiala malikdir. 2016-cı ildə ölkəmiz demək olar ki, 90 min ton pambıq istehsal edib, 2015-ci illə müqayisədə istehsalını 2,5 dəfə artırıb. 2017-2022-ci illər əhatə edən Pambıq İstehsalının inkişafı üzrə yeni Dövlət Proqramı ilə pambıq istehsalının 2022-ci ilədək ildə 500 min tona çatdırılması gözlənilir. İpək Azərbaycanın 30 rayonunda daha bir prioritet istehsal sahəsidir. Dövlətin planı, 2025-ci ilə qədər istehsalı 6 min tona qədər artırmaqdır. Sektorun potensialını reallaşdırmaq üçün bir sıra əsas islahatlar həyata keçirilmişdir. Təşəbbüskarların və hökumətin əməkdaşlığını yaxşılaşdırmaq üçün Tekstil İstehsalçıları və İxracatçıları Birliyi yaradılmışdır. Azərbaycan Hökuməti istehsalın stimullaşdırılması üçün subsidiyalar və kreditlər paketini yaratmışdır. Hökumət bazarlara çıxışın yaxşılaşdırılması üçün beynəlxalq

standartlara cavab vermək üçün texniki istehsal standartlarını təkmilləşdirmək üçün çalışır. Bundan əlavə, Mingəçevir Sənaye Parkı tekstil sənayesində yeni istehsal imkanları yaratmaq üçün lazımi platforma və şərait yaradır (www.anfes.gov.az, 2017).

İKT (informasiya-kommunikasiya texnologiyaları) investorlar üçün iqtisadiyyatın ən cəlbedici və dinamik sahələrindən biridir. Artan gəlirlər baxımından ən sürətli böyüyən qeyri-neft sektor hesab olunur. İstehlakçıların sayı sürətlə artır. Azərbaycan yüksək texnologiyanın gələcək rifah üçün əsas töhfə olduğunu başa düşür. Texnologiyanın əsas istifadəçiləri olan gənc nəsilləri ruhlandırmaq üçün yüksək potensial mövcuddur. Azərbaycanda internetdən istifadə 75,5% təşkil edir. Hal-hazırda ölkədə dörd mobil operator var. Onlardan üçü 2G, 3G və 4G tezliklərdə mobil xidmət göstərir. Azərbaycanda 3G texnologiyası 2009-cu ildən fəaliyyət göstərir. Azərbaycan istehlakçıları 2012-ci ildən 4G texnologiyasından istifadə etməyə başlayıblar. 2015-ci ildən etibarən Azərbaycanda 23 televiziya stansiyası və 15 radio stansiyası mövcuddur. Hazırda ölkədə 39 telekommunikasiya xidməti müəssisəsi, 48 internet provayderi mövcuddur. İKT sektoru innovativ texnologiyaların Azərbaycana tətbiqinin əsasında dayanır. "ASAN" xidmət mərkəzləri korrupsiyanın azaldılması üçün Asiya İnkişaf Bankı tərəfindən də yüksək qiymətləndirilmiş dövlət xidmətlərinin göstərilməsi üçün "vahid pəncərə" əsasında xdmət göstərməklə, həmçinin, innovativ texnologiyaların da tətbiqinə öncüllük edir.

Azərbaycanda telekommunikasiya və informasiya texnologiyaları sektorunun inkişafı üçün strateji yol xəritəsi açıqlanmışdır. Sənəd Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmişdir. Yol xəritəsinə əsasən, informasiya-kommunikasiya texnologiyaları sektorunda 2025-ci ilə qədər olan müddətdə uzunmüddətli vizion yenilikçilikdir - bu sektorda islahatlar aparılmalıdır. Bu, müasir xidmətlərin əhatə dairəsini və tutumunu genişləndirəcək, genişzolaqlı şəbəkələrin əhatə dairəsini genişləndirməyə və ölkənin inkişafını beynəlxalq telekommunikasiya standartlarına uyğun təmin

etməyə və rəqəmsal informasiya sisteminin formalaşmasına nail olmaq üçün cəmiyyətin texniki savadlılığının səviyyəsini artırmağa imkan verəcəkdir.

Tikinti sektorunun orta müddətli perspektivləri ürəkaçan olmasa da, uzunmüddətli perspektivdə Azərbaycanda demoqrafik dəyişikliklər və tikinti layihələrində yeni texnologiyaların tətbiqi nəticəsində bu sahə də canlanacaqdır. Azərbaycanın davamlı, sürətli şəhərləşməsi sektorda əsas stimulyatordur. Şəhərlər böyüyür və bu, sözügedən sektorda artımı təmin edir. Tikinti işlərinin dəyəri 2016-cı ildə ÜDM-in 10,6% -ni təşkil edən 7 milyard manatdan çox olmuşdur. Son on ildə inşaatın sürətlə artması tikinti materiallarının istehsalının artmasına təkan verdi. 2006-2016-cı illər arasında faktiki qiymətlərlə tikinti materiallarının ümumi istehsalı 2 dəfədən çox artıb (www.anfes.gov.az, 2016).

Sektorda inkişafın növbəti mərhələsi yeni texnologiyaların tətbiq edilməsidir. Aİ texniki standartlarının tətbiqi sənayenin əsas inkişaf məqsədidir. 2012-ci ildə AB-nin maliyyələşdirdiyi İnnoqasiya layihəsi çərçivəsində Aİ-nin "Tikinti sektorunda Enerjiyə qənaət təşəbbüsü" layihəsi başlanıb. Böyük Britaniyanın BREEAM sistemi, davamlı bina üçün dizayn və qiymətləndirmə metodu getdikcə daha intensiv surətdə tətbiq olunur. Azərbaycan Respublikasında əlverişli yaşayış məntəqələrinin salınması üzrə strateji yol xəritəsində göstərilən hədəflərə əsasən, tikinti sektoru 2020-ci ilə qədər 900 milyon manatdan artıq sərmayə cəlb edəcək. Bu tikinti sektorunda əlavə 10 min iş yerini yaradacaqdır. Bununla yanaşı, tikinti materialları sahəsində yerli tələblərə olan tələbatı da artıracaqdır.

Yerli maşın və avadanlıqların istehsalına sərmayə imkanları artmışdır ki, idxal malları nəticədə bahalanmışdır. Eyni zamanda yerli neft və qaz maşınları (NQM) sektoru 150 ildən artıq təcrübəsi ilə inkişaf etməkdə davam edir. Bu gün NQM sektoru qonşu bazarlarda tələbatın ödənilməsi üçün ixrac potensialını artırır. Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırma sənayesinin strateji yol xəritəsinə əsasən, yüksək potensiala sahib olan aşağıdakı prioritet sahələr müəyyən edilmişdir: mədənçilik, metallurgiya, tikinti materiallarının istehsalı, neft-qaz sənayesi və kənd təsərrüfatı üçün maşınlar, elektrik avadanlıqları, maşın

sənayesində xidmətlər. Yol xəritəsinə əsasən, Azərbaycan müxtəlif məhsulların idxalını yerli məhsulların, məsələn, yerli istehsalın artımını azaldacaq. tikinti maşın və avadanlıqları, dağ-mədən avadanlıqları, nasoslar və kompressorlar, yükləmə avadanlığı, kənd təsərrüfatı maşınları və avadanlıqları, qida sənayesi avadanlığı, elektrik avadanlıqları və s. istehsal edəcəkdir. İstehsal yerli və xarici investorlara təklif olunan müxtəlif stimul motivi sxemləri ilə stimullaşdırılır.

İpək Yolu əsrlərdən bəri Azərbaycan ərazisindən keçərək Asiya və Avropa arasında ticarət mərkəzi və körpü rolu oynamışdır. Bu gün Avropa və Asiya arasında ticarət əlaqələri artdıqca, Azərbaycan Avropa və Asiyanın kəsişməsində nəqliyyat və logistika mərkəzi kimi inkişaf edir. Azərbaycan TRACECA-nin, Qafqaz vasitəsilə Avropadan Asiyaya nəqliyyat dəhlizinin yaradılması üzrə beynəlxalq proqramı reallaşdırır və bu proqram Avropa İttifaqı və Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiyanın 14 dövlətini əhatə edir. Onun daimi katibliyi Bakı şəhərində yerləşir. Trans-Xəzər Şərq-Qərb Dəhlizi Çin və Avropa arasındakı ən qısa əlaqədir. Dəhlizin orta uzunluğu 4,200 km təşkil edir və mümkün tranzit dövrü təxminən 12 ilə 14 gün arasındadır, bu, yük daşınmasının ənənəvi okean modeli ilə müqayisədə 70% vaxt qənaətinə imkan verir. Bununla yanaşı, bu marşrut Mərkəzi Asiyanın inkişaf etməkdə olan iqtisadiyyatı üçün Avropa bazarlarına çatmaq üçün geniş imkanlar yaradır. Bundan başqa, Azərbaycan hazırda Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasına dair öz tərəfdaşları ilə əməkdaşlıq edir. Nəzəri olaraq, hər iki dəhlizdən istifadə etməklə Azərbaycan təxminən 230 milyon ton əlavə ticarət həcmini cəlb edə bilər.

Logistika və ticarətin inkişafı üzrə strateji yol xəritəsinə əsasən, Azərbaycan 2025-ci ilə qədər strateji beynəlxalq logistika mərkəzi olacaqdır. Bunun üçün nəqliyyat infrastrukturuna, logistika və ticarətə əlavə investisiya cəlb edilməsi tələb olunur. 2020-ci ilə qədər cəlb ediləcək göstərilən sektorlara investisiyalar üçün proqnoz 3 milyard manatdan çoxdur. Strateji yol xəritəsi 2020-ci ilədək malların beynəlxalq tranzitində Azərbaycanın payına düşənləri bu cür sıralayır: Mərkəzi Asiya-Qara dəniz marşrutu - 40%, Mərkəzi Asiya-Avropa marşrutu - 25%, Çin-Avropa marşrutu - 3%, Rusiya-İran marşrutu - 40%, İran-Qara dəniz marşrutu -

25%. Azərbaycana bu potensialı strateji bir yer kimi təmin edə bilmək üçün nəqliyyat infrastrukturunun AB standartlarına uyğunlaşdırılması və bu artan qitələrarası trafiki təmin etmək üçün investisiya qoyulmuşdur. Nəqliyyat infrastrukturunun AB standartlarına yüksəldilməsi üçün əhəmiyyətli investisiyalar edilmişdir. Bunlara 10,185 km-lik inşa edilmiş və bərpa edilmiş yollar və magistral yollar daxildir; Trans-Avropa və Trans-Asiya dəmiryolu şəbəkələrini birləşdirmək üçün Bakı-Tbilisi-Qars dəmir yolu xətti; 10-11,5 milyon ton yük və 50 min TEU həcmində olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı (21-25 milyon ton yük və 1 milyon TEU qədər artırılacaq); Bakı Beynəlxalq Hava Limanında yerləşən yeni Heydər Əliyev terminalı, dövlət xidmətlərinin vəziyyəti və tranzit sərnişinlər üçün əhəmiyyətli potensialı, həmçinin yeni hava yük terminalı. Bundan əlavə, Azərbaycan strateji bazarlarda logistika mərkəzlərinin yaradılmasına sərmayə yatırır. İlk belə mərkəzi Qazaxıstanın Aktau şəhərində Azərbaycan məhsullarını Mərkəzi Asiya bazarına çıxarmaq məqsədi ilə yaradılmışdır. Azərbaycan hökuməti ölkənin tranzit potensialının daha da yaxşılaşdırılmasını yüksək prioritet elan etmişdir. Azərbaycan Respublikasının Tranzit yükdaşımaları üzrə Koordinasiya Şurası 2015-ci ildə öz ərazisindən keçən tranzit dəhlizlərinin rəqabətqabiliyyətliliyini və effektivliyini artırmaq, bu dəhlizlərə əlavə tranzit axınlarının cəlb edilməsi, nəqliyyatın keyfiyyətinin yaxşılaşdırılması, çatdırılmanın azaldılması məqsədi ilə yaradılmışdır ki, bu vasitə ilə vaxt və nəqliyyat xərcləri azaldılır və ya qənaət edilir (www.anfes.gov.az, 2015).

Bakıda keçirilmiş 1-ci Avropa Oyunları, 4-cü İslam Həmrəyliyi Oyunları və “Formula 1 Grand Prix 2016-2017” kimi beynəlxalq tədbirlər, Azərbaycanın beynəlxalq bir turizm profilinin qaldırır. Hökumətin əsas sektorlara yönəlmiş beynəlxalq biznes konfransları və tədbirlərin keçirilməsi siyasəti bu tendensiyanı davam etdirir. Nəticədə, TripAdvisor, Bakının “dünyanın Asiya regionu üzrə yüksəlişdə olan ən yaxşı 10 şəhəri arasında” olmasınıelan etdi. Azərbaycan hökuməti viza müraciətində bəzi əsas təkmilləşdirmələrə imza atdı. Nəticədə dünyanın əksər ölkələrindən olan turistlər online ASAN elektron viza sistemi vasitəsilə əvvəlcədən giriş vizası üçün müraciət edə bilərlər. Ümumiyyətlə, vizalar

3 iş günü ərzində sürətlə verilir. Bu, 2016-cı ildə Körfəz ölkələri, Yaxın Şərq və Avropadan gələn turistlərin 11% artması ilə turizm bumunu təşviq etmişdir. Azərbaycanla nəqliyyat əlaqələrinin yaxşılaşması nəticəsində Bakının şəhəri beynəlxalq mərkəzə çevrilmişdir. Dünya İqtisadi Forumu 2017-ci ildə Azərbaycanı Səyahət və Turizm Rəqabətqabiliyyətlilik İndeksi üzrə ən yaxşı inkişaf etmiş ölkə adlandırdı. Beynəlxalq idman, biznes və siyasi tədbirlərin özü ilə doğurduğu tələbatların təmin edilməsi üçün turizm və qonaqpərvərlik infrastrukturu sürətlə inkişaf edir. Azərbaycanda Four Seasons, Marriott, Pullman, Hilton, Excelsior, Rixos, Fairmont və s. kimi bir sıra yüksək səviyyəli beynəlxalq otel zəncirləri fəaliyyət göstərir. 2012-ci ildə Qusarda Şahdağ Qış-Yaz Turizm Kompleksi istifadəyə verilmişdir. Kompleksdə iki mehmanxana ("Şahdağ" və "Peak Palace"), ticarət mərkəzləri, restoran, kafe, oyun salonu, atçılıq, xizək və digər xidmətlər vardır. Beynəlxalq qonaqların miqdarını daim artıraraq, otel turizm sənayesinin inkişafı və əlaqəli xidmətlərə birbaşa investisiyanı stimullaşdırır. 2016-cı ildə investorlar üçün yeni təşviqat mexanizmi tətbiq edilmişdir. Dünya Turizm Təşkilatının məlumatına görə, Azərbaycan 2017-2027-ci illərdə səyahət və turizm üçün 2017-2027-ci illər üçün münsib ölkə elan edilmişdir (Travel & Tourism Economic Impact 2017: Azərbaycan). Turizm sənayesinin inkişafı üçün strateji yol xəritəsi sektoru inkişafın növbəti mərhələsinə cəlb etməkdir. Buraya beynəlxalq bazarda və Azərbaycanın milli dəyərlərinə əsaslanan turizmin təşviqi daxildir. Bundan əlavə, turizm kommunikasiya infrastrukturunda və beynəlxalq otel sertifikatlaşdırmalarında təkmilləşdirmələr də bu təşviqata daxildir. Bu, xidmət sənayesində təcrübəsi olan şirkətlərə, insan kapitalına və ölkədə praktiki nou-hauyaa investisiya imkanları yaratmağa imkan yaradacaq.

Maliyyə sektoru, sektorun sabitliyini və möhkəmliyini yaxşılaşdırmaq üçün tənzimləyici islahatlar aparır və qeyri-neft sektorunun inkişafına kömək edir. Bu məqsədlə Maliyyə Xidmətlərinin İnkişafı üzrə Strateji Yol xəritəsi şəffaflığın, müştəri mərkəzli xidmətlərin və rəqəmsallaşdırmanın inkişafı üçün müddəaları əhatə edir. Maliyyə Bazarlarına Nəzarət Palatası bank xidmətləri və sığorta daxil olmaqla, maliyyə xidmətlərinin sektorunu tənzimləyir. Sektor bankların

kapitallaşdırılmasını və sığorta şirkətlərinin sabitliyini artırmaq üçün islahatlar keçirir. Alternativ maliyyə formalarına tələbat sabit şəkildə artıb. Mikromaliyyə sektoru Azərbaycanda tez inkişaf etmişdir və alternativ maliyyə sektoru əhəmiyyətli artım sahəsi olan bir seqment olaraq qalır. Bu qeyri-bank maliyyə qurumları ÜDM-in 1% -dən artıqdır. Hökumət subyektləri, o cümlədən "Aqrarkredit" QSC, bank olmayan kredit təşkilatları və Sahibkarlığa Kömək Milli Fondunun dəstəyi ilə KOM-ları dəstəkləyir. Ticarət maliyyələşməsi və lizinq nisbətən yenidir, amma bu xidmətlərə tələbat artır, çünki Azərbaycan öz iqtisadiyyatını şaxələndirir. Bu isə sözügedən sahələrdə təcrübə keçən şirkətlər üçün imkan yaradır. Biznes planları və maliyyə hesabatlarına olan tələbatını ödəmək üçün maliyyə məsləhətləri də inkişaf etdirilir.

Sığorta sənayesi nisbətən yenidir, lakin əhalinin artan gəlirləri mövcud sığorta bazarının inkişafında mühüm rol oynayır. Sığorta bazarında artımın əsas stimulu icbari sığorta üzrə yeni tətbiq olunan qanundur. Bu, avtomobil və ipoteka kreditlərinin həcminin artdığına sübutdur, çünki bu kreditlərin sığortası artıq məcburidir. Azərbaycan bazarında 48 növ sığorta xidməti növü mövcuddur: 16-sı icbari sığorta, 32-i isə könüllü sığorta məhsullarıdır. Hazırda Azərbaycan bazarında 23 sığorta və təkrar sığorta şirkəti fəaliyyət göstərir. Yerli sığorta şirkətlərinin kapitallaşmasının aşağı səviyyədə olması sığorta bazarının inkişafına təsir edən ən böyük mənfi cəhətlərdən biridir. Bir çox sığorta şirkəti kapital artımı baxımından yerli banklardan asılıdır.

Azərbaycan Sumqayıt, Balaxanı, Mingəçevir, Pirallahı və Qaradağda beş sənaye parkları üçün infrastruktur yaradılır. Sənaye Parkları, cəlbedici təşviq və aşağı vergi siyasəti mexanizmi vasitəsilə əməliyyat xərclərini azaldır, daha asan gömrük prosedurları və vahid infrastruktur obyektlərini də şərtləndirir. Hazırda bu imkanlardan faydalanan 22 rezident müəssisə var: Sumqayıtda 10, Balaxanıda 7, Mingəçevirdə, Pirallahidə 3, Qaradağda 1 sənaye parkı.

Sumqayıt Kimya Sənaye Parkı (SKSP) 21 dekabr 2011-ci ildə yaradılıb və ümumi ərazisi 466,37 hektardır. Parkın missiyası kənd təsərrüfatı, tibb, istehlakçı, tikinti sənayesi, elektronika və avtomobil kimya, polimer və avadanlıqların

istehsalına sərmayə yatırmaqdır. Onun yeri Ələt dəniz limanının yaxınlığında yerləşir və Mərkəzi Asiya bazarlarına çıxışı vardır. Avropa bazarına çıxı. Bakı-Tiflis-Qars dəmiryolu vasitəsilə əldə edilə bilər. SKSP artıq 1,2 milyard ABŞ dolları olan investisiya layihələri ilə 10 rezident şirkətə ev sahibliyi edir (www.anfes.gov.az, 2012).

Balaxanı Sənaye Parkı 19 dekabr 2012-ci ildə qurulmuşdur. Parkın ərazisi 7 hektar ərazini əhatə edir. Parkın əsas məqsədi təkrar emal sənayesində investorlar üçün əlverişli şərait yaratmaqdır. Bu sənaye parkı Balaxanı çirkab suları və Tullantıların enerjisi zavodunun yaxınlığında parkın sakinlərinə xammal və enerji təchizatı ilə təmin olunmuşdur. Park artıq 15 milyon ABŞ dolları dəyərində investisiya cəlb etmişdir.

Mingəçevir Sənaye Parkı 2015-ci il fevralın 26-da yaradılıb. Parkın ərazisi 14,8 ha təşkil edir. Mingəçevir Sənaye Parkı tekstil, pambıq və dəri məmulatları istehsalı da daxil olmaqla, yüngül sənaye sahəsində fəaliyyət göstərən şirkətləri cəlb etmək niyyətindədir. Parkda ayaqqabı, iplik, boyama, toxuculuq, tibbi kosmetika və s. istehsalı sahəsində 9 investisiya layihəsi həyata keçirilir. Artıq cəlb edilən investisiyanın həcmi 46 milyon ABŞ dollarına çatır.

Pirallahi Sənaye Parkı 14 sentyabr 2016-cı ildə yaradılıb. Parkın ərazisi 30 hektar ərazini əhatə edir. Pirallahi Sənaye Parkı əczaçılıq sənayesində fəaliyyət göstərən şirkətlərə diqqət yetirir. Təxminən 100 milyon ABŞ dolları cəlb edilmiş investisiya dəyəri ilə üç layihə həyata keçirilir.

Qaradağ Sənaye Parkı 2015-ci il 03 iyun tarixində yaradılıb. Park, Bakı-Astara avtomobil yolunun və Qaradağ rayonunun yaxınlığında, Abşeron yarımadasının cənubunda salınmışdır. Ümumilikdə Qaradağ Sənaye Parkının ərazisinə 72 hektar torpaq ayrılıb. Park Xəzər dənizində ən müasir gəmiqayırma və gəmiqayırma müəssisəsi olan Bakı Gəmiqayırma Zavoduna ev sahibliyi edir. Cəlb edilən investisiya 470 milyon ABŞ dollarına çatır. Digər parklarda olduğu kimi hökumət də müəssisələrin parkda fəaliyyət göstərməsi üçün fiziki infrastrukturu inkişaf etdirir. Gəmiqayırma sənayesi üçün müasir istehsal üsulları və təcrübələrindən istifadə edərək, rəqabətqabiliyyətli məhsulların istehsalına

yönəldilmişdir.

Sənaye zonaları, KOM-lərin mal və xidmətlərin istehsalına və təklif etməyə imkan verən lazımi infrastrukturla təmin olunduğu sənaye birləşmələri təyin olunur. İqtisadiyyat Nazirliyi enerji, su, qaz, istilik, sanitariya, kommunikasiya, nəqliyyat, inzibati, sənaye və sosial sahələr daxil olmaqla, daxili və xarici infrastrukturu yaradır. Neftçala, Masallı və Hacıqabulda artıq üç sənaye zonası mövcuddur. Neftçala Sənaye Zonası 2015-ci ildə yaradılıb və 10 hektar ərazini əhatə edir. Bu zona avtomobil sənayesi, kənd təsərrüfatı avadanlıqları, balıq yemləri, kağız məhsulları, tikinti materialları və 45 milyon manatdan artıq məbləğdə ərzaq məhsulları ilə məşğul olan investisiya layihələri ilə fəaliyyət göstərir. Masallı Sənaye Zonası 2016-cı ildə yaradılıb və 10 hektar ərazini əhatə edir. Hazırda ərazidə tikinti işləri aparılır. Zonanın mebel istehsalı, tikinti materialları, avtomobil hissələri, qablaşdırma, yüngül sənaye və ərzaq məhsulları sahələrinə investisiya cəlb edilməsi nəzərdə tutulur. Son sənaye zonası 2017-ci ildə Hacıqabulda yaradılmışdır.

Azərbaycan höküməti aqrar sektorun inkişafı üçün əlverişli iqlim şərtləri ilə kənd təsərrüfatının inkişafı üçün prioritetlər arasında olan aqro-parkların yaradılmasını qərara almışdır. 2015-ci ildə Prezident İlham Əliyev Bərdədə Qarabağ Aqrar Sənaye Parkının açılışını etdi. Müəssisədə 5000 tonluq logistika mərkəzi, heyvandarlıq kompleksləri, ət kəsmə və emalı zavodu və yem bitkiləri anbarı vardır. Bu təşəbbüs nəticəsində Şəmkir və Xaçmazdakı aqro parklar da inkişaf etdiriləcəkdir.

Şəmkir Aqroparkı 604 hektar ərazini əhatə edir və buraya bir logistika mərkəzi, soyuducu anbar mərkəzi və meyvə-tərəvəz üçün kalibrləmə zalı daxildir. Bu qurğular kalibrləmə, qablaşdırma və etiketləmə sahəsində son texnologiyalardan istifadə edir. Yalama Aqroparkı Xaçmaz bölgəsində Yalama şəhərində 523 hektar torpaq sahəsi tutur. Müasir ağırlıqlı suvarma sistemi quraşdırılmışdır. Bu, 335 hektar bahar misini əkmək üçün münasibdir. Parkda 50 min kubmetr beton sulama kanalının tutumu olan su təchizatı vardır. Aqroparkda olan investorlar gəlir vergisindən və ƏDV-dən azaddırlar.

Azərbaycanda Yüksək Texnologiya Parkları yenilikçi və yeni texnologiyaların ticari inkişafı üçün işgüzar mühit yaradır. Bakıda və Mingəçevirdə yerləşən parklarda istedadlı mühəndislərin İKT, kosmik, enerji səmərəliliyi və yeni texnologiyaların kommersiya cəhətdən fəaliyyət göstərən biznes sahələrində tədqiqat aparması üçün zəruri infrastruktur və logistika planı inkişaf etdirilir. Parkda fəaliyyət göstərən şirkətlər 7 il müddətinə heç bir mənfəət vergisi, texnoloji parkda torpaq sahəsinə görə torpaq vergisi, istehsal obyektlərində və ya tədqiqat və inkişafda istifadə edilməyən avadanlığın istifadəsi üçün ƏDV ödəməyəcəklər və bu isə özlüyündə istehsalı stimullaşdıracaq və sərmayəçiləri həvəsləndirəcək.

## 3.2. Qeyri-neft sektorunun inkişaf etdirilməsində bank kreditlərinin təsirinin gələcək perspektivləri

Azərbaycan iqtisadiyyatı keçən onilliklər ərzində görülməmiş uğurlar qazanmışdır. Ölkəmizin əlverişli coğrafi mövqeyi və malik olduğu təbii resurslar onu yeni minilliyin əvvəllərində dünyanın iqtisadi cəhətdən qüdrətli dövlətlərindən birinə çevirmişdir. Son illərə qədər iqtisadiyyatdakı neft təmərküzçülüyünün azaldılması və milli iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən işlər olduqca mütərəqqi nəticələr verməkdədir və burada əsas diqqət qeyri-neft sektorunun, ölkənin mövcud potensialı nəzərə alınaraq, daha çox məhz sənayenin inkişafına yönəldilmişdir. Azərbaycan dünyanın bir çox ölkələrinə öz çoxçeşidli sənaye məhsullarını ixrac edir və ixracdan gələn gəlir ildən-ilə artmaqdadır. Ölkə prezidentinin yürütdüyü məqsədyönlü siyasət nəticəsində Azərbaycan post-neft dövrünü uğurla qarılayır və iqtisadiyyatda diversifikasiyaya gedir. Bu zaman lazımi vəsaitlərin alınması və sektorun ümumilikdə davamlı inkişafının təmin edilməsi üçün maliyyə mənbələrinə ethiyac yaranır. Azərbaycan dövləti istər kiçik, istər orta sahibkar olsun, sənaye sektorunda fəaliyyət göstərən bütün vətəndaşlarının yanındadır və onlara güzəştli kreditlər, subsidiyalar ayırmaqla bizneslərinin inkişafına rəvac verir. Kiçik bizneslər ölkənin ümumi iqtisadi mənzərəsini dəyişmək iqtidarındadır və bu səbəbdən sözügedən sahənin inkişaf

etdirilməsi üçün bank kreditlərinin rolu danılmazdır. Dövlət tərəfindən Sahibkarlığa Kömək Milli Fondu başda olmaqla, bir çox subyektlər vasitəsilə biznesin (qeyri-neft sənayesinin) inkişafına çoxlu sayda kreditlər ayrılmışdır və bu tendensiyanın yaxın gələcəkdə də birmənalı şəkildə davam etdirilməsi planlaşdırılır. Bu təkan nəticəsində Azərbaycanın qeyri-neft sektorunun mənzərəsi son illərdə tamamilə müsbətə doğru dəyişmişdir.

Keçən ilin statistikasına əsasən, 2018-ci ilin yanvar-iyun ayları ərzində iqtisadiyyatın qeyri-neft sektorunda 20637.0 milyon manatlıq əlavə dəyər yaradılmış və ümumilikdə onun 52.6%-i sosial və digər xidmətlər, ticarət, nəqliyyat vasitələrinin təmiri və tikinti sahələrinin payına düşmüşdür

**Qrafik 2. Ölkənin qeyri-neft sənayesi üzrə bölgü (2018)**




**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** www.economy.gov.az

2018-ci ilin yanvar-iyun aylarında ölkə iqtisadiyyatının qeyri-neft sektorunda yaradılan əlavə dəyərlər 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2% artmışdır. Qeyri-neft sektorunda yaradılan əlavə dəyərin ÜDM-də xüsusi çəkisi isə 55.8% təşkil etmişdir. Qeyri-neft sektorunun alt sahələri üzrə ÜDM-ə daha çox töhfə verən sahələr isə nəqliyyat və anbar təsərrüfatı, tikinti, ticarət və nəqliyyat vasitələrinin təmiri sahələri olmuşdur.

Qeyri-neft sektorunun əksər sahələrində yaradılan əlavə dəyərin artma tempi

əvvəlki ilin müvafiq dövrünə nisbətdə yüksək olmuşdur. 2017-ci ilin müvafiq dövrünə nisbətən kənd, meşə və balıqçılıq təsərrüfatları sahəsində 7.7%, ticarət və nəqliyat vasitələrinin təmiri sahəsində 2.5%, nəqliyyat və anbar təsərrüfatı sahəsində 7.2%, turistlərin yerləşdirilməsi və ictimai iaaşə sahəsində 7.4%, informasiya və rabitə sahəsində 4.9%, sosial və digər xidmətlər sahəsində isə 0.6% artım qeydə alınmışdır.

2018-ci ilin I yarımili ərzində qeyri-neft sənayesində yaradılmış əlavə dəyərin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11.2% artaraq 1726.6 mln. manata çatmışdır. Hesabat dövründə yaradılmış ÜDM-də qeyri-neft sənayesi xüsusi çəkisi 4.8%, qeyri-neft sektorunda yaradılmış əlavə dəyərdə qeyri-neft sənayesinin xüsusi çəkisi isə 8.4% təşkil etməklə, sənayedə yaradılan əlavə dəyəri üzrə qeyri-neft sənayesinin payı 9.9%-a çatmışdır.

Qeyri-neft sənayesində yaradılmış əlavə dəyərin sturukturunda mədənçıxarma sənayesinin xüsusi çəkisi 3.1%, emal sənayesinin xüsusi çəkisi 72%, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatının xüsusi çəkisi 21.5%, su təchizatı, tullantıların təmizlənməsinin xüsusi çəkisi isə 3.4% təşkil etmişdir. 2018-ci ilin I yarımilində qeyri-neft sənayesində 5166.3 mln. manatlıq məhsul istehsal edilmiş və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə məhsul istehsalı 8.9% artmışdır.

Qeyri-neft sənayesinin məhsul istehsalında mədənçıxarma sənayesinin payı 4% və ya 157.2 milyon manat, emal sənayesinin payı 75.7% və ya 3906.5 mln. manat, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatının payı 18.5% və ya 944.0 mln. manat, su təchizatı, tullantıların təmizlənməsinin payı 2.9% və ya 147.6 mln. manat təşkil etmişdir (Qrafik 3).

Azərbaycanda qeyri-neft sənayesi iqtisadi inkişaf strategiyasının əsas hədəflərindən biri hesab olunur. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr tarixli 548 nömrəli Fərmanı ilə yaradılan Sumqayıt Kimya Sənaye Parkında 17 müəssisə resident olaraq qeydiyyatdan keçmişdir. Artıq 7 müəssisə fəaliyyətə başlamışdır və daha 7 müəssisənin də yaxın zamanlarda fəaliyyətə başlaması planlaşdırılır.

**Qrafik 3. Qeyri-neft sənayesinin məhsul istehsalının bölgüsü (2018)**




**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** www.economy.gov.az

Neftçala Sənaye Məhəlləsində 8 müəssisə və 1 kiçik sahibkarlıq emalatxanası fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin iştirakları lə martın 29-da keçirilmiş Azərbaycan-İran biznes forumunun çərçivəsində Neftçala Sənaye Məhəlləsində “Azər-maş” ASC və “İran-Khodro” şirkətlərinin birgə yaratdığı “Khazar” Avtomobil Zavodunun açılışı keçirilmişdir. Zavodda İran İslam Respublikasından başqa Almaniya, İtaliya, Belçika, Fransa kimi aparıcı Avropa ölkələrinin müasir və innovativ texnologiya, avadanlıq və mexanizmləri əsasında “SKD 0” (qaynaqlama-rəngləmə işləri istisna olmaqla, avtomobillərin bir ölkə ərazisində ayrı-ayrı hissələrdən yığılaraq bütöv istehsalı) prinsipi ilə müxtəlif modellərdən olan avtomobillər istehsal edilməkdədir. Zavodda istehsal olunan avtomobillər “AVRO-5” və qəbul edilmiş digər beynəlxalq təhlükəsizlik standartlarına tam cavab verir. Masallı Sənaye Məhəlləsində tikinti işləri başa çatdırılmış, Hacıqabul Sənaye Məhəlləsində tikinti işlərinə başlanılmış, Sabirabad Sənaye Məhəlləsinin tikintisinin aparılması məqsədi ilə qanunvericiliyin tələbinə uyğun seçilmiş layihənin isə layihə-smeta sənədlərinin hazırlanması tamamlanmaq üzrədir.

Ölkədə iqtisadi fəallığın artırılması, ixracayönümlü məhsullar istehsalının dəstəklənməsi, investisiyaların cəlbinin stimullaşdırılması məqsədi ilə 2018-ci ilin I yarımili üzrə 44 sahibkarlıq subyektinə 56 investisiya təşviqi sənədi təqdim olunmuşdur. İnvestisiya təşviqatı sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnika, texnoloji avadanlıqlar və qurğuların idxalı üçün 110 mln. ABŞ dolları dəyərində 451 təsdiqedici sənəd verilmiş və sahibkarlar tərəfindən 28 mln. ABŞ dolları güzəşt əldə edilmişdir. Sözügedən layihələrin reallaşması nəticəsində yerli istehsalata 479.8 mln. manat investisiyanın yatırılması və 3567 yeni iş yeri açılması nəzərdə tutulur.

2018-ci ilin I yarımili ərzində Naxçıvan Muxtar Respublikasında Təmizləyici Qurğular Kompleksi, Bakıda Yüksəkgərginlikli avadanlıq zavodu, 110/30/10 kilovoltluq “Yasamal” və “Qobu”, 35/10-5 kilovoltluq 120 saylı elektrik yarımstansiyaları, Bakı Beynəlxalq Dəniz Ticarət Liman Kompleksi, Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin yeni tədris binası, Mingəçevir şəhərində isə Mingəçevir Sənaye Parkında “Mingəçevir Tekstil” MMC-nin iplik istehsal üzrə iki müəssisəsi, Goranboy rayonunda “Regional Aqropark”, Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci hissəsi, 110/30/10 kilovoltluq “Dəliməmədli” elektrik yarımstansiyası, Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpaut avtomobil yolu, Xaçmaz rayonunda “Azər-Xalça” ASC-nin Xaçmaz filialı, Neftçala rayonunda Neftçala Sənaye Məhəlləsi ərazisində “Xəzər” avtomobil zavodu və s. obyektlər istifadəyə verilmişdir.

Qeyri-neft sektoru üzrə davamlı inkişaf, ölkə iqtisadiyyatında ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyətli məhsul istehsalının artırılması, məşğulluğun təmin edilməsi kimi mühüm məsələlərin inkişafını stimullaşdıracaq istiqamətində həyata keçirilən tədbirlər gələcəkdə davam etdiriləcək.

İqtisadiyyatın aparıcı sahələrindən biri olan aqrar sektorun innovativ şəkildə inkişafını təmin etmək məqsədi ilə aqroparkların yaradılması da xüsusi əhəmiyyət kəsb edir. Artıq Xaçmaz, Şəmkir, Cəlilabad və Goranboy rayonlarındkı aqroparklarda 1-ci mərhələ üzrə işlər başa çatdırılmışdır. Bundan əlavə, ümumi dəyəri 1 mlrd. manatdan çox olan və 30 rayon üzrə 192 min hektar ərazini

əhatələyən 45 aqroparkın yaradılması üzrə işlər yüksək intensivliklə davam etdirilir. Aqroparklarda zəruri infrastrukturun yaradılmasına 207 mln. manat dövlət əsaslı vəsait qoyulmuş, 112 mln. manat dövlətin güzəştli krediti, dəyəri 565 mln. manat olan 25 layihəyə investisiya təşviq sənədi verilmişdir.

2018-ci ilin I yarımilinin sonuna olan məlumata əsasən, layihələrin ümumi dəyəri 468 mln. manat olan 612 sahibkara geri qaytarılan vəsaitlər hesabına 100 mln. manat (həmçinin, 560 kiçik həcmli layihəyə 6.5 mln. manat) güzəştli kredit verilmişdir ki, bu da ötən ilin müvafiq dövrilə müqayisədə 1.7 dəfə çoxdur. Bu kreditlər hesabına 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3 dəfə çox olmaqla 7 mindən çox yeni iş yeri açmaq imkanı yaranmışdır. Sözügedən kreditlərin 72%-i regionların, 28%-i isə Bakı şəhəri və ətraf qəsəbələrinin, 68%-i ümumilikdə aqrar sektorun, 32%-i isə digə müxtəlif sənaye sahələrinin payına düşür.

DSK-nın məlumatına əsasən, 2018-ci ilin I yarısında ölkənin iqtisadi və sosial sahələrinin inkişaf etdirilməsi üçün bütün maliyə mənbələrindən əsas kapitala 6332.7 mln. manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 14.2 faiz az vəsait yönəldilmişdir. Bu azalma özlüyündə neft sektoruna yatırılmış investisiyaların azalmasilə bağlı olmuş, qeyri-neft sektoruna yönəldilmiş vəsaitin ümumi həcmi isə 22.5 faiz, o cümlədən qeyri-neft sənayesi üzrə qoyulmuş investisiyalar 73.8 faiz artmışdır. İstifadə olunan vəsaitin 4556.2 mln. manatı və ya 73.0 faizi məhsul istehsal obyektlərinin, 1313.7 mln. manatı (20.8 faizi) xidməti sahələri üzrə obyektlərin, 473.8 mln. manatı (7.5 faizi) ümumi sahəsi 946.5 min kvadrat metr olan yaşayış evlərinin inşasına sərf olunmuşdur (www.stat.gov.az, 2018).

Ümumi sərmayənin 49.9 faizi dövlət, 50.1 faizi qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulmuşdur. Əsas kapital üzrə yönəldilmiş vəsaitlərin 73 faizi tikinti və quraşdırma işlərinə sərf edilmişdir. Daxili mənbələrdən əsas kapitala yönəldilən vəsaitin dəyəri ümumsərmayənin 54.4 faizini təşkil etmişdir.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2018-ci ilin I yarmili ərzində nəqliyyat sektorunda fəaliyyət göstərən təsərüfat subyektləri tərəfindən 111.2 mln. ton yük daşınmış və 2017-ci ilin sözügedən dövrünə nisbətdə 2 faiz artım müşahidə olunmuşdur. Yüklərin 4 faizi dəniz, 6.2 faizi dəmiryolu, 0.2 faizi

hava, 64 faizi avtomobil nəqliyyatı, 26.1 faizi isə boru kəmərləri ilə daşınmışdır. Şimal-Cənub nəqliyat dəhlizi vasitəsilə dəmiryolu ilə daşınan ümumi yükün həcmi cari ilin may ayında ötən ilin analoji dövrülə nisbətdə 76 min ton artmışdır. Bu dövrdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanında aşırılan əsas yüklərin həcmi əvvəlki ilin analoji dövrü ilə müqayisədə 8 faiz artmış, ümumilikdə ölkə ərazisindən daşınan tranzit xarakterli qeyri-neft məhsulları müvafiq surətdə 9 faiz artaraq 806 min ton təşkil etmişdir.

Beləliklə, qeyri-neft sənayesinin stimullaşdırılmasında və inkişafının davamlı olmasında dövlət tərəfindən ayrılan kreditlər müstəsna əhəmiyyətə malikdir və sənayenin inkişafı üçün maliyyə mənbələrinin çoxalması və diversifikasiyası özlüyündə bazar münasibətləri əsasında iqtisadi inkişafın stimulyatoru rolunu oynamaqdadır.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dissertasiya işində Azərbaycanda qeyri-neft sektorunun inkişafının mövcud durumu və qeyri-neft sektorunun davamlı və dayanıqlı inkişafı üçün maliyyə qurumları ilə əməkdaşlıq, habelə, sənayenin inkişafında bank kreditlərinin rolununun araşdırılması nəticəsində aşağıdakı nəticələrə gəlinmişdir:

1. Milli iqtisadiyyatımızın strukturuna təbii və coğrafi amillər, əmək ehtiyatları, elmi-texniki tərəqqi, nəqliyyat infrastrukturu, ərazi üzrə istehsalın yerləşdirilməsi xarakteri, xarici amillər və nəhayət, dövlət siyasəti təsir göstərir. Bütün bu amillər isə qaçınılmaz olaraq bir-birilə qarşılıqlı əlaqəddədir. Bu amillərin milli iqtisadiyyatın strukturuna ümumilikdə təsir dərəcəsi ölkə və ayrı-ayrı iqtisadi rayonların məhsuldar qüvvələrinin inkişaf səviyələrindən, ayrı-ayrı sahələrin iqtisadi xüsusiyyətləri, həmçinin, yerləşdirilmə siyasətində dəyişikliklərin nəzərdə tutulduğu dövrün konkret və cari şəraitindən asılıdır.

2. Qeyri-neft sektorunun inkişafında dövlət başlıca subyekt olaraq qalsa da, onun rolu mütləq dominantlıq və ya inhisarçılıq həddinə çatmamalıdır, belə ki, liberal cəmiyyətlərdə və bazar iqtisadiyyatına malik ölkələrdə dövlətin iqtisadiyyatın inkişafındakı rolu minimalizə edilərək "köməkçi" funksiyasına endilir. Azərbaycanda qeyri-neft sənayesinin inkişaf tempi hələ yeni-yeni yüksəldiyi üçün bir müddət dövlətin güclü təsirinə ehtiyac var, lakin bu ilkin ehtiyac sonrakı asılılığa çevrilməməlidir, çünki əksi təqdirdə sənayenin inkişafında müstəqil subyektlərin bazar maraqları getdikcə azalar və rəqabətin azalması sektorun zəifləməsinə gətirib çıxara bilər.

3. Milli iqtisadiyyatın inkişafının sırf məhsul istehsalından asıllılığı iqtisadi inkişafın daynanıqlılığı baxımından ciddi risklər doğurur və bu, olduqca təhlükəli bir tendensiyadır. Belə ki, neft hasilatı sahəsinin üstünlük təşkil etdiyi ölkələrdə sosial-iqtisadi vəziyyət neftin dünya bazarındakı qiymətindən asılı olur, bu isə sosial böhranları qaçınılmaz edir. Neftin qiymətinin dəyişkən olması milli iqtisadiyyatda da şok effektlərinin yaranmasına gətirib çıxarır. Bu cür halların qarşısının alınması üçün iqtisadiyyatın diversifikasiyası olduqca vacib bir faktordur.

4. “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası fundamental sənədində məqsədyönümlü şəkildə iqtisadi strukturun təkmilləşdirilməsi əsas vəzifələrdən biri kimi müəyyələşdirilmişdir. Bu konsepsiyaya əsasən, neft-qaz sektoru və neft-kimya sənayesinin modernizasiyası, qeyri-neft sənayesinin inkişafının şaxələndirilməsi, alternativ və bərpa olunan enerji qaynaqlarından istifadə imkanlarının artırılması, aqrar sektorun inkişaf etdirilməsi və ərzaq təhlükəsizliyinin gücləndirilməsi, ticarət, xidmət fəaliyyət növlərinin genişləndirilməsi, xarici ticarət və investisiya strukturunun təkmilləşdirilməsi və s. kimi məqsədlər əsas prioritet istiqamətlər hesab olunur.

5. Azərbaycan dünyanın bir çox ölkələrinə öz çoxçeşidli və çoxaxəli sənaye məhsullarını ixrac edir və ixracatdan gələn gəlir ildən-ilə artmaqdadır. Ölkə Prezidentinin yürütdüyü məqsədyönlü siyasət nəticəsində Azərbaycan post-neft dövrünü uğurla qarşılayır və iqtisadiyyatda diversifikasiya gedir. Bu zaman lazımi vəsaitlərin alınması və sektorun ümumilikdə davamlı inkişafının təmin edilməsi üçün maliyyə mənbələrinə ethiyac vardır. Azərbaycan dövləti istər kiçik, istər orta sahibkar olsun, sənaye sektorunda fəaliyyət göstərən bütün vətəndaşların yanındadır və onlara güzəştli kreditlər və subsidiyalar ayırmaqla bizneslərinin inkişafına rəvac verir. Kiçik bizneslər ölkənin ümumi iqtisadi mənzərəsini dəyişmək iqtidarındadırlar və bu səbəbdən sözügedən sahənin inkişaf etdirilməsi üçün bank kreditlərinin rolu da danılmazdır. Dövlət tərəfindən Sahibkarlığa Kömək Milli Fondu (SKMF) başda olmaqla, bir çox subyektlər vasitəsilə biznesin (qeyri-neft sənayesinin) inkişafına çoxlu sayda kreditlər ayrılmışdı və bu sözügedən tendensiyanın yaxın gələcəkdə də birmənalı şəkildə davam etdirilməsi planlaşdırılır. Bu təkan nəticəsində Azərbaycanın qeyri-neft sektorunun mənzərəsi son illərdə tamamilə müsbətə doğru dəyişmişəcəkdir.

Dissertasiya işin nəticələrinə istinad edərək aşağıdakı təklifləri irəli sürmək mümkündür:

1. Azərbaycanda qeyri-neft sektorunun inkişafını təmin etmək üçün lazımi struktur, institusional-mədəni əsasların təkmilləşdirilməsi, yəni əmtəə və pul bazarlarının inkişaf etdirilməsi, qeyri-neft sahələri üzrə zəruri ixtisaslardan olan

mütəxəssislərin hazırlanması və ya cəlb olunması, sahibkarlıq təbəqəsi, səmərəli inzibati-idarəetmə sistemi və s.-in formalaşdırılması istiqamətində tədbirlər davam etdirilməlidir.

2. Milli iqtisadiyyatda qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün maliyyə qaynaqlarının bir mərkəzdən gəlməməsi və bankların bu prosesdə fəal iştirak etməsi vacibdir. Dövlət və banklar tərəfindən sənayenin inkişafı üçün müntəzəm surətdə güzəştli və sərfəli kreditlərin ayrılması sənayenin inkişafını stimullaşdırır və bazara yeni daxil olan sahibkarlar üçün lazımi maliyyə qaynağını təmin edir, beləliklə, həm ölkənin maliyyə bazarında, həm də sənaye sektorunda canlanma müşahidə olunur və bunlar birlikdə qeyri-neft sənayesinin inkiafını şərtləndirir.

3. Qeyri-neft sektorunun inkişafı sahəsində dövlət siyasətinin istiqamətlərindən biri qeyri-neft sektorunda investisiya qoyuluşlarının maliyyələşdirilməsi üçün əlverişli şəraitin yaradılması hesab olunur. Vaxtilə qeyri-neft sektorunun inkişafına mane olan amillərdən biri kimi ölkədə kredit faizlərinin dərəcələrin olduqca yüksək olması göstərilirdi ki, bu gün artıq atılan müsbət addımlar və dövlətin birmənalı müdaxiləsi prosesi yaxşıya doğru dəyişir. Yaxın gələcəkdə maliyyələşmə mənbələrinin genişləndirilməsi, çoxaldılması və kreditlərin faiz dərəcələrinin daha da aşağı salınması qeyri-neft sektorunun inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edəcəkdir. Ölkədə qeyri-neft sektorunun inkişaf etdirilməsinin güzəştli kreditlərin hesabına maliyyələşməsinin genişləndirilməsi tendensiyası davam mütləq şəkildə etdirilməlidir.

4. Beləliklə, sözügedən tədbirlərin icra olunması və maliyyələşmə qaynaqlarının genişləndirilməsi hesabına ölkəmizdə qeyri-neft sektorunun, əsasən də, sənayenin daha da inkişaf etdirilməsi üçün tamamilə əlverişli şərait mövcuddur. Bu baxımdan banklar və dövlət tərəfindən ayrılan güzəştli kreditlərin sektorun inkişafındakı rolu danılmazdır və bu müsbət tendensiyanın yaxın gələcəkdə də davam etdirilməsi nəticəsində Azərbaycan iqtisadiyyatında neftdən asılılığın əhəmiyyətli dərəcədə azaldılması və iqtisadiyyatın çoxşaxəli diversifikasiyasına nail olunması planlaşdırılır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində

1. Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası. Azərbaycan Republikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir
2. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
3. Azərbaycan Respublikasının 2014-cü il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri. Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi. Bakı, 2013
4. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası. AR Prezidentinin 2007-ci il 23 may tarixli, 2148 nömrəli Sərəncamı ilə təsdiq olunub. Bakı, 2007.
5. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 16 mart tarixli " Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" sərəncamı.
6. Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2010-ci il 6 aprel tarixli sərəncamı ilə təsdiq edilmişdir.
7. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı .(2002-2005-ci illər)Azərbaycan Respublikasi Prezidentinin 2002-ci il 17 avqust tarixli, 753 nömrəli fərmanı ilə təsdiq edilmişdir.
8. Azərbaycan Respublikasında 2014-cü ilin "Sənaye ili" elan edilməsi haqqında AR Prezidentinin Sərəncamı, 10 yanvar 2014-cü il, Bakı
9. Azərbaycan Respublikasında 2008-2015-ci illərdə yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət proqramı. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli, 3043 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

10. Azərbaycan Respublikasının 2011-2013-cü illər üçün qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasına dair tədbirlər planı. AR Nazirlər Kabinetinin Sərəncamı №40, 8 fevral 2011-ci il, Bakı.

11. Alahverdiyev H.,Qafarov K.,Əhmədov Ə. "Milli iqtisadiyyatın dövlət tənzimlənməsi" Bakı – 2007.

12. Aslanlı K., İsmayıl Z., Ağayev R., Mehtiyev A. İqtisadiyyatın və ixracın diversifikasiyasının qiymətləndirilməsi. Gəlirləri İzləmə İnstitutunun (ABŞ) dəstəyi ilə. Azad İqtisadiyyata Yardım İB. Bakı, 2013.

13. Aslanzadə İ. A. Dövlət innovasiya siyasətinin formalaşdırılması və sənaye sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri. İ. e. d. dissertasiyasının Avtoreferatı. AMEA, İqtisadiyyat İnstitutu. Bakı, 2013.

14. Atakişiyev M.C. Azərbaycan 2020: milli iqtisadi inkişaf və səmərəli yüksəlişin problemləri// Azərbaycanın vergi jurnalı, № 4, 2012. C135-146.

15. Əhmədov B.S. Milli iqtisadiyyatda investisiya qərarlarının qəbulu mexanizmi və ona təsir edən amillər / "İqtisad elmləri: nəzəriyyə və praktika" jurnalı, № 2, 2010.

16. Əhmədov M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı, Azərnəşr, 2003.

17. "Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı (2008—2015-ci illər üzrə)" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli,3004 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

18. Ələkbərov Ə.Ə. Sosial-iqtisadi inkişafın maliyyə-büdcə parametrlərinin tənzimlənməsi (Monoqrafiya). Bakı, "Elm", 2007.

19. Həsənov R. İqtisadi siyasət: metodologiya və praktika. Dərs vəsaiti. Bakı,"İqtisad Universiteti" Nəşriyyatı, 2009.

20. Mehdiyev M.M.. Rəqabətqabiliyyətlilik anlayışı və onun qiymətləndirilməsinin nəzəri metodoloji məsələləri// AMEA İqtisadiyyat İnstitutu. Elmi Əsərlər, 4, 2013

21. Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli Strategiya. Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2004-cü il tarixli 128 nömrəli Fərmanı ilə təsdiq edilmişdir

22. Quliyev R.,Seçkin G. İqtisadi klasterlərin əsas xüsusiyyətləri // AMEA İqtisadiyyat İnstitutu. Elmi əsərlər. 2/2014

23. Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 2014-cü il

24. Sənaye parkları haqqında Nümunəvi Əsasnamə. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli 865 nömrəli Fərmanı ilə təsdiq edilmişdir

25. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər (monoqrafiya). Bakı: "İqtisad Universiteti", 2009

26. Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli Fərmanı ilə təsdiq edilmişdir.

27. Zöhrab İsmayıl, Azər Mehtiyev, Kənan Aslanlı,Rövşən Ağayev. İqtisadiyyatın və ixracın diversifikasiyasının qiymətləndirilməsi, Azad İqtisadiyyaya Yardım İctimai Birliyi 2013

**Xarici dildə**

1. Андрианов В. Конкурентоспособность России в мировой экономике // Мировая экономика и международные отношения. 7, 2000

2. Андрианов В. Конкурентоспособность России в мировой экономике // Экономист.10. 1997

3. Воронов А.А. Конкуренция в XXI веке // Маркетинг. 2001

4. Дубинин С.К. Все дальше на «Дальний Запад». М.: Мысль, 1990

5. Емельянов С.В. США: международная конкурентоспособность национальной промышленности. 90-е годы XX века. М.: «Международные отношения», 2001

6. Кормнов Ю. Ориентация экономики на конкурентоспособность // Экономист, 1, 1997

7. Логинова В. А. Теоретические аспекты конкурентоспособности экономических систем. //Проблемы современной экономики,2011, № 1
8. Новая индустриализация как условие формирования инновационной модели развития российской экономики.Научный доклад.Москва, 2013
9. Основы внешнеэкономических знаний / Под ред. И.П. Фаминского. М.:Международные отношения, 1994
10. Портер М. Е. Конкурентное преимущество. Как достичь высокого результата и обеспечить его устойчивость.. Пер. с английского. Москва, 2005
11. Портер М. Е. Международная конкуренция. — М.: S«Международные отношения», 1993
12. Фатхутдинов Р.А. Конкурентоспособность: экономика, стратегия, управление. М.: ИНФРА-М, 2000

1. Jon Wakeman-Linn, Paul Mathieu, Bret van Selm. Oil Funds and Revenue management in transition economies: The case of Azerbaijan and Kazakhstan. IMF, 2003.
2. Stijns J.T. Natural resource abundance and economic growth revisited. Development and Comparative Systems, 0103001, EconWPA, 2005.

**İnternet resursları**

1. http://www.stat.gov.az.
2. http://www.cbar.gov.az.
3. www.anfes.gov.az
4. https://www.economy.gov.az/article/azerbaycan-respublikasinda-qeyri-neft-sektorunun-inkishafi-2018-ci-ilin-birinci-rubu-uzre/29186
5. https://www.economy.gov.az/article/development-of-non-oil-industry-in-january-march-2012/22065
6. http://edf.gov.az/az/content/30
7. https://uploads.cbar.az/assets/af7f199aa9e98542f2b988bd8
8. https://www.stat.gov.az/menu/4/e-reports/az/01/001_p.php

**Cədvəllərin siyahısı:**

**Cədvəl 1.** Qeyri-neft sənaye sahələrinin ümumi buraxılışı, faizlə (2011-2015-ci illər üzrə)........................................................................................................36

**Qrafiklərin siyahısı:**

**Qrafik1.** Azərbaycanda fəaliyyət göstərən banklarının valyuta məzənnəsi ilə əlaqədar "kövrəklikləri"...........................................................................................19

**Qrafik 2.** Ölkənin qeyri-neft sənayesi üzrə bölgü (2018).......................................70

**Qrafik 3.** Qeyri-neft sənayesinin məhsul istehsalının bölgüsü (2018)...................72